# Ali məktəblərdə korrupsiyanın tədqiqi

Baxışlar, problemlər, mümkün həll yolları

**Bu metodik vəsait Korrupsiya Əleyhinə Milli Proqram və Birləşmiş Millətlər Təşkilatı İnkişaf Proqramının "Təhsil, Məlumatlandırma və Şüurluluğun İnkişaf Etdirilməsi Vasitəsilə Korrupsiyanın Qarşısının Alınması" layihəsi əsasında hazırlanıb.**

Nəşr üçün materialları hazırlayanlar:
Yolanta Peliponite, Transparency International Litva bölməsi
Dr. Arunas Povilunas, Vilnüs Universiteti
Nataliya Rumyantseva, Vanderbilt Universiteti
Vitaliya Skeruvene, Kaunas kolleci
Gintare Şatene, Şauliay Universiteti
Dr. Tadas Tamoşunas, Vilnüs Pedaqoji Universiteti
Vayva Zuzaviçute, Vytautas Magnus Universiteti

Tərtibçi:
Daiva Penkauskiene, Müasir Didaktikalar Mərkəzi

Bu metodik vəsait Vilnüs Pedaqoji Universitetinin Sosial Elmlər kafedrasının 14.01.2005 tarixli iclasında və Tarix fakültəsinin 24.01.2005 tarixli iclasında müzakirə edilib çapa məsləhət görülmüşdür.

Rəyçilər:
Prof., Habil. Dr. Yuozas Baqdanaviçus
Dos., Dr. Valdone İndraşene

# ÖN SÖZ

“Ali məktəblərdə korrupsiyanın tədqiqi: baxışlar, problemlər, mümkün həll yolları” metodik vəsaiti ali məktəb müəllim və tələbələri üçün nəzərdə tutulub. Burada “Təhsil, Məlumatlandırma və Şüurun İnkişaf Etdirilməsi Vasitəsilə Korrupsiyanın Qarşısının Alınması” adlı iki illik layihənin nəticələri – sosial elmlər üzrə tədris proqramları çərçivəsində korrupsiyaya qarşı tərbiyə imkanlarını əks etdirən tədris fənləri proqramları və mühazirələrin genişləndirilmiş planları təqdim olunur. Bu layihə Birləşmiş Millətlər Təşkilatı İnkişaf Proqramı və Litva Respublikası hökumətinin dəstəyi ilə və Korrupsiya Əleyhinə Milli Proqram müddəaları əsasında həyata keçirilib. Kitabın əsas məqsədi proqramın ən ümdə qayəsi – “Korrupsiya təzahürlərinə dözülməzliyi hər vəchlə dəstəkləmək /.../, xüsusi tədris proqramları yaradıb maarif və təhsil sistemində tətbiq etmək” niyyətinə nail olmağa kömək etməkdir.

Kitabın oxucuları nəinki hazırlanmış tədris proqramlarından istifadə edə bilər, həmçinin korrupsiya haqqında, onun dünyada və Litvada yayılması, ali təhsil sistemində təzahürü, müəllim və tələbələrin münasibəti haqqında daha ətraflı məlumat əldə edə bilərlər. Kitabın sonunda Əsas məfhumlar lüğəti, habelə mənbələr və ədəbiyyat siyahısı təqdim edilir.

Bu materialların hamısı – layihə iştirakçılarının müəllif işləridir. Hər müəllif proqramları hazırlayarkən öz ali məktəbinin tələblərini, tədris etdiyi fənnin xüsusiyyətləri və imkanlarını nəzərə alıb. Layihə iştirakçıları və proqram müəllifləri öz işlərini pilot layihəsi kimi qiymətləndirir və ümid edirlər ki, ayrı-ayrı ali məktəblərdə çalışan, digər fənləri tədris edən müəllimlər bu kitabdan bəhrələnərək yeni, orijinal tədris proqramları və öz modellərinin yaradılması ilə məşğul olacaqlar.

TƏRTİBÇİ

YOLANTA PİLİPONİTE

# KORRUPSİYA FENOMENİ

## Giriş

Son vaxtlar biz daim eşidir, görür və hiss edirik ki, korrupsiya dövlətimizin hər bucağını, hətta öz məhəlləmizi duman kimi bürüyür. Dərhal sual ortaya çıxır - bu epidemiyadır, yoxsa sadəcə olaraq post-modernist yaşayışın daha bir ikimənalılığıdır? Burada kütləvi informasiya vasitələrinin, xüsusilə televiziyanın rolu çox böyükdür. Demək olar ki, hər gün bizə dövlətin müxtəlif səviyyələrində və ayrı-ayrı şəxslərin həyatında korrupsiya halları haqqında məlumat verilir. Beləliklə, korrupsiya mövzusu son vaxtlar çox aktualdır. Litva cəmiyyəti və sahibkar dairələrin nümayəndələri bu fikirlə razıdırlar ki, korrupsiya ölkə həyatında və sahibkarlığın inkişafında böyük əngəldir. Qəribədir ki, ölkə əhalisinin və sahibkarlarının əksəriyyəti «Rüşvət verməyə hazırsınızmı?», - sualına dərhal "Hə" cavabı verirlər (Korrupsiya xəritəsi..., 2004, səh. 13.) Buradan belə bir sual meydana çxır - belə çoxüzlü, bəlkə də ikimənalı fenomeni necə müəyyən və izah etmək olar? Burada vətəndaş cəmiyyəti nə etməlidir?

Bu məqalənin məqsədi korrupsiya məfhumunun tərifi problemlərinə nəzər salmaq, korrupsiyanın nəzəri təhlili perspektivlərini açıqlamaq, korrupsiyanın üzərində nəzarət və qarşısının alınması üçün ən effektiv üsullardan biri kimi onun diaqnostikasını müzakirə etmək və bu işdə vətəndaş cəmiyyətinin roluna Ceremi Popun sistem baxışını açıqlamaqdan ibarətdir. Məqalənin birinci hissəsində korrupsiya məfhumunun tərifinə baxışlar, habelə bu tərifin müəyyən edilməsində qanunvericilik, ictimai maraq və ictimai fikrin rolu təhlil edilir. İkinci hissə korrupsiya məfhumunun tərifi müəyyən edilərkən yaranan problemlərə həsr olunur. Üçüncü hissədə iki nəzəri perspektiv müzakirə edilir. Burada ən nüfuzlu korrupsiya tədqiqatçılarından biri olan A. Heidenheimerin baxışı və onun əsasında korrupsiyanın bütün növlərinə nəzər salmaq və onların müqayisəli təhlilini aparmaq təşəbbüsü edilir, habelə təmsil edilənlə təmsil edənə nəzər salınır və təmsil edilən təmsil edənə səlahiyyət verəndə nələrin baş verdiyi təhlil edilir. Dördüncü hissə korrupsiyanın zəif yerlərini müəyyən etməyə imkan verən və beləliklə korrupsiyaya qarşı kəsərli proqramların yaradılmasına kömək edən diaqnostikaya həsr edilir. Beşinci hissədə vətəndaş cəmiyyətinin rolu və C. Popun korrupsiyanın qarşısı alınmasına sistem baxışı müzakirə edilir. Məqalənin sonunda yuxarıda göstərilən məsələlərin xülasəsi verilir.

## Korrupsiya tərifinin axtarışı

Korrupsiyanın tədqiqi ilə məşğul olan Norveç alimlərinin dediyinə görə, bu mürəkkəb fenomenə müxtəlif nəzəri modellərdən istifadə edərək, tədqiqat apararaq, ayrı-ayrı korrupsiya hallarını və qalmaqallarını ətraflı tədqiq edərək fənlərarası kontekstdə baxmaq lazımdır (Andvig and Fjeldstad, 2000, səh. 9). Daha geniş mənada, "korrupsiyanın tədqiqi ilə məşğul olan və onun haqqında yazan müəllifləri üç qrupa bölmək olar" (Heidenheimer, Johnson, 2002, səh. 6-7).

1. Alimlərin əksəriyyəti bu fenomenin Oksford ingilis dili lüğətində verilən və *dövlət xidməti vəzifələri anlayışı* ilə bağlı olan tərifə əsaslanır.

2. Alimlərin digər qrupu korrupsiyaya iqtisadi nəzəriyyədən yaranan *tələb, istehlak və mübadilə anlayışına* əsaslanan tərif verir.
3. Üçüncü qrup korrupsiya haqqında mülahizələrində *ictimai mənafe anlayışına* əsaslanır.

Sadə dillə desək, *korrupsiya – dövlət qulluqçularının vəzifələrinə uyğun olmayan davranışıdır. Beynəlxalq Şəffaflıq (Transparency İnternational)* qeyri-hökumət təşkilatı korrupsiyanı *"həvalə edilmiş dövlət səlahiyyətlərindən şəxsi faydalanma məqsədilə sui istifadə"* kimi qiymətləndirir (Pope, 2000, səh. 1). Bu, korrupsiyanın dünyada ən geniş yayılmış təriflərindən biridir.

**Korrupsiyanın aşağıdakı təzahürlərini qeyd etmək olar:** rüşvətxorluq, nepotizm, himayədarlıq, sifarişçilik, qeyri-qanuni lobbizm, qeyri-qanuni qaydada dövlət vəsaitlərinin ayrılması və təkrar ayrılması, qeyri-qanuni özəlləşdirmə, mövcud olmayan layihələrin yaradılması, qeyri-qanuni ödənclərin yığılması, vergilərin gizlədilməsi, seçici səslərinin pulla alınması, siyasi partiyaların qeyri-qanuni maliyyələşdirilməsi və s.

Artıq qeyd edildiyi kimi, korrupsiya çox vaxt dövlət qulluqçularının nalayiq və ya standart qaydalara uyğun olmayan davranışı kimi qiymətləndirilir. Yel Universiteti siyasi elmlər üzrə professoru J.C. Scott korrupsiyanın müəyyən standartlara cavab verməyən davranış kimi qiymətləndirilməsi ilə razılaşaraq sual verir: "Həmin standartların müəyyən edilməsində biz hansı meyarlara əsaslanırıq?" (Gardiner, 2002) səh. 29). Bu problemə hüquq, ictimai mənafe və ictimai fikir baxımından nəzər salaq.

## Korrupsiya tərifində qanunvericiliyin rolu

Professor J.C. Scottun sualına cavab verərkən hər kəs, təbii ki, hüquqi sənədlərdə aydın şəkildə ifadə edilmiş meyarlara üz tutardı. Məsələn, vəzifəli şəxsin qanunla qadağan edilmiş əməli qanunsuz, yəni korrupsion hesab edilir, əks halda isə bu əməl, tərkibində səlahiyyətlərdən sui istifadə və ya etika pozuntusu olsa belə, korrupsion deyil. Hüquqşünaslar formal cəhətdən aydın olan belə tərifi qiymətləndirirlər. Aydın məsələdir ki, həm dövlət qulluqçuları, həm də sadə vətəndaşlar belə tələb və qadağaları bilməlidirlər.

Müxtəlif ölkələrin qanunvericiliyində korrupsiyanın aydın tərifi verilsə də, professor J.C. Scottu aşağıdakı problemlər də narahat edir:

- Doğrudanmı qanuni olan hər bir şey etik normalara həmişə cavab verir?
- Hüquqi bazanın müxtəlifliyi səbəbindən eyni hərəkətlərin müxtəlif ölkələrdə müxtəlif cür anlanması təhlükəsi yaranır.
- Dövlət sektorunun miqyası müxtəlif olan ölkələrdə (məsələn, bir ölkədə əhalinin əksəriyyəti dövlət sektorunda işləyir, digərində isə - özəl sektorda) korrupsiyanı müqayisə etmək çətindir (Scott, 1972, səh. 5).

## Korrupsiya tərifində ictimai mənafe məsələsi

J. Gardinerin gətirdiyi və korrupsiyanın hüquqi tərifi problemini əks etdirən iki misaldan başlayaq.

- İkinci Dünya müharibəsi illərində Almaniyada yəhudilərə emiqrasiya etməyi qadağan edən qanun var idi. Yəhudi ailəsi pasport müfəttişinə 1000 Alman

Markası verəndə, ölkəni tərk etməyə icazə ala bilirdi. Bu, korrupsiyadır, yoxsa yox? Müfəttiş rüşvət alaraq qanuna zidd qərar qəbul edirdi, amma bu, korrupsiya hesab edilməlidirmi? Müfəttişin belə hərəkətinə bəraət qazandırmaq olarmı? Vətəndaşların əksəriyyəti, yəqin ki, deyərdi ki, qanunun sərtləşdirilməsi yəhudilər üçün bəla idi, göstərilən qanunsuz hərəkət isə, yəni yəhudi ailələrinə ölkəni tərk etməyə icazənin verilməsi etik bir addım idi.

• Yuxarıdakı misal göstərir ki, qanunsuz hərəkətlər heç də həmişə korrupsion deyil. Aşağıdakı misal isə əks vəziyyəti təsvir edir – qanuni hərəkət korrupsion ola bilər. 1950-1960-cı illərdə ABŞ şəhərlərini böhran bürüyəndə Konqres tərəfindən şəhərlərin bərpası proqramı qəbul edilmişdi. Proqrama əsasən dağılan ərazilərdə yerləşən torpaqlar dövlət agentlikləri tərəfindən yararsız hesab edilir, binalar sökülür, torpaq isə satılırdı. Bu dövlət proqramı nəticəsində torpaq sahələrinin əksəriyyəti "həyata qaytarılmışdı". Çox vaxt bu – yoxsul və ya irqi azlıqlara məxsus torpaqlar idi. Həmin ərazilərdə möhtəşəm evlər və müəssisələr ucaldılırdı. Qeyd etmək lazımdır ki, məmurlar bütün zəruri qaydalara əməl edirdilər. Belə olduqda, bu hərəkətlər korrupsion idi, yoxsa yox? J.C. Scott hesab edir ki, şəhərlərin bərpası proqramı orta və yuxarı təbəqə adamları üçün əlverişli idi. Bu proqram doğrudanmı şəhərlərin iqtisadi problemlərini həll etməyə kömək edib? Aydındır ki, kasıb adamlar ziyan çəkib, varlılar isə daha da varlanıblar. Demək olar ki, "şəhərlərin bərpasına yönəlmiş bu proqram ABŞ siyasi həyatında korrupsiyanı bərqərar etdi" (Gardiner, 2002, səh. 31). Digər tərəfdən, qeyri-bərabər imkanlar və faydalanmaya səbəb olan siyasi proseslərdən söhbət gedəndə hər dəfə *korrupsiya* sözündən istifadə etmək düzgün deyil. Göstərilən misallardan birincisi o qədər də mübahisəli deyildi, ikincisinə gəldikdə isə, buradakı "korrupsion hərəkətlərə" müxtəlif yanaşmalar mövcud ola bilər.

Beləliklə, sual bundan ibarətdir: *göstərilən misallar əsasında korrupsiya tərifi haqqında nə demək olar?* Başqa sözlə,

• *qanuni olsa da, ictimai mənafelərə ziyan verən hərəkət korrupsiondurmu?*

• *qanuna zidd olsa da, ictimai mənafelərə xeyir verən hərəkət korrupsion deyilmi?*

Hər iki misala, yəni iki rəsmi dövlət sənədinin nəticələrinə həm *fərdi səviyyədən* (emiqrasiya etməyə çalışan ailə; evləri dağıdılan sakinlər), həm də daha geniş, *ictimai səviyyədən* yanaşmaq olar. Ümumiləşdirərək demək olar ki, "ictimai mənafe üçün korrupsiyanın nəticələri bir sıra amildən ayrı təhlil edilə bilməz" (Gardiner, 2002, səh. 32).

Korrupsiya fenomenini siyasi proses kontekstindən ayrı təhlil etmək mümkün deyil. Hər şeyin qanunvericilikdən asılı olmağını düşünmək yaxşıdır, lakin o fakta da tənqidi yanaşmaq lazımdır ki, digər qeyri-qanuni hərəkətlər kimi korrupsiya da *qanunvericilik məqsədlərini zəiflədir və hətta tamamilə heçə endirir.* Bununla belə, biz etiraf etsək ki, qanunvericilər pis qanunlar qəbul edə bilirlər, ələlxüsus bir ölkədə qanunlar hazırlananda hər hansı sosial qrupun mənafelərinə daim göz yumulur və ya ictimai rəy nəzərə alınmırsa, onda biz iddia edə bilərik ki, bəzi korrupsion hərəkətlər labüddür. "Bu bizə *ictimai mənafe amilini korrupsiyanın tərifi ilə* bağlamağa imkan verir" (Gardiner, 2002,

səh. 32). Belə birləşmədə də dəqiq tərif yoxdur və onu birmənalı və hamı üçün məqbul olan cavabla əlaqələndirmək çətindir, lakin o, ayrı-ayrı hadisələri, halları, vəziyyətləri qiymətləndirərkən və ya qərar qəbul edərkən vacib suallar verməyə imkan verir.

## Korrupsiya tərifində ictimai rəyin rolu

Korrupsiyanın qanunvericilikdə verilən tərifi ilə vətəndaşların onu necə anlamaları arasında aşkar fərq varsa, ola bilər ki, dövlət qulluqçuları da qanuna riayət etməkdənsə, cəmiyyətdə üstünlük təşkil edən dəyərlərlə hesablaşmağa meyl göstərəcəklər. Bundan başqa, J. Gardinerin dediyi kimi, cəmiyyətin korrupsiyaya münasibəti ilə onun hüquqi tərifi arasındakı fərq böyükdürsə, korrupsiyaya qarşı təsirli tədbirləri həyata keçirmək ya heç mümkün deyil, ya da olduqca çətindir.

Prokuror və müstəntiqlər bilirlər ki, korrupsiyadan ehtiyat edən vətəndaşlar

- cinayət haqqında məlumat verməyə;
- istintaqın aparılmasına kömək etməyə;
- qeyrətli siyasətçilərə səs verib, fırıldaqları seçməməyə;
- qanuna uyğun hərəkət etmək və rüşvət təklif etməməyə

meyllidirlər.

"Göstərilən səbəblərə görə hüquq-mühafizə orqanlarının korrupsiyaya qarşı yönəlmiş təsirli tədbirlərdən söhbət gedəndə cəmiyyətin korrupsiya haqqında rəyi olduqca vacibdir" (Gardiner, 2002, səh. 33).

## **Korrupsiya tərifini verməkdə yaranan problemlər**

Biz nə qədər düşünsək də, korrupsiyanın tərifini verməyə çalışarkən mütləq çətinliklərlə üzləşəcəyik. Bununla bağlı nəzəriyyəçilər aşağıdakı əsas problemləri göstərirlər:

- korrupsiyanın dövlət hüquqi sənədlərində verilən tərifi ilə onun cəmiyyətə göstərdiyi təsir və cəmiyyətin onu necə anlamağı arasında fərqlər var;
- göstərilən problemlərə müxtəlif ölkələrdə nə cür tərif verilməsində və onların anlaşılmasında olan fərqlərə görə də əhəmiyyətli dərəcədə ziddiyyət yaranır (Gardiner, 2002, səh. 25).

Aşağıda biz korrupsiyanın tərifinə dair bir neçə mülahizəni təqdim edəcəyik. Harvard universitetinin professoru J.S. Nye tərəfindən verilmiş klassik tərifə görə korrupsiya "fərdi (şəxsi, ailəvi, qrup) varlanma və ya status qazanmaq xatirinə seçki və ya təyinat yolu ilə həvalə edilmiş formal dövlət rolundan kənara çıxan davranışdır" (Nye, 1989, səh. 966). Bu tərifin bəzi məqamları xüsusilə vacibdir. Yəqin ki, çoxları burada *dövlət rolu amili* vurğulanması ilə razılaşar. Korrupsiya yalnız vəzifəli şəxsin öz *dövlət xidməti rolunu* yerinə yetirəndə mümkündür. Bəs J.S. Nye qeyd etdiyi *fərdi faydalanma* necə? Müəllif fərdi varlanma və ya status qazanma xatirinə vəzifədən sui istifadəni vurğulayır. Bu tərifdə deyilir ki, pul vəzifəli şəxslərin və ya onların qohumlarının ciblərinə gedir, amma *vəzifəli şəxsin üzvü olduğu siyasi partiya, etnik qrup və sairənin faydalanması xatirinə* vəzifədən sui istifadə halları diqqətdən kənar qalır. J.S. Nye tərifinin başqa qüsuru ondadır ki, o, korrupsiyanı "fərdi maraq təsiri müəyyən növlərinin tətbiq edilməsini qadağan edən qaydaları pozan davranış" hesab edir (Gardiner, 2002, səh.

26). Lakin bu tərif ayrı-ayrı ölkələrdə korrupsiyanın yayılmasını müxtəlif cür izah edilməsinə gətirir. Bəzi dövlətlərdə dövlət qulluqçularının davranışını tənzimləyən formal qaydalar mövcud deyil; digər dövlətlər nəzərə alır ki, siyasətçilər və vəzifəli şəxslər öz rəsmi vəzifələrini şəxsi işləri ilə qarışdıra bilərlər. Bu, o deməkdirmi ki, bəzi ölkələrdə müəyyən hərəkətlər Nye tərəfindən verilmiş korrupsiyanın formal tərifi çərçivəsi daxilindədir, digərlərində isə yox? Bu sualı professor Gardiner verir.

Digər mühüm kateqoriya *vəzifəli şəxslər tərəfindən dövlət səlahiyyətlərindən sui istifadədir*. Yəqin ki, bunun dəqiq tərifini vermək mümkün deyil. Kanadalı politoloq Ken Gibbons "vəzifədən sui istifadə" kimi qiymətləndirilə bilən hərəkətləri müəyyən edib:

- dövlət qulluqçusu dövlət xidmətinə daha bacarıqlı namizədi deyil, öz qohumunu qəbul edir (nepotizm);
- seçkilərdə qalib gələn siyasi partiya müxalif partiyanı dəstəkləyən bütün vəzifəli şəxsləri işdən azad edir (himayədarlıq);
- qanunvericilik nümayəndələri filizçıxarma şirkətinin vəsaitlərini idarə edir və bu qəbildən olan şirkətlərə vergi imtiyazları verən qanun layihəsinə səs verirlər (qanunvericilikdə mənafelər ziddiyyatı);
- hökumət rəsmiləri onların əlində olan bilik və məlumatdan istifadə edərək şəxsi müştərilərinə məsləhətlər verir (bürokratik mənafelər ziddiyyəti) (Gibbons, 1989, səh. 778).

K.Gibbonsun bu siyahısını davam etdirmək olar:

- iqtidarla dostları və ya siyasi müdafiəçiləri üçün əlverişli şərtlərlə müqavilələr bağlamaq;
- kütləvi informasiya vasitələrinə və cəmiyyətə yalan danışmaq;
- siyasi kampaniyalar və s. tədbirlərin maliyyələşdirilməsinin digər müxtəlif formalarından istifadə etmək.

Səlahiyyətlərdən sui istifadə məsələsinə yekun vuraraq qeyd etmək lazımdır ki, onun tərifində olan ikimənalılıq olduqca aktualdır. Belə sui istifadənin müəyyən formaları bəzi ölkələrdə qadağan edilib. Bu belədirsə və J.S. Nye verdiyi tərifin ikinci hissəsi yerinə yetirilirsə (yəni, vəzifəli şəxs bundan faydalanırsa), belə hallar korrupsiyanın başqa formalarına bərabər tutula bilər. Bu cür sui istifadə formaları qanuni hesab edilən ölkələrdə belə, vəzifəli şəxslərin hərəkətləri və davranışı ən azı qeyri-etik hesab edilir və cəmiyyət bunlardan narazı olduğunu bildirir.

Korrupsiyanın tərifi ilə bağlı nəzəri şübhələr bunlardır. Bu barədə hələ çox danışmaq və müzakirə aparmaq olar, xüsusilə müqayisəli beynəlxalq səviyyədə,

İndi korrupsiyanın mümkün nəzəri təhlilinə keçək. A. Heidenheimerin nəzər nöqtəsi makroanalitik səviyyə ilə, "təmsil edilənlə təmsil edən" modeli isə - mikrosəviyyə nəzəriyyəsi ilə uzlaşır.

## Korrupsiyanın nəzəri analizi perspektivləri

A. Heidenheimerin sistemli nəzər nöqtəsi

Korrupsiya hallarının tədqiqatçıları arasında A.Heidenheimerin nəzər nöqtəsi ən nüfuzlu mövqelərdən biridir. Korrupsiyanın müxtəlif növləri təhlil edilərkən və mü-

qayisəli analiz aparılarkən bu nəzər nöqtəsinə müraciət edilir.

A.Heidenheimerin əsərlərində istifadə edilən korrupsiya tərifinin əsasını *dövlət xidməti* təşkil edir. Bundan başqa, müəllif ictimai rəy tədqiqatlarına əsaslanır ki, bunlar ona korrupsion fəaliyyətinin konkret növlərini izah etməkdə kömək edir.

A.Heidenheimer korrupsiyanın müxtəlif cəmiyyətlərdə yayılmasını təhlil edir və gələcəkdə korrupsiyanın hansı növünün cəmiyyətdə daha çox təzahür edəcəyi haqqında fikir söyləyir. Siyasi öhdəliklərin qarşılıqlı münasibətləri baxımından müəllif cəmiyyəti dörd qrupa bölür:

- ənənəvi ailə cəmiyyəti (məsələn, E. Banfield əsərlərində təsvir edilmiş Monteqran cəmiyyəti);
- himayədarlar və himayə altında olanların (sahibkarlar və müştərilər) ənənəvi cəmiyyəti (Antropoloqlar J. Boissevain və J.K. Campbell tədqiq etdikləri Siciliya və Yunanıstan cəmiyyətləri);
- müasir müdirlər və onların tabeliyində olan işçilər cəmiyyəti (ötən əsrin əvvəllərində Amerikanın iri şəhərləri);
- vətəndaş mədəniyyəti cəmiyyəti (Amerika və Böyük Britaniyanın orta ölçülü şəhərləri və onların ətrafı) (A.Heidenheimer, 2002, səh. 143).

Bu model qərbi elitanın korrupsion hesab etdiyi siyasi davranışın dövlət qulluqçuları arasında nə qədər geniş yayılmağını nümayiş etdirir. O, həm də rəsmən korrupsion hesab edilən davranışın müəyyən cəmiyyət və onun elitası tərəfindən nə cür – ciddi yoxsa dözümlə - qiymətləndirilməsini təsəvvür etməyə kömək edir. Alimlər ilk növbədə korrupsiyanın üç növünü qeyd edirlər:

- xırda;
- adi;
- qatı (A.Heidenheimer, 2002, səh. 150-152).

Belə qruplaşdırma korrupsiyanın təkrarlanması və yayılma miqyası meyarlarına əsaslanır. O, həm də korrupsiyanın cəmiyyətdə yayılması nəticəsini, habelə siyasi öhdəliklər və münasibətlərin müxtəlif sistemlərində korrupsion davranışın vərdişə çevrilib-çevrilməməyini göstərir.

Müxtəlif siyasi sistemlərdə müəyyən hərəkətlərin elita və cəmiyyət tərəfindən necə qiymətləndirilməsindən asılı olaraq A.Heidenheimer korrupsiyanı aşağıdakı kateqoriyalara bölür:

- qara;
- boz;
- ağ (A.Heidenheimer, 2002, səh. 152).

*Qara korrupsiya* – həm elita, həm də cəmiyyətin əksər hissəsi tərəfindən korrupsion hesab edilən hərəkətlərdir. Aralıqda yerləşən *boz korrupsiya* məfhumuna elə hərəkətlər daxildir ki, onlar haqqında birmənalı fikir yoxdur və ya, vətəndaşların belə hərəkətlərin cəzalandırılmalı olub-olmamağı haqqında nə düşündüklərindən asılı olaraq bu fikir dəyişir. Bəzi qruplar, adətən elita, müəyyən davranışı qeyri-qanuni hesab edir və onun cəzalandırılmasını istəyir, digər sosial qruplar isə başqa cür düşünür. Adamların əksəriyyəti bu məsələyə çox vaxt sadəcə olaraq laqeyd yanaşır. A.Heidenheimerin dediyinə görə, boz korrupsiya hallarında elita adətən narazılıq bildirir, cə-

miyyət isə laqeyd qalır. Professorun *ağ korrupsiya* adlandırdığı elə haldır ki, müəyyən korrupsiya təzahürlərinə həm elita, həm də cəmiyyətin əksər hissəsi barmaqarası baxır və belə davranışa qarşı yönəlmiş tədbirlər o qədər də böyük dəstəklə qarşılanmır.

Göstərilən cəmiyyət və korrupsiya növlərini birləşdirərək, A.Heidenheimer iddia edir ki, müasir vətəndaş mədəniyyəti cəmiyyətində qatı korrupsiya halları çox seyrək olur və ya heç səciyyəvi deyil və bunları *qara korrupsiya* kimi səciyyələndirmək lazımdır. Digər üç növ cəmiyyətlərdə, əksinə, *adi korrupsiyaya* təsadüfi (müştərilər öz üzərinə səs toplamaq üzrə öhdəliklər götürdükləri hallar istisna olunmaqla) rast gəlinir və o, *qara korrupsiya* kimi səciyyələndirilir. Hədiyyəvermə və nepotizm halları, sövdələşmə kollektiv şəkildə aparılırsa (məsələn, partiyaların maliyyələşdirilməsi), *boz korrupsiya* hesab olunur. Xırda korrupsiyaya daha çox rast gəlinir və o da *boz korrupsiya* hesab edilir.

İsveç alimi Andersson qeyd edir ki, korrupsiyanın təhlili üçün A.Heidenheimer modelindən istifadə edərkən nəzərə almaq lazımdır ki, korrupsiyanın əksər səciyyəvi xüsusiyyətləri Cənubi Avropa, Amerika və Böyük Britaniyadan gəlib. Digər tərəfdən, bu, alimin təklif etdiyi fərziyyələri yoxlamağa və nəzəriyyənin tətbiq edilmə sahəsini genişləndirməyə imkan verir. A.Heidenheimer özü bir neçə il əvvəl qeyd edib ki, cəmiyyətdəki qlobal dəyişikliklər korrupsiya tərifinə təsir göstərir. Onun fikrincə, qloballaşma prosesində korrupsiya anlamı daha da fraqmentar və ikimənalı olur. Yəni, qara, boz və ağ korrupsiyanı təsvir edən model korrupsion davranışı əks etdirmək qabiliyyətini itirir.

Deyilənləri tamamlamaq üçün bir daha yada salmaq lazımdır ki, A.Heidenheimerin nəzər *nöqtəsi həm müqayisəli tədqiqatlar üçün, həm də ayrı-ayrı halların təhlili üçün yararlıdır*. Bu nəzəriyyənin üstün cəhətlərindən biri ondan ibarətdir ki, müəllif yalnız korrupsiyanın hüquqi tərifinə bağlı deyil, onun üçün bu *fenomenin daha geniş anlamı da vacibdir*. Belə yanaşma korrupsiyanın müxtəlif növlərinə nəzər salmağa imkan verir. Bu mövqenin zəif cəhəti kimi sistemin xeyli *köhnəlmiş təsnifatını,* habelə *kontekstə və iştirakçılara az diqqət ayrılmasını* qeyd etmək olar. Buna görə indi biz başqa bir mövqeyi müzakirə edəcəyik ki, bunun mahiyyəti məhz iştirakçılar və məlumatdan ibarətdir.

## Mikrosəviyyə: təmsil edilən və təmsil edən modeli

Təmsil edilən və təmsil edən modelinin məğzi mübadilə nəzəriyyəsinin bir qolu sayılan və maksimum seçim nəzəriyyələrinə aid olan məqsədyönlü seçim nəzəriyyəsindən gəlir. İqtisadi perspektivi nəzərə alaraq, məqsədyönlü seçim nəzəriyyəsi firavanlığa çatmağa və ya maddi ehtiyaclarını ödəməyə çalışan şəxsin strateji hərəkətlərini təhlil edir. Əsas diqqət "lehinə" və "əleyhinə" dəlilləri qiymətləndirən şəxsin (məsələn, korrupsionerin) konkret vəziyyətinə yönəldilir.

Bu modelin əsas məqsədi özəl sektorda iş verənlərlə işçilər arasındakı münasibətləri təhlil etməkdir, amma aydındır ki, onu dövlət sektorunda da tətbiq etmək olar. Təmsil edilənlə təmsil edənin baxışlarından tanınmış Amerika alimi S. Rose-Ackerman, habelə iqtisadçılar Klitgaard, Jain və başqalarının korrupsiyaya həsr olunmuş tədqiqatlarında istifadə edilmişdi.

Təmsil edilənlə təmsil edənin baxışları mikrosəviyyə nəzəriyyəsidir. Bu nəzəriyyə təmsil edilən təmsil edənə səlahiyyət verəndə nələr baş verdiyini izah edir. Adətən təmsil edəndə elə məlumat və ya bacarıq var ki, təmsil ediləndə bunlar azdır. Bu modeli seçərkən

yadda saxlamaq lazımdır ki, təmsil ediləndə təmsil edənin mənafeləri heç də üst-üstə düşməli deyil. "Təmsil edilənlə təmsil edənin maraqları və ya prioritetləri fərqlənəndə, habelə təmsil edən təmsil ediləndən daha yaxşı və daha ətraflı məlumat əldə edə biləndə, təmsilçilik problemi yaranır" (Andersson, 2002, səh. 38). Bəzi hallarda təmsil edilən təmsil edənə səlahiyyət verməkdən qabaq, bəzən isə bundan sonra müdafiəyə müraciət edir.

Müasir demokratiyada siyasi sistemin səciyyəvi xüsusiyyəti iqtidarın bütün səviyyələrinə səlahiyyətlərin verilməsindən ibarətdir. Beləliklə, bu nəzəri baxışın əsas üstünlüyü *səlahiyyət silsiləsini təhlil etmək imkanındadır*. Bundan başqa, bu nəzəriyyə səlahiyyət silsiləsinin güclü və zəif cəhətlərinin səbəblərini təhlil etməyə imkan verir. Səlahiyyətlərin verilməsi prosesinin təhlili zamanı bir sıra maraqlı sual meydana çıxır:

- Doğrudanmı təmsil edilən bilir ki, təmsil edən ona həvalə edilən öhdəlikləri yerinə yetirir?
- Təmsil edənlərin öz fəaliyyətləri haqqında verdikləri məlumat düzgündürmü?

Bu suallar bizi bir məsələ haqqında düşünməyə vadar edir: təmsil edənlər təmsil edilənlər qarşısında necə hesabat verməli və onların nəzarəti altında olmalıdırlar ki, təmsil edilənlər onlara etimadını itirməsin. Burada əsas amil *məlumat əldə etmək imkanıdır*. Adətən səlahiyyətləri həvalə edən tərəfin əlində olan məlumat səlahiyyətləri qəbul edən tərəfdə olan məlumatdan az olur.

Təmsil edilən və təmsil edən nəzəriyyəsi tənqid edilsə də (Lambsdorff, 2001, səh. 19), korrupsiyanın tədqiqində o getdikcə daha populyar olur. S. Anderssonun dediyinə görə, fərdlərin etdiyi seçimi müəyyən edən məsələləri institusional amillərdən əhəmiyyətli hesab etməsək də, onlar gözlənilən niyyəti tamamlamağa və ya izah etməyə kömək edə bilər. Korrupsiya kontekstdən kənar edilmiş müəyyən fərdi seçim nəticəsi kimi qiymətləndirilmir. Əksinə, qərarların qəbul edilməsində *sosial kontekst* mühüm rol oynayır. Korrupsiyaya həsr olunmuş tədqiqatlarda təmsil edilən və təmsil edən modellərinin əksəriyyətində iqtisadi modellərdən antesedentlər var. Təhlilin başlanğıc nöqtəsi – məlumatın asimmetriyası, qarşılıqlı münasibətlərdə mükafatlandırma qaydası, qiymətin müxtəlif növləri (qiymətləndirmə qiyməti, öhdəlik qiyməti, itki) arasından seçim yaxud qərarın qəbul edilməsidir.

Təmsil edilən və təmsil edən modellərinin əksəriyyətindən dövlət idarəçiliyində istifadə edilir. İsveçdə korrupsiya təhlükəsi sahələrini tədqiq edərkən S. Andersson bu modeli səlahiyyət vermə silsiləsinin təhlili üçün, habelə dövlət idarəçiliyində çatışmazlıqları müəyyən etmək üçün tətbiq etmişdi. O deyirdi ki, səlahiyyət silsiləsinin ümumi strukturu təhlil edilən zaman konkret müştəri üçün potensial fayda və qiymətlə yanaşı təmsil edilən və təmsil edən nəzəriyyəsi *korrupsiya təhlükəsi sahələrini daha yaxşı anlamağa və kəmiyyətdən çox proses və keyfiyyətə yönəlmiş korrupsiya hallarının tədqiqi üsulları siyahısını genişləndirməyə imkan verir* (Andersson, 2002, səh. 42).

## Korrupsiyanın diaqnostikası

Korrupsiyanın nəzarət altında saxlanması və qarşısı alınması üçün ən səmərəli mexanizmlərdən biri korrupsiya qarşısında ən zəif sahələri müəyyən etməyə və bunun-

la korrupsiyaya qarşı kəsərli proqramların hazırlamağa imkan verən *korrupsiyanın diaqnostikasıdır*. Dünyada və Litvada korrupsiyanın ən mühüm tədqiqatlarına nəzər salaq.

## Beynəlxalq səviyyə

### Korrupsiyanın qavranması indeksi

Dünyada korrupsiyanın diaqnostikası üçün ən vacib metodikalardan biri Transparency İnternational korrupsiya əleyhinə beynəlxalq təşkilatının hər il nəşr etdiyi korrupsiyanın qavranması indeksidir (KQİ). 1995-ci ildən nəşr olunan bu kompleks göstərici iş adamlarının arasında aparılan sorğu və ekspertlərin apardığı başqa tədqiqatlar əsasında müəyyən edilir. Bu, dövlətləri korrupsiyanın yayılmasına görə sıraya düzməyə imkan verən ”tədqiqatın tədqiqatıdır”. Bu indeksə əsasən Litva 5 baldan yuxarı toplamış təmiz dövlətlər sırasına düşmür. 2003-cü ildə Litvada KQİ 4.7 bala bərabər idi, 133 ölkə arasında o, 41-ci yer tuturdu. 2004-cü ildə isə Litva 4.6 balla 146 ölkə arasında 46-cı yer tuturdu.

### Rüşvətxorluq indeksi

“Transparency İnternational” tərəfindən aparılan başqa tədqiqat – 1999-cu ildən aparılan *Rüşvətxorluq İndeksi* sorğusudur (Rİ). Rİ

- çoxmillətli korporasiyaların rüşvətxorluğa meyli haqqında;
- rüşvətxorluğa meylli biznes sektorları haqqında;
- xaricdəki ən iri korporasiyaların vəzifəli şəxslərinin OECD Rüşvətxorluğa Qarşı Konvensiyası haqqında məlumatları olması haqqında;
- ən iri korporasiyaların OECD Rüşvətxorluğa Qarşı Konvensiyasını necə həyata keçirmələri haqqında məlumatları olması haqqında;
- sifarişlər almaq niyyəti ilə firmaların əl atdığı digər ehtimal olunan natəmiz iş təcrübəsi haqqında

məlumat təqdim edir.

Göstərilən indeks biznes liderlərinin rəyini əks etdirir. 2002-ci ildə Rİ 15 ölkədə: Argentina, Braziliya, Filippin, Hindistan, İndoneziya, Kolumbiya, Polşa, Mərakeş, Meksika, Nigeriya, Cənubi Afrika, Cənubi Koreya, Rusiya, Tailand və Macarıstanda aparılmışdı. Adları çəkilən ölkələr çoxmillətli firmalarla ticarət və sərmayə layihələrində iştirak edir. Litva Rİ sorğusuna daxil edilməmişdi.

### Avropa və Orta Asiyada dövlətlə iş adamlarının münasibətlərində korrupsiya

Korrupsiyanın diaqnostikası üçün başqa geniş məlum olan metodikanı Dünya Bankı 2000-ci ildə çıxmış “Keçid dövrü ölkələrində korrupsiya ilə mübarizə: siyasi debatlara töhfə” hesabatında təqdim etmişdir. Burada korrupsiya təhlilini aparmaq üçün üsullar göstərilir və keçid dövrü yaşayan ölkələrdə korrupsiya haqqında məlumat təqdim edilir. “Keçid dövrü ölkələrində korrupsiya ilə mübarizə: 1999-2002-ci illərdə Avropa və Orta Asiyada dövlətlə iş adamlarının münasibətlərində korrupsiya” adlı ikinci hesabat 2004-cü ildə təqdim edilmişdi. Burada korrupsiya meylləri təsvir edilir

və baş verən dəyişiklikləri izah etmək cəhdi edilir.

Birinci hesabatın hazırlanması üçün 1999-cu ildə sahibkarlar və müəssisələrin fəaliyyəti haqqında araşdırmalarının nəticələri əsasında toplanmış korrupsiya haqqında məlumatdan, habelə keçid dövrü yaşayan 24 (Türkiyə daxil olmaqla) ölkədən 4000-dən artıq müəssisənin sahibləri və rəhbərləri arasında aparılmış sorğunun nəticələrindən istifadə edilib. Bu araşdırmanın ikinci hissəsi 2002-ci ildə aparılıb: keçid dövrü yaşayan 26 (Türkiyə daxil olmaqla) ölkədən 6500 müəssisənin sahibləri və rəhbərləri sorğuya cəlb edilib.

Adı çəkilən tədqiqatda ölkələr rüşvətxorluğun təkrarlanma göstəricisi ilə ölçülən *inzibati korrupsiyanın* miqyasına görə, habelə *dövlətin korrupsiyaya tutulması* miqyasına görə qruplaşdırılır. Dövlətin "oyun qaydalarına" təsir göstərən korrupsiyanın bu növü onun müəssisələrə vurduğu ziyanla ölçülür.

Şərqi və Mərkəzi Avropa ölkələri ilə Ermənistanda yuxarıda göstərilən korrupsiya növlərinin səviyyəsi xeyli aşağıdır. Litvada, təqribən Çexiya və Estoniyadakı kimi, inzibati korrupsiya indeksi 2,2, dövlətin korrupsiyaya tutulması indeksi isə 0,32 səviyyəsində qeydə alınıb (Anticorruption in Transition 2, 2004).

### Başqa araşdırmalar

Yuxarıda göstərilən tədqiqatlardan başqa Transparency İnternational tərəfindən 47 ölkədə aparılmış "Qlobal korrupsiya barometri 2003" araşdırmasını, habelə həmin ilin sonunda Dünya İqtisadi Forumu tərəfindən təqdim edilmiş və 102 ölkədən sahibkarların sorğuya cəlb edildiyi tədqiqatı qeyd etməyə dəyər. 2004-cü il dekabrın 9-da Transparency İnternational və Gallup İnternational təşkilatlarının birlikdə apardıqları yeni "Qlobal korrupsiya barometri" araşdırması nəşr olundu.

Bu və digər araşdırmaların hamısı beynəlxalq, regional və milli səviyyələrdə korrupsiyanın yayılmasında ümumi problemlərin müəyyən edilməsi üçün çox vacibdir. Bu, həmin araşdırmaların müsbət cəhətidir. Bununla belə, təəssüf ki, konkret ölkənin problemləri burada adətən öz əksini tapmır. Buna görə biz indi Litvada aparılmış korrupsiya diaqnostik araşdırmalarına diqqət yetirəcək və bunların nəticələrinin qısa xülasəsini verəcəyik.

## Milli səviyyə

### "Litvanın korrupsiya xəritəsi"

2001-2002-ci illərdə Transparency İnternational qeyri-hökumət təşkilatının Litva bölməsinin təşəbbüsü ilə "Litvanın korrupsiya xəritəsi" adlı ilk korrupsiya diaqnostik araşdırması aparıldı. Sosioloji monitorinqə iki qrup daxil edilmişdi: Litva əhalisi və iş adamları. Məqsəd – milli sosioloji sorğular əsasında korrupsiyanın yayılmasının institusional və coğrafi monitorinqini keçirmək, korrupsiyaya ən həssas sahələri müəyyən etmək, korrupsiya baxımından "qaynar nöqtə" olan Litva təşkilatlarını üzə çıxarmaq idi. "Litvanın korrupsiya xəritəsi"nin son nüsxəsi 2004-cü ilin noyabr ayında təqdim olunmuşdu.

Araşdırma gedişində:

- respondentlərin korrupsiyaya münasibəti, onun səviyyəsi və cəmiyyətdə rolu;
- korrupsiya (rüşvətxorluq) halları ilə rastlaşmada şəxsi təcrübə;

- korrupsiya haqqında məlumatın mənbəyi;
- korrupsiyaya qarşı yönəlmiş tədbirlərə münasibət

qiymətləndirilirdi.

Məlum oldu ki, Litvada korrupsiyanın (və ilk növbədə onun əsas forması olan rüşvətxorluğun) yayılma xüsusiyyətlərini müəyyən etmək üçün institusional monitorinqin aparılması yetərli deyil. “Həm Litva əhalisi, həm də iş adamları təkcə konkret orqanların nümayəndələrinə deyil, konkret xidmətlərə görə də qeyri-rəsmi qaydada pul verirlər. Belə xidmətləri bir neçə orqanın nümayəndələri göstərə bilər, buna görə respondentlər kimə pul vermələrini heç də həmişə dəqiq bilmirlər (Korupcijos apraiskos 2004, səh. 6).

**Korrupsiyanın daha ətraflı tədqiqatları**

2002-ci ildə sosial həyat və biznesin mühüm funksiyalarının yerinə yetirilməsi zamanı işə salınan rüşvətxorluq mexanizmlərini müəyyən etmək məqsədilə “Korrupsiyanın dərin tədqiqatı” keçirilmişdi. Nəticələr araşdırmanın əhəmiyyətini göstərərək “Litvanın korrupsiya xəritəsi”nə töhfə verdi. 2004-cü ildə Transparency İnternational Litva bölməsinin və Litva Respublikası Xüsusi Təhqiqatlar Xidmətinin təşəbbüsü ilə keçirilmiş “Seçmə əyalətlər və onların yerli özünüidarə qurumlarında ölkə miqyaslı korrupsiya halları” tədqiqatının məqsədi vacib sosial xidmətlərə görə qeyri-rəsmi mükafatlandırılmanın səviyyəsi və yayılma üsullarını müəyyən etmək idi.

## Yerli özünüidarə səviyyəsi

Əhalinin korrupsiyaya münasibətini, onun cəmiyyətdə səviyyəsi və rolunu, habelə korrupsiya (rüşvətxorluq) halları ilə rastlaşmada insanların şəxsi təcrübəsini öyrənmək üçün Transparency İnternational Litva bölməsi korrupsiyanın yayılması və korrupsiya halları ilə yerli özünüidarə orqanları tərəfindən tətbiq edilən korrupsiyaya qarşı tədbirlərin səmərəliliyini qiymətləndirməyə imkan verən metodikanın hazırlanması ilə məşğuldur. Bu iş 2005-ci ilin ortalarında təqdim edilməlidir.

## Tədqiqatların nəticələri

Litvada korrupsiya haqqında son araşdırmaların nəticələrinin qısa xülasəsini verək.

## “2004-cü il Litvanın korrupsiya xəritəsi”nin tədqiqatı

Tədqiqat (Litva əhalisinin və iş adamlarının sosioloji sorğuları) 2004-cü ilin mart ayında aparılıb. Tədqiqata 1015 sakin və 1047 müəssisə rəhbəri cəlb olunub. Fərdi anonim sorğular keçirilib. Litva əhalisi və müəssisə rəhbərlərinin reprezentativ sorğuları “Baltijos tyrimai” ictimai rəy və bazarın araşdırılması üzrə Britaniya-Litva şirkəti tərəfindən aparılıb. Araşdırmanın nəticələri 2001 və 2002-ci illərdə aparılmış analoji sorğuların (“Litvanın korrupsiya xəritəsi”. 2001; 2002) nəticələri ilə tutuşdurulub. Məlumatın təhlili və hesabat Transparency İnternational Litva bölməsinin eksperti A. Dobrının tərəfindən hazırlanıb. Araşdırma zamanı bir neçə əsas məqam müəyyən edilib.

**Korrupsiyanın miqyası haqqında rəy**

- 2001 və 2002-ci il araşdırmalarının nəticələri ilə müqayisədə korrupsiyanın

biznes üçün böyük maneə olmadığını və son beş il ərzində onun Litvada miqyasının dəyişmədiyini, bəlkə də azaldığını qeyd edən müəssisə rəhbərlərinin sayı artıb.

• Hökumət, Seym, məhkəmələr, habelə qeyri-hökumət təşkilatlarının "çox korrupsion" olmalarını düşünənlərin sayı 2004-cü ildə azalıb. Müvafiq qaydada Prezident sarayı və kütləvi informasiya vasitələrinin "çox korrupsion" olmalarını düşünənlərin sayı artıb.

• Litva əhalisi və iş adamları hələ də iddia edirlər ki, rüşvət problemlərin həll edilməsinə kömək edir, sorğuya cəlb olunanların üçdə ikisi isə onu verməyə hazırdır. Lakin 2002-ci illə müqayisədə 2004-cü ildə rüşvətin problemlərin həll edilməsinə kömək etmədiyini və onu verməyə razı olmadıqlarını deyən müəssisə rəhbərlərinin sayı xeyli artıb.

• 2004-cü ildə cəmiyyətə korrupsiya haqqında məlumat verən mənbə kimi televiziyanın rolu daha da artıb.

**Təcrübə**

• Biznes müəssisələrinin nümayəndələri rüşvəti ən çox aşağıdakı təşkilatlarda verirlər:
- yol polisi;
- gömrük;
- dövlət vergi müfəttişliyi;
- şəhər və rayon özünüidarə orqanları;
- avtomobillərə texniki baxış mərkəzləri (müəssisə rəhbərlərinin təcrübəsi).

• Əhali ən çox rüşvət verir:
- poliklinikalarda;
- yerli və respublika xəstəxanalarında;
- yol polisində;
- avtomobillərə texniki baxış mərkəzlərində.

2002-ci illə müqayisədə *2004-cü ildə yuxarıdakı təşkilatlarda rüşvətxorluq halları haqqında respondent məlumatlarının sayı xeyli azalıb.*

• Rüşvət tələb etmə, rüşvət verməyə təşəbbüs və səmərə

Müəssisə rəhbərlərindən ən çox rüşvət tələb edilən və onların özləri ən çox rüşvət verdikləri yer yol polisi olub. Rüşvətin ən çox "səmərə" verdiyi yer gömrük olub. Litva əhalisindən ən çox rüşvət tələb edilən və onun özü ən çox rüşvət verdiyi yer respublika xəstəxanaları olub. Onların rüşvəti ən çox "səmərə" verdiyi yer avtomobillərə texniki baxış mərkəzləri olub.

## Korrupsiya əleyhinə potensial

• Həm əhali, həm də iş adamları düşünürlər ki, *ən böyük məsuliyyət rüşvət alanın üzərinə düşür*;

• Müəssisə rəhbərlərinin və əhalinin böyük əksəriyyəti son beş il ərzində rüşvət verməyiblər, ona görə ki:

- problemləri onsuz da həll etmək mümkün olub;
- onu istəməyiblər.

Müəssisə rəhbərlərinin yalnız 9 faizi və əhalinin 3 faizi rüşvətin verilməsi qanunsuz olduğuna görə, müəssisə rəhbərlərinin 18 faizi və əhalinin 12 faizi isə bunun əqidələrinə zidd olduğuna görə rüşvət verməyiblər.

• Həm müəssisə rəhbərləri, həm də əhali korrupsiya əleyhinə preventiv tədbirləri cəza tədbirlərindən üstün sayırlar.

"Seçmə əyalətlər və onların yerli özünüidarə qurumlarında ölkə miqyaslı korrupsiya halları" tədqiqatı

Tədqiqat (Litva əhalisinin sosioloji sorğuları) 2004-cü ilin mart ayında aparılıb. Tədqiqata 18 yaşdan yuxarı 18 şəhər və 56 kənddən 3026 Litva sakini cəlb olunub. Sorğular respondentlərin evində müsahibə şəklində aparılıb. Nəticələrin 95 faizlik etibarlılığı ilə statistik xətası 1,8 faizdən yuxarı deyil. Tədqiqat "Vilmorus" ictimai rəy və bazarın araşdırılması üzrə mərkəzi tərəfindən aparılıb. Məlumatın təhlili və hesabat Transparency İnternational Litva bölməsinin eksperti A. Dobrının tərəfindən hazırlanıb. Araşdırma zamanı bir neçə əsas məqam müəyyən edilib.

## Korrupsiyanın yayılması haqqında rəy

2002-ci il araşdırması ilə müqayisədə Litvada korrupsiyanın yayılması miqyasını qorxulu kimi qiymətləndirənlərin sayı azalıb, lakin sorğuya cəlb olunanların təqribən üçdə ikisi hələ də *korrupsiyanın miqyası haqqında pessimist fikirdədirlər*. Litva əhalisinin rəyinə görə korrupsiya dövlət idarəçiliyinin bütün sahələrində qol-budaq atıb dövlətimizə həm öz vətəndaşlarımız, həm də xaricilərin etimadını dağıdır.

## Korrupsiyanın səbəbləri

Litva əhalisinin fikrincə onu doğuran:

• vəzifəli şəxslərin və digər dövlət qulluqçularının məsuliyyət və hesabat verməli olduqlarını hiss etməməsi;

• vəzifəli şəxslərin və digər dövlət qulluqçularının əxlaqi məsuliyyətinin çatışmazlığı;

• hüquqi bazanın zəifliyidir.

## Xidmətlərə görə qeyri-rəsmi bəxşiş

Qeyri-rəsmi bəxşiş ən çox tibb müəssisələrində, yol polisində, habelə salamat qalmış daşınmaz əmlaka hüquqların bərpa edilməsi haqqında ərizələrə baxılma üzrə xidmət göstərən müəssisələrdə yayılıb.

İstifadə edilən "üsulların" xülasəsi göstərir ki, qeyri-rəsmi bəxşişi ən çox *orta təbəqə məmurlar* alır; qeyri-rəsmi bəxşişin ən yayılmış forması *puldur*; qeyri-rəsmi bəxşişin *təşəbbüskarları insanlar özü olur ki*, bunların da belə davranışı əksər hallarda ya öz, ya da başqalarının fikrinə əsaslanır.

Sorğunun nəticələri göstərir ki, bu cür problemləri həll etmək üçün *Litva əhalisi gələcəkdə də qeyri-rəsmi bəxşiş verməyə hazırdır.*

Göstərilən iki tədqiqatın nəticələrini ümumiləşdirərək qeyd etmək olar ki, kor-

rupsiya yaşamağa qabil olaraq qalır. Aydındır ki, əhalinin və iş adamlarının əksəriyyəti "lazım gəldikdə" rüşvət verməyə hazırdır.

Nəzəriyyəçilər deyirlər ki, korrupsiyanın yolverilməzliyinə inanan vətəndaşlar korrupsiya cinayətləri haqqında məlumat verməyə, istintaqın aparılmasına kömək etməyə daha çox meyllidirlər. Korrupsiyanı pisləyən seçicilər qeyrətli siyasətçilərə səs verib, fırıldaqları seçməməyə meyllidirlər. Nəticə etibarilə vətəndaşların öz davranışı da – rüşvətxorluqla məşğul olmaq, yoxsa qanuna uyğun hərəkət etmək – onların dəyərləri və korrupsiyaya münasibətləri ilə müəyyən edilir. Korrupsiyanın qarşısı alınması və onun üzərində nəzarətin ən vacib üsullarından biri kimi *ictimai rəyin möhkəmləndirilməsi* getdikcə daha çox qeyd edilir. Buna görə Litvanın korrupsiya əleyhinə potensialına bir daha nəzər salaq və əhalidə korrupsiyaya qarşı dözülməzliyin aşılanması üçün nə etmək lazım olduğu haqqında bir daha düşünək.

# Vətəndaş cəmiyyətinin cəlb edilməsi

Korrupsiya əleyhinə bugünkü potensial

## Korrupsiyaya münasibət

"Litvanın korrupsiya xəritəsi 2004" tədqiqatı gedişində Litva əhalisindən xahiş edilirdi ki, təqdim olunmuş korrupsiyaya qarşı münasibətlərdən öz mövqelərinə daha uyğun olanı seçsinlər. Məlum oldu ki, respondentlərin əksəriyyəti o fikirlə razıdır ki, korrupsiya cəmiyyətin həyatında çox böyük maneədir (bax: Şəkil 1).




**Şəkil 1.** Əhalinin korrupsiyaya münasibəti (2001-2004-cü illər, faizlə)

**İnformasiya mənbələri**

"Litvanın korrupsiya xəritəsi" insanların korrupsiyaya münasibətlərini, onunla əlaqədar mövqelərini, habelə şəxsi təcrübələrini, yəni korrupsiya ilə rastlaşdıqları halları açıqlamağa imkan verir. Adətən insanlar bu və ya digər hadisə haqqında bu barədə kütləvi informasiya vasitələrində oxuduqları, eşitdikləri və ya gördükləri əsasında mühakimə yeridirlər. Lakin KİV korrupsiya daxil olmaqla əksər sosial problemləri çox vaxt ya lazımi qədər qiymətləndirmir, ya da həddindən artıq şişirdir. Litva əhalisinin əsas informasiya mənbələri Şəkil 2-də göstərilir. Televiziya burada sözsüz liderdir, respublika mətbuatı isə əhalinin etimadını itirib. Bundan başqa, korrupsiya vəziyyətinin müəyyən edilməsində dost-tanışın rolu artıb.




**Şəkil 2.** Korrupsiya haqqında məlumat mənbələri (2001-2004-cü illər, faizlə)

**Rüşvətxorluq təcrübəsi**

Artıq qeyd edildiyi kimi, KİV əksər sosial problemləri çox vaxt ya lazımi qədər qiymətləndirmir, ya da həddindən artıq şişirdir. Buna görə televiziya vasitəsilə əhalidə korrupsiyaya yaranmış münasibət heç də əsl vəziyyəti əks etdirmir. Deməli, vətəndaşların *korrupsiya təcrübəsi* daha tutarlı dəlildir. Litva sakinlərindən son beş il ərzində rüşvət vermələri haqqında suala cavab vermək xahiş olunmuşdu (bax: Şəkil 3)

Son beş il ərzində rüşvət vermələri olmuşsunuzmu?




**Şəkil 3**. Litva sakinlərinin son beş il ərzində rüşvət vermələri haqqında suala verdikləri cavaba görə paylanması (2001-2004-cü illər, faizlə)

Araşdırmanın nəticələri göstərdiyi kimi, Litva sakinlərinin 36 faizi son beş il ər-

zində rüşvət verib. Aydın məsələdir ki, bəzi hallarda onlar rüşvətxorluğun qurbanı olub, yəni rüşvəti onlardan tələb ediblər, bəzi hallarda isə onlar yollarından maneələrin tezliklə (qeyri-qanuni) götürülməsində maraqlı olub rüşvəti öz təşəbbüsləri ilə veriblər. Heç bir dəfə də rüşvət verməyən adamların sayı bir az artıb, suala cavab verməyənlərin sayı isə bir qədər aşağı düşüb.

Daha sonra Litva sakinlərindən soruşulurdu ki, nə üçün rüşvət verməyiblər (bax: Şəkil 4).

Siz nə üçün rüşvət verməmişsiniz?




**Şəkil 4.** Litva sakinlərinin nə üçün rüşvət vermədikləri haqqında suala verdikləri cavaba görə paylanması (2004-cü il, faizlə)

İnsanların əksəriyyəti iddia edirdilər ki, elə vəziyyətə düşməyiblər ki, onlardan rüşvət istəsinlər. Litva əhalisinin üçdə biri sadəcə olaraq bütün məsələləri rüşvətsiz həll edə bilib. Lakin əxlaqi mövqelərinə görə rüşvət verməyənlərin sayı Litva əhalisinin yalnız təqribən 12 faizinə bərabərdir. Başqa bir rəqəm bundan da qorxuncdur: *qanuna əhalinin yalnız təqribən 3 faizi hörmət edir.*

Bildiyimiz kimi, qanunvericiliyə əsasən rüşvət verən də, rüşvət alan da məsuliyyət daşıyır. Sorğuya cəlb olunanların yalnız dörddə biri hər iki tərəfin eyni məsuliyyət daşıdığını bildirir. Respondentlərin yarısı şübhə eləmir ki, rüşvət alanın məsuliyyəti, qeyd-şərtsiz, çoxdur (bax: Şəkil 5). Bəlkə buna görədir ki, artıq neçənci ildir ki, rüşvət vermək niyyətində olanların sayı azalmır (bax: Şəkil 6).

Rüşvətvermə halında əsas məsuliyyət kimin üzərinə düşür?




Şəkil 5. Rüşvətvermə halında əsas məsuliyyət kimin üzərinə düşür sualına əhalinin verdiyi cavaba görə paylanması (2004-cü il, faizlə)

Əhalinin rüşvət verməyə münasibəti




Şəkil 6. Rüşvət verməyə münasibəti haqqında sualına əhalinin verdiyi cavaba görə paylanması (2004-cü il, faizlə)

Məlum oldu ki, *Litva əhalisinin altıda biri "lazım gələrsə" rüşvət verməyə hazırdır*. Hələ də hesab olunur ki, rüşvət problemlərin həll edilməsinə kömək edir. *Korrupsiya əleyhinə əsl potensial,* yəni hüquqa və əxlaqa hörmət etdiklərinə görə rüşvət vermək niyyətində olmayan insanların sayı yalnız *təqribən 15 faizə* bərabərdir. Bu, narahat insanların gözü ilə görünən həqiqətdir. Burada hansı nəticələrə gəlmək olar? Bunlardan biri ictimaiyyət arasında aparılmış sorğunun nəticələrindən aydın olur. Litva sakinləri hakim qanunvericiliyə, siyasi partiyalara etibar eləmir, hüquqmühafizə və başqa orqanlara da o qədər də inanmır – yəni dövlətin o dayaqlarına ki, ictimai mənafelərə xidmət etməli, cəmiyyətin təhlükəsizliyi və rifahını təmin etməlidir. Təbii ki, sual meydana gəlir – nə etməli?

## İctimai təşkilatların rolu

Korrupsiyanın qarşısı alınması və nəzarət altında saxlanmasına yönəlmiş iş prosesinə getdikcə daha çox insan qoşulur. Nümunələrdən biri – 1993-cü ildə Berlində təsis olunmuş “Transparency İnternational” ictimai təşkilatıdır. “Transparency İnternational” təşkilatı Beynəlxalq Ticarət Palatası və Birləşmiş Millətlər Təşkilatının fəaliyyəti əsasında asan davranış kodeksi hazırlayıb. Ekvador hökuməti və “Transparency İnternational” həmin kodeksi dövlət müqavilələrində iştirak edən vəzifəli şəxslərə və özəl şirkətlərə qarşı tətbiq etmişlər (Klitgaard, 2000, səh. 13). Müəssisələr rüşvət verməyəcəklərinə, dövlət rəsmiləri isə - rüşvət tələb etməyəcək və almayacaqlarına söz vermişlər. Müəssisələr maraqlıdır ki, bu qaydalar başqalarına da şamil edilsin. Etika kodeksini imzalayan şirkətlər birləşərək, başqa müəssisələrin fəaliyyətini də tənzimləyə və lazım gəldikdə onlara qarşı cərimələr və ya başqa istintaq üsullarının tətbiq edilməsini təmin edə bilərdi.

Beləliklə, “Transparency İnternational” kimi, işləri birbaşa korrupsiyaya dözülməzliyin dəstəklənməsi və korrupsiya əleyhinə fəaliyyətlə bağlı ictimai təşkilatlar, habelə Dünya Bankı, Avropa Əməkdaşlıq və İnkişaf Təşkilatı, Birləşmiş Millətlər Təşkilatı korrupsiyanın qarşısını almaq üçün müxtəlif üsullar təklif edirlər. Bu gün onlardan ən dəyərlisi – *ictimai rəyin möhkəmləndirilməsidir.*

Korrupsiya tədqiqi ilə məşğul olanlar deyir ki, müxtəlif islahatların müvəffəqiyyəti və korrupsiya əleyhinə proqramların səmərəliliyi güclü, dəyişikliklərdən qorxmayan, yetkin vətəndaş cəmiyyətinin mövcudluğundan asılıdır. Vətəndaşlar korrupsiyaya görə bütün məsuliyyəti yalnız dövlət və digər məsul qurumların üzərinə qoyub özləri korrupsiya qarşısının alınması prosesinə fəal qoşulmasalar, bu sosial xəstəliyin üzərində nəzarət kəsərli olmayacaq.

“Transparency İnternational” təşkilatının ilk ideoloqlarından biri J. Pope hesab edir ki, vətəndaş cəmiyyəti korrupsiya daxil olmaqla ictimai problemlərə diqqət yetirməyə qabil və qadirdir. Buna görə vətəndaş cəmiyyətinin başlıca rolu öz əsas dəyərlərini tələb və müdafiə etmək və bu mühüm funksiyanı iqtidarda olanların ixtiyarına buraxmamaqdan ibarətdir (Pope, 2000, səh. 133-135).

Sıravi vətəndaşların gözü ilə baxsaq görərik ki, korrupsiya narahatlıq doğurur, təhlükə hissini artırır və cəmiyyət dəyərlərini gözdən salır. Buna görə laqeyd olmayan vətəndaşları birləşdirmək olduqca vacibdir ki, korrupsiyaya qarşı öz dözülməzliyini açıq və aydın ifadə edə bilsinlər . Onlar hansı konkret tədbirlər görə bilərlər? Aşağıda Honkonqda görülən korrupsiyaya qarşı preventiv tədbirlərin nümunələri təqdim edilir:

1. Müstəqil *Narahat Vətəndaşlar Komissiyası* yaratmaq ki, öz fikirləri, narahatçılıqları və təkliflərini ifadə edə bilsinlər.
2. Korrupsiya üzərində nəzarətə hörmətli və cəmiyyətdə tanınmış şəxsləri cəlb etmək, onlarda maraq yaratmaq və fəal olmağa həvəsləndirmək, onları korrupsiyaya qarşı məsələlər üzrə məsləhətçi və ya müstəqil hakim təyin etmək.

Başqa mühüm vəzifələr:

- vətəndaşlıq borcunu yerinə yetirərək korrupsiya halları haqqında *məlumat verənlərin* cəmiyyət üçün əhəmiyyəti və xeyrini vurğulamaq;

- vətəndaşlıq dəyəri kimi transparentliyi (şəffaflığı) təbliğ etmək.

İctimai dəyərlərin və cəmiyyət sayıqlığının (yəni biganə olmayan insanların şüurluluğunun) korrupsiyanın qarşısı alınması sisteminin özülünü təşkil etməsi J. Pope tərəfindən təqdim edilmiş milli inteqrasiya sistemi konsepsiyasından görünür.

## Korrupsiyanın qarşısının alınmasına sistemli baxış

"Transparency İnternational" təşkilatının yaradıcılarından biri J. Pope milli inteqrasiya sistemi konsepsiyasının təqdimatı zamanı korrupsiya fenomeninə bütöv bir baxış təqdim etmişdir. Onun konsepsiyası cəza tədbirləri deyil, korrupsiyanın qarşısının alınmasına yönəlib. Milli inteqrasiya sistemini təsvir edərək, müəllif onun on bir elementini müəyyən edir (Pope, 2000, səh. 35) (bax: Şəkil 7) qanunvericilik hakimiyyəti, icra hakimiyyəti, hüquqmühafizə və məhkəmə orqanları, dövlət nəzarəti, ombudsman, insan hüquqları mühafizəsi orqanları (cəmiyyət keşikçiləri), dövlət və özünüidarə orqanları qulluqçuları, kütləvi informasiya vasitələri, vətəndaş cəmiyyəti, özəl sektor və beynəlxalq təşkilatlar.




**Şəkil 7.** Milli İnteqrasiya Sistemi

Gördüyümüz kimi, yunan məbədinə bənzəyən bu tikilinin damında "Qanunun aliliyi", "Davamlı inkişaf" və "Həyatın keyfiyyəti"ni təsvir edən üç dairə var. Məbədin özülünü ictimai dəyərlər, cəmiyyətin sayıqlığı və şüurluluğu təşkil edir. Cəmiyyət sayıq, ictimai dəyərlər isə möhkəmdirsə, məbədin sütunları sarsılmaz olacaq. Yox, əgər cəmiyyət fəaliyyətsizdirsə, yaxud onun dəyərlərində çatışmazlıq varsa, onda özül zəif, sütunlar isə boş və faydasız olacaq. J. Pope qeyd edir ki, bu tikilinin bütün sütunları bir-biri ilə bağlı olsa da, onların möhkəmliyi fərqlənə bilər. Sütunlardan biri zəifləmiş olsa, qalan sütunlardan biri və ya bir neçəsinin üzərinə düşən yük artır. Bir neçə sütun birdən zəifləsə, yerdə qalanlar onların üzərinə düşən yükə tab gətirməyəcək və "qanunun aliliyi", "davamlı inkişaf" və "həyatın keyfiyyəti" dairələri diyirlənib yerə düşəcək, bütün məbəd isə darmadağın olacaq (bax: Şəkil 8).




**Şəkil 8.** Milli İnteqrasiya Sisteminin dağılması

Nəzərdə saxlamaq lazımdır ki, təsvir olunmuş sütunlar müxtəlif cəmiyyətlərdə müxtəlif olur: bəziləri daha möhkəm, bəziləri isə daha zəif. Lakin həmişə müvazinət var. Məsələn, Sinqapurda natamam mətbuat azadlığı əlçəkməz və fəal korrupsiya əleyhinə agentliklərlə tarazlaşdırılır (Pope, 2000, səh. 36).

J. Pope qeyd edir ki, milli inteqrasiya sistemi təkcə institusional sütunlardan deyil, həm də əsas qayda və üsullardan ibarətdir. Bu qayda və üsullar müxtəlif institutları möhkəmlədən vasitələr kompleksidir. Belə qayda və üsulların çatışmazlığı göstəricilərin açıq zəifliyinə dəlalət edir. Bunlar yalnız bir "sütuna" şamil edilmir: məsələn, dövlət nəzarəti cəmiyyət qarşısında hesabat verir, kütləvi informasiya vasitələri məlumat təqdim edir, qanunvericilik hakimiyyəti seçkilərin düzgün aparılmasını təmin edir, ombudsman ərizələr və rəylərlə məşğul olur, korrupsiya əleyhinə və digər agentliklər - mühafizə orqanları – qanunların yerinə yetirilməsinə nəzarət edir və s.

J. Pope deyir ki, məhz institusional "sütunlar" və qaydalar, habelə bu qaydaların yerinə yetirilməsi üsulları milli inteqrasiya sistemini təşkil edir. Göstərilən sistemli yanaşma korrupsiyanın diaqnostikası və ləğv edilməsi üçün yeni imkanlar açır. Milli inteqrasiya konsepsiyası ayrı-ayrı institutlara (məsələn, hüquqmühafizə və məhkəmə) və bunların tətbiq etdiyi ölçülərə (məsələn, cinayət cəza tədbirləri) baxmaqdansa müstəqil proqramlar yaratmaq və müstəqil islahatlar həyata keçirmək lazımdır. J. Pope aşağıdakılara fikir verməyə çağırır:

- qarşılıqlı əlaqələr;
- qarşılıqlı asılılıq;
- müştərək səmərə.

## Nəticə

Nəticədə bir daha qeyd etmək vacibdir ki, son vaxtlar korrupsiya üzərində nəzarət və onun qarşısı alınması üsullarından aşağıdakı iki üsul korrupsiya tədqiqatçılarının və praktiklərin diqqət mərkəzindədir:

- korrupsiyanın diaqnostikası;
- vətəndaş cəmiyyəti ümdə dəyərlərinin bildirməsi və müdafiəsi vasitəsilə onun möhkəmləndirilməsi.

Korrupsiyanın nəzarət altında saxlanması və qarşısı alınmasına sistemli yanaşmanın vacibliyi qeyd edilir ki, bunun fərqli cəhətləri tətbiq olunan ölçülərin müştərək səmərəsi, qarşılıqlı asılılıq və qarşılıqlı əlaqələrdir. Korrupsiya fenomeni təkcə hüquq və cinayət məhkəməsi obyekti kimi deyil, həm də daha geniş siyasi, sosial, iqtisadi və mədəni kontekstdə təhlil və izah edilir. Qeyd etmək vacibdir ki,

- korrupsiyanın bir çox tərifi mövcuddur;
- korrupsiyanın tərifi verilərkən onun müxtəlif aspektləri: dövlət xidməti, ictimai mənafe, tələbat, mübadilə və s. müəyyən edilir;
- korrupsiyanın hüquqi baxımdan tərifi ilə onun cəmiyyətdə nə cür anlanmasında olan fərq çətinliyə səbəb olur; bundan başqa, müxtəlif ölkələrdə hüquq bazası fərqli olur və s.
- korrupsiyanın nəzəri təhlilində mikro və makrosəviyyəli imkanlar mövcuddur ki, bunlar korrupsiyanın müxtəlif növlərini tədqiq etməyə və müqayisəli təhlilini (sistemli baxış) aparmağa, habelə səlahiyyətlərin həvalə edilməsi (təmsil edilənlə təmsil edənin münasibətləri) nəticələrini izah etməyə və s. imkan verir.

Müzakirə edilmiş nəzəri və empirik məsələlər korrupsiyanın çoxüzlü bir fenomen kimi yeni aspektlərini açıqlayır, gələcəkdə məkan və zaman baxımından, habelə daim dəyişən və getdikcə daha mürəkkəb formalar alması baxımından korrupsiyanın yeni nəzəri və empirik araşdırmalarının aparılmasına sövq edir.

**NATALİYA RUMYANTSEVA**

# ALİ TƏHSİL SİSTEMİNDƏ KORRUPSİYANİN TAKSONOMİYASİ

## Giriş

Müxtəlif iqtisadi tədqiqatlardan göründüyü kimi, təhsil iqtisadiyyatın inkişafına müsbət və güclü təsir göstərir (məsələn, Agiomirgianakis, Asteriou, Monastiriotis, 2002) Təhsil cəmiyyətə təkcə iqtisadi deyil, həm də qeyri-maddi xeyir gətirə bilər, məsələn, sosial həmrəylik (məsələn, Heyneman, 2000). Bu belədir, amma hər yerdə olduğu kimi, burada da istisnalar mövcuddur. Təhsil sistemi iqtisadiyyatın inkişafına mənfi təsir də göstərə bilər, habelə, onun təşkilat strukturu köhnəlibsə, tədris proqramları tələblərə cavab vermirsə, professor-müəllim heyətinin hazırlığı zəifdirsə, yaxud onların arasında korrupsiya yayılıbsa, sosial həmrəyliyi də zəiflədə bilər. Ali təhsil sistemində korrupsiya yayılıbsa, bu, cəmiyyətə ziyan vurmaqla yanaşı, bu sahədə islahatların aparılmasına və ya onun başqa yolla təkmilləşdirilməsinə mane olur. Korrupsiya niyyətləri dəyişdirir, tədris prosesinin nəticələrini saxtalaşdırır, ictimai ehtiyatları israf edir və bir çox başqa mənfi nəticələrə gətirir.

## Ali təhsil sahəsində korrupsiya – bu nədir?

Korrupsiyanın ənənəvi tərifi – korrupsiyanı ənənəvi bir hal hesab etmək olarsa – belə səslənir: "maddi faydalanma məqsədilə səlahiyyətlərdən sui istifadə" (Heyneman, 2002, səh. 3). Bu tərif müxtəlif nəşrlərdə rəsmi şəkildə ifadə edilməklə bərabər həqiqətən də sadə insanların korrupsiyanı nə cür anlamalarını əks etdirir. Məhz sadə insanlar korrupsiyanın nə olduğu barədə hamıdan yaxşı bilirlər, çünki onlar, xüsusilə də inkişaf edən ölkələrdə yaşayanlar, bu sosial halla hər gün demək olar ki, həyatın bütün sahələrində rastlaşırlar. Sözün geniş mənasında korrupsiyanı "tutduğu vəzifədən xidmətlə bağlı olmayan fəaliyyət üçün istifadə" (Tanaka, 2001, səh. 158) kimi başa düşmək olar. Bununla belə, Tanaka (2001) qeyd etdiyi kimi, korrupsiyanın universal tərifi yoxdur, buna görə nəzərə almaq lazımdır ki, müxtəlif ölkələrdə müxtəlif hallar korrupsiya hesab edilə bilər və korrupsiya ilə mübarizədə anlaşılmazlıq yarada bilən düzgün ifadə edilməmiş fikirlərdən ehtiyat etmək lazımdır. Məsələn, iqtisadi cəhətdən daha az inkişaf etmiş ölkələrdən söhbət gedəndə korrupsiyanın sadə tərifi xeyli mürəkkəbləşə bilər. Burada belə bir tərif yarayardı: "maliyyələşdirmə olan yerdə korrupsiya da var", yaxud, bundan da sərt müddəa: "maliyyələşdirmə olmayan yerdə də korrupsiya var". Həmişə olmasa da, adətən qanunvericilik və qaydalar korrupsiyanı qadağan edir, bununla belə biz korrupsiya hesab etdiyimiz halların böyük hissəsi qanunun son həddində yerləşir bəzən də bu həddi aşır.

Ümumiyyətlə təhsil və ilk növbədə ali təhsil mühüm ictimai dəyər olduğundan korrupsiyanın ikinci cəhətini qeyd etmək lazımdır ki, bu cəhət bilavasitə maddi faydalanma ilə bağlı deyil. Beləliklə, Heyneman (2002) təhsil sahəsində korrupsiya üçün bu cür tərif təklif edir: "şəxsi, habelə maddi faydalanma məqsədilə səlahiyyətlərdən sui istifadə" (səh. 3). Bundan başqa, korrupsiya anlamına onun başqa elementini daxil et-

mək lazımdır – professional davranış normalarına uyğun olmama. Bu o hallara aiddir ki, müəllim tələbələrə öz şəxsi dəyərlərini zorla qəbul etdirməyə çalışır, çoxaltdığı materiallara görə tələbələri pul ödəməyə məcbur edir və s. (Heyneman, 2002, səh. 3).

Bir zaman korrupsiyanın "yağ yoxsa puçluq" hesab edilməli olması barədə maraqlı diskussiya gedirdi. Gray və Kaufman (1998) belə bir fərziyyə irəli sürmüşlər ki, bu fenomenə qısamüddətli perspektivdən baxanda elə gəlir ki, korrupsiya bürokratik prosesi sürətləndirə bilər və buna görə sistem üçün "yağ" rolunu oynayır, lakin uzunmüddətli perspektivdən korrupsiya "puçluq" kimi təsir edir, ona görə ki, əməliyyatların aparılmasına lüzumsuz xərclər artır, iqtisadi nəticələr isə sistemin səmərəsizliyini əks etdirməyə başlayır. Lakin ali təhsil sistemində korrupsiyanı heç qısamüddətli perspektivdən də "yağ" hesab edilə bilməz, çünki bu sistemin əsas məqsədi hər hansı hərəkətin və ya əməliyyatın sürətləndirilməsi deyil, cəmiyyət üçün etibarlı və öz sahəsində yüksək hazırlıqlı mütəxəssislərin hazırlanmasını təmin etməkdir.

## Təhsil sistemində harada korrupsiya ilə üzləşmək olar

Korrupsiya ilə mübarizə üçün işlək üsullar tapmaq üçün ilk növbədə onun harada meydana gələ bilməsini ehtimal etmək lazımdır. Tanaka qeyd edir ki, təhsildə belə sahələr təhsil müəssisələrin müdiriyyəti, tədarük və müəllim korrupsiyası ola bilər.

## Təhsil müəssisələrinin müdiriyyətində korrupsiya

Təhsil müəssisələrinin müdiriyyətində korrupsiyanı kiminsə işdə irəli getmək niyyəti olanda, buraxılış və qəbul imtahanları zamanı, işə yeni müəllim və professorların qəbul edilməsi, habelə mövcud avadanlığın mübadiləsi zamanı güman etmək olar.

### Qəbul

Əksər ölkələrdə korrupsiyanın tələbə qəbulu prosesinə müdaxilə etməsi adi haldır. Universitetlərə tələbə seçimi və qəbulu prosesinin əhəmiyyəti olduqca yüksəkdir. Güman edilir ki, universitetlər ən bacarıqlı namizədləri seçəcək ki, bunlar təhsilə ayrılmış vəsaitdən mümkün qədər səmərəli istifadə edərək son nəticədə öz sahələrində bacarıqlı və məsuliyyətli mütəxəssis olsunlar. Qısamüddətli perspektivdən baxanda pozulmuş seçim qaydası rəhbər işçilərə maddi xeyir gətirir, bacarıqlı, amma imkansız tələbəyə ziyan vurur, uzunmüddətli perspektivdə isə şübhəsiz ki, cəmiyyətə ziyan vurur, ona görə ki, universitetlərə tələbə qəbul qaydaları korrupsion olanda, cəmiyyət ən layiqli gələcək liderləri və mütəxəssisləri seçə bilməyəcək. "Tələbə seçimi prosesi hər bir təhsil sisteminin dayağı və cəmiyyət həmrəyliyi təminatçısıdır. Bu proses dövlət nemətlərinin məğzidir. Sistem korrupsiondursa, yaxud əksəriyyət onu korrupsion hesab edirsə, onda təhsil sistemi cəhətlərindən çox az hissəsi müvəffəqiyyətlə həyata keçirilə bilər. Biz tələbə seçimi prosesində korrupsiyaya diqqət verməsək, ölkənin bütün başqa iqtisadi və sosial niyyətləri və məqsədlərini təhlükə altına qoyuruq" (Heyneman, 2002).

Tələbə qəbulu zamanı korrupsiya bütün dünyada geniş yayılıb. Keçid dövrü yaşayan dövlətlərdə iqtisadi vəziyyət pisləşəndə və universitet müəllimləri və professorla-

rının maaşları kəskin azalanda qəbul imtahanları zamanı korrupsiya adi hala çevrildi. Ali Təhsil Xronikasında (*The Chronicle of Higher Education*) deyilir ki, "Mərkəzi və Şərqi Avropadan Baltik dənizinə qədər, Qafqaz dağlarından Orta Asiyaya qədər uzanan dövlətlərdə Sovet İttifaqı dağılması nəticəsində müstəqilliklərini bərpa etdikləri on ildən artıq dövrdə hələ də geniş yayılmış hallardan korrupsiya yalnız biridir (The Chronicle of Higher Education, v. 48, is. 16). Gürcüstanın ali təhsil sisteminə nəzər salanda "elə gəlir ki, hər şey alınır, hər bir kəs satılır", tələbə qəbulu daxil olmaqla (The Chronicle of Higher Education, v. 48, is. 47). Məsələn, Ukraynada universitetə hər hansı rəsmi seçim prosedurundan keçmədən universitetə qəbul olmaq istəyənlər orta hesabla 3000 dollar ödəməlidir (The Chronicle of Higher Education, 1996, səh. A44), rüşvət verəsi valideynlərin orta əmək haqqı isə adətən ayda 50 dollardan artıq deyil (şəxsi təcrübə).

Bir milyarddan artıq əhalisi olan Hindistanda təhsilə olduqca az pul ayrılır, elmi dərəcələrə tələb isə çox böyükdür. Bu gün Hindistanda ali təhsil adi bir mal kimi alınıb-satılır. *Ali Təhsil Xronikasında* deyildiyi kimi, qəbul imtahanları zamanı balların saxtalaşdırılması ən az populyar olan təhsil istiqamətlərinə, məsələn, Sanskritin öyrənilməsinə görə 80 dollardan ən çox populyar olan, məsələn, kompüterlərlə bağlı istiqamətlərə görə 500 dollara qədər təşkil edir (The Chronicle of Higher Education, v. 48, is. 47). Lakin təbabəti öyrənmək imkanının qiyməti təqribən 20000 dollara bərabərdir. Kollecə pulsuz qəbul olunmaq üçün digər üsul - əlaqə və tanışlıqdan istifadə etməkdir. Hindistanın hər yerində geniş və mürəkkəb "ehtiyatda saxlama" sistemi mövcuddur. Əhalinin sayına görə Hindistanın ikinci ştatı olan və Mumbay (keçmiş Bombey) şəhərinin yerləşdiyi Maqaraştrda yerlər kasta və əcdadların mənşəyinə görə paylanır. Planda nəzərdə tutulan yerlərin orta hesabla beş faizi rəsmi keçid balından aşağı bal toplamış tələbələr üçün ayrılır. Tollan kollecində qəbul üçün mövcud yerlərin bir faizi siyasi dairələrdə tanışlığı olanlar üçün ayrılıb (The Chronicle of Higher Education, v. 48, is. 47). Bəzi hallarda təhsil sistemini tənzimləyən qanunların özündə korrupsiyanın qol-budaq atmasına imkan yaradan əl yerləri saxlanılır. Hindistanın tibb məktəblərində vəziyyət xüsusilə acınacaqlıdır. Məsələn, qanuna görə bütün tibb məktəblərində yerlərin 15 faizi daimi yaşayış yeri olmayan hindlilər üçün saxlanmalıdır. Tibb məktəbi onun payına düşən həmin yerləri doldura bilməsə – bu isə heç vaxt mümkün deyil, çünki bu bir neçə hindi mənşəli Böyük Britaniya və ya Amerika vətəndaşı təbabəti Asiyanın başqa ölkələrində öyrənməyi üstün tuturlar – onda boş qalmış yerlər ən çox pul təklif edən şəxslərə verilir.

Çex Respublikasında 750 ildən artıq fəaliyyət göstərən ən iri və nüfuzlu universitetin hüquq fakültəsi tələbələri özləri verdikləri imtahanların suallarını satırdılar. Bunların qiyməti 50 000 kron idi (1 500 dollar). Gələcək tələbələr suallarla yanaşı cavabları da almaq istəyirdilərsə, onlar iki dəfə artıq pul verməli idilər (Tucker, 2000).

Tələbə qəbulu zamanı baş verən korrupsiya ilə mübarizə üçün müxtəlif üsullardan istifadə etmək olar. Rüşvət vermənin və təzyiq göstərmənin qarşısını almaq üçün hökumətlər imtahan prosesinin əsaslı yoxlanmasını təşkil edə bilər, yaxud, Amerika Birləşmiş Ştatlarında və Böyük Britaniyada olduğu kimi, universiteti gələcək tələbələrdən imtahan qəbul etmək hüququndan məhrum edib bu işi müstəqil imtahan müəssisələri-

nə tapşıra bilər. Lakin müstəqil imtahan müəssisəsi də, bir orqan kimi, qəbul zamanı korrupsiyaya yol verilməyəcəyinə zəmanət verə bilməz. Korrupsiya müəssisənin özündə də uğurla çiçəklənə bilər – fərqi yoxdur, bu, dövlət müəssisəsidir, yoxsa özəl. Təhsil sisteminin yenidən təşkili və ya onun başqa cür dəyişdirilməsindən başqa, digər eyni dərəcədə mühüm məsələlərə də diqqət vermək lazımdır: müəllimlərin kifayət qədər yüksək maaşını, yüksək əxlaq və etik prinsiplərini necə təmin etmək olar.

**İşçi heyətinin idarə edilməsində korrupsiya**

Etibarlı təhsil sisteminin əsas tərkib hissələrindən biri bilikli və bacarıqlı tələbələrin seçilməsidir. Lakin yüksək ixtisaslı fakültə müəllimləri də universitet sahəsində zəruri balansın yaradılması üçün eyni dərəcədə vacibdir. Təəssüf ki, inkişaf edən ölkələrdə işçi qəbulunda korrupsiya hallarına hətta fakültə səviyyəsində rast gəlmək olur. Universitetlərdə insan ehtiyatları idarəçiliyi sahəsində mən bir neçə konkret sahə qeyd etmişəm ki, burada korrupsiyadan qurtarmaq çətindir: fakültəyə müəllim qəbulu, dərs yükünün paylanması, habelə maaşların və təqaüdlərin verilməsi. Məni təəccübləndirən o oldu ki, göstərilən sahələrdə korrupsiya formaları regionun iqtisadi və mədəni kontekstindən asılı olaraq müxtəlif ölkələrdə xeyli fərqlənirdi. Bir neçə misal gətirim.

Çex Respublikasında təcrübəli müəllimlər, hətta eləri ki, müxtəlif qərb fondlarından maliyyələşdirilir və onlara universitetin öz büdcəsindən maaş vermək lazım deyil, universitetə işə qəbul edilməkdə çətinlik çəkirlər. Tucker (2000) qeyd etdiyi kimi, çex universitetlərinin fakültə dekanlarına fakültəyə yeni müəllimlər qəbul etmək səlahiyyəti verilib, lakin onlar seyrək hallarda işə bilikli müəllim qəbul edirlər. Çox vaxt işədüzəlmə prosesi əvvəlcədən namizədin seçilməsindən başlanır. Bundan sonra boş olan müəllim yeri haqqında elan verilir, amma seçimdə iştirak etmək istəyənlərin heç biri universitetə müraciət eləmir, çünki yerin artıq seçilmiş namizədə verilməsini anlayırlar. Tucker göstərir ki, çexlərin belə vəziyyətə münasibəti italyanlardan daha realistdir, çünki italyanlar, elanda çıxmış yerin artıq tutulmuş olduğunu güman etsələr də, öz sənədlərini təqdim edirlər (Tucker, 2000). Çex universitetlərinin tədqiqatları da insan ehtiyatları idarəçiliyində qüsurlar haqqında xeyli material verir. Dekanlar yüksək ixtisaslı müəllimlərə çox vaxt onların daha yaxşı bildikləri fənlərdən deyil, başqalarından dərs verir, bu müəllimlərə evdən tutmuş tədris materialının surətinin çıxarılmasına qədər zəruri şərait yaradılmır, bundan başqa, onlara verilən fənlər könüllü fənlər siyahısına salınır ki, tələbələrin bu, bəlkə də, fakültənin ən yaxşı müəllimlərinin dərs dediyi mühazirələri seçməyə marağı olmasın. Belə nalayiq davranışın əsas səbəbi – köhnə müəllimlərin hələ də hökm sürən kommunist dövründən qalmış münasibətidir: onlar tutduqları imtiyazlı vəzifələri onlardan daha ixtisaslı, ən yeni bilik və bacarıqlara malik olan müəllimlərə vermək istəmirlər, buna görə də boşalmış yerlərə "öz" adamlarını qəbul edirlər.

*Ali Təhsil Xronikasında* göstərildiyi kimi, Kolumbiyanın 18 000 tələbəsi olan ən nüfuzlu universitetlərdən birində (Atlantik) işçilərin (inzibati işçilər, professorlar, adi fəhlələr) dörddə biri heç bir vəzifə yerinə yetirmir. Bunların əksəriyyəti gündə ya biriki saat işləyir, ya da heç işləmir və vaxtlarını sadəcə olaraq dostları ilə söhbətdə keçirirlər. Hələ bu yaxınlara qədər bəzi professorlar illərlə işə gəlməyə-gəlməyə maaş

alırdı. Sənədləri saxtalaşdıraraq və ya universitetin rəhbər işçilərinə rüşvət verərək professorlar, inzibati işçilər və fəhlələr rəsmən onlara çatası təqaüddən artıq təqaüd düzəldir, qanunla nəzərdə tutulan vaxtdan tez təqaüdə çıxır və hətta elə düzəldirdilər ki, onların ölümündən sonra onların təqaüdünü ailələri alırdı ((The Chronicle of Higher Education, v. 48, is. 47).

Təhsil sahəsində bu cür korrupsiya yalnız nalayiq təşkilat strukturu və hüquqi dövlətin zəifliyi "sayəsində" yarana bilərdi. Korrupsiyanı saxlayan maddi faydalanmadır, lakin sosial şəbəkənin saxlanması kimi qeyri-maddi faydalanma da az rol oynamır.

**Diplom satışı**

Korrupsion qaydada tələbə qəbulu və fakültə müəllimlərinin işə qəbul edilməsi təhsil sisteminə və onun dəyərlərinə zərbə vurursa, diplom satışı alıcıya ümumiyyətlə ali təhsil sistemindən yaxa qurtarmağa imkan verir, çünki o, ali təhsilli şəxs statusunu təsdiq edən bütün sənədləri əldə edir və heç tələbə olmadan belə şəxsə düşən bütün imtiyazlardan istifadə edə bilər.

Məsələn, Çində, paytaxtın universitet yerləşən Xaydyan rayonunda əsl universitetlərin saxta möhürləri ilə diplomlar 25 dollara satılır (The Chronicle of Higher Education, v. 48, is. 47). Belə geniş yayılmış yalan və saxtalaşdırmaya görə diplomların özü indi o qədər də qiymətləndirilmir. Pekin texnoloji universitetinin elmi işçilərinin hesablamalarına görə dövlət müəssisələri işçiləri arasında azı yarım milyonun saxta elmi dərəcəsi var.

Diplom satışı keçmiş Sovet İttifaqı ölkələrində də adi hala çevrilir. Bununla belə, burada saxta diplomların qiyməti Çindəkindən yüksəkdir. Qeyd etmək lazımdır ki, Ukraynada saxta diplomlar çox vaxt xaricilərə də satılır, bu da Ukrayna ali təhsilinin etibarlılığını təkcə ölkə daxilində deyil, xaricdə də azaldır və həm Ukrayna, həm də xarici dövlətlərin iqtisadiyyatına ziyan vurur. Bundan başqa, Ukrayna və Rusiya kimi dövlətlərdə belə bir hal getdikcə daha çox yayılır: yenicə qəbul edilmiş *aspirantlara*, gələcək fəlsəfə doktorlarına, köhnə *namizədlik* dissertasiyaları satılır. Ötən əsrin 70-80-ci illərində yazılmış dörd "təkrar istifadə edilən" dissertasiyadan ibarət "dəsti" cəmi 200 dollara almaq olar. "Biznes" açıb lazım gəlməyən dissertasiyaları kurs yoldaşlarına da satmaq olar.

Korrupsiyanın bu növü ilə mübarizədə qadağalarla, yəqin ki, böyük nəticə əldə etmək çətin olardı, çünki diplom və dissertasiya satışı indi də qadağandır. Bu problemi həll etmək üçün üsullardan biri müstəqil akkreditasiya orqanının təsis edilməsi ola bilərdi və bu orqan diplomu olan hər bir şəxsi imtahan edib sonra onu işə qəbul edənləri namizədin bilikləri haqqında məlumatlandırardı. Diplom alıcısı bilsə ki, işə düzəlmək üçün yenə də imtahan verməlidir, bəlkə də onun saxta sənəd almaq meyli azalar.

## Akkreditasiya

Ali təhsil müəssisələri rəsmən tanınmaq üçün akkreditasiya sisteminin rəsmi qaydalarından keçməlidir. Tanınmış universitet olmaq üçün müəyyən standartlara və tələblərə cavab vermək lazımdır. Lakin akkreditasiya sistemində də korrupsiya varsa, "aşağı keyfiyyətli institutlar bilik və bacarığı bəlkə də mövcud professional

standartlara uyğun olmayan şəxslərə diplom verə bilər" (Heyneman, 2002). Şəxslərin akkreditasiyası da olduqca vacibdir. Məsələn, tələbə qəbulu sahəsində korrupsiyanın və diplom satışının mövcud olduğu Ukrayna kimi ölkələrdə universitetlər özləri akkreditasiya keçirir, bu da verilmiş elmi dərəcənin keyfiyyətində xeyli şübhə yaradır və onun etibarlılığını yoxlamağa heç bir başqa üsul qoymur. Korrupsiya halları buraxılış imtahanları zamanı da seyrək deyil, tələbələr imtahan qəbul edən müəllimə rüşvət verib müsbət qiymət ala bilirlər. Buna görə işə qəbul edənlər üçün yenicə universitet bitirmiş gənclərin savadı haqqında bir qərara gəlmək çətin olur. Bu halda yalnız müstəqil akkreditasiya müəssisəsi korrupsiyanın səviyyəsini aşağı sala bilər, bu şərtlə ki, onun özündə korrupsiya olmasın.

## Müəllim korrupsiyası

Müəllim korrupsiyası – olduqca ağrılı problemdir, çünki buna birbaşa cəlb olunan da, əziyyət çəkən də tələbələr olur. İnkişaf edən ölkələrin əksəriyyətində tələbələrlə müəllimlərin münasibətlərini tərəflərin ünsiyyəti kimi (üfüqi münasibətlər) qiymətləndirmək olmaz, əksinə, bunlar iyerarxiya (şaquli) münasibətləridir və burada müəllim tələbədən yuxarıda dayanır. Bu cür üstünlük əsasında qurulmuş mühitdə korrupsiya qol-budaq atanda, bu çox vaxt tələbələrdən istifadə ilə nəticələnir. Müəllim korrupsiyası həm də təhsil almağa bərabər imkanlar vermir. Məsələn, bəzi varlı tələbələr yalnız verdikləri rüşvət hesabına ali məktəbdə oxumaq imkanı əldə edir və bununla daha kasıb tələbələrin hüquqlarını məhdudlaşdırır. Bəzən müəllimlər rüşvəti yalnız bacarıqsız, yəni tədris proqramı tələblərinin öhdəsindən müstəqil olaraq gələ bilməyən tələbələrdən alır. Belə olduqda bacarıqlı və işgüzar tələbələr hələ rüşvətsiz oxuya bilər. Lakin bəzən müəllimlər bacarıqlarından asılı olmayaraq tələbələrin hamısından rüşvət istəyir. Verməyənlər imtahanları verə bilmir. Belə təcrübənin nəticəsində həm heç nəyə yaramayan mütəxəssislər əmələ gəlir, həm də gələcək liderlər potensialından istifadə üçün maneələr yaranır. Çox vaxt, məsələn, müəllimlər tələbələrə təzyiq göstərəndə ki, müəllimin hazırladığı və nəşr etdirdiyi materialları alsınlar, sonra da almaqdan imtina edən tələbələri "qara" siyahıya salanda, müəllim korrupsiyasını professional normalara cavab verməyən davranış adlandırmaq olar. Narahatçılıq doğuran digər cəhət ondadır ki, təhsil müəssisəsində uzun müddət davam edən korrupsiya tələbələrə elə təsir göstərəcək ki, gələcəkdə onlar da korrupsion ola bilərlər.

Müəllim korrupsiyası və nalayiq professional davranış – dünyada geniş yayılmış haldır. Keçmiş Sovet İttifaqı Respublikaları, Çin, Kolumbiya, Hindistan və Çex Respublikası – hamısı sessiya vaxtı tələbələrdən rüşvət alan, siyasi quruluş və s. məsələlərlə bağlı öz münasibətini tələbələrə zorla qəbul etdirməyə çalışan müəllimlərdən, seksual xarakterli tələblərdən, qeyri-maddi xidmətlərin göstərilməsi və qəbul edilməsindən (məsələn, tələbə istirahət günlərində müəllimin bağında işləyir, əvəzində müəllim onunla əlavə dərs keçir və bunun nəticəsində tələbə kursu uğurla bitirir) danışa bilər. Maraqlıdır ki, ali təhsil haqqında Çex Respublikasının qanununda bu cür korrupsiya növü, bir çox başqa növləri kimi, qadağan edilmir (Tucker, 2000). Bu ehtimal etməyə imkan verir ki, bəlkə başqa dövlətlərdə də, ilk növbədə keçmiş Sovet Respublikalarında, bu qadağan edilməyib, çünki müstəqilliklərini bərpa etmiş dövlətlərdə

yeni qanunvericiliyin yaradılması prosesində təhsil sahəsində işləyən vəzifəli şəxslər təhsil sistemindəki korrupsiya haqqında düşünmək meylində deyildilər. Nədənsə onlar bu barədə hələ də düşünmürlər.

Digər tərəfdən, müəllim korrupsiyasının qarşısı alınması istər-istəməz müəllim maaşlarının artırılması ilə bağlıdır. Müəllim maaşları yaşama minimumundan yüksək olmalıdır, çünki əks halda bu sahədə korrupsiya ilə mübarizənin heç bir nəticəsi olmayacaq. Bu məqamda etika və əxlaqla bağlı sual yaranır: o həddi nə cür müəyyən etmək olar ki, ali və orta məktəb müəllimlərinin maaşları ondan aşağı düşəndə onların rüşvət almasına bəraət qazandırmaq, ondan yuxarıda olanda isə bunu onların tamahkarlığı ilə izah etmək olsun?

## Tədarük sahəsində korrupsiya

Təhsil müəssisələri və onların işçiləri tədris materialı ilə təchiz edəcək şirkəti seçərkən təklif edilən materialın keyfiyyətinə deyil, rəqib dizayner və ya istehsalçılardan alacaqları rüşvət və ya başqa faydaya əsaslanırlarsa, onlar tədarük sahəsində korrupsiyanın yayılmasına şərait yaradırlar.

Tədarük sahəsində korrupsiyadan danışarkən ilk növbədə onun səbəbini anlamaq vacibdir. Sifarişin alınmasında maraqlı olan tərəf ən yaxşı təklifin seçilməsinə cavabdeh olan tərəfə rüşvət təklif edir ki, sifarişin məhz bu təchizatçıya verilməsini təmin etsin. Belə davranışın nəticəsi müəyyən edilmiş standarta cavab verməyən mal və xidmətlərin alınması və ya şişirdilmiş qiymətlər ola bilər. Təhsil sistemi kontekstində alınmış mal və xidmətlərin son istehlakçısı tələbələr olduğundan standartlara cavab verməyən malların alınmasından ən böyük ziyan məhz onlara dəyəcək.

Heyneman qeyd etdiyi kimi, tədarük sahəsində korrupsiya iqtisadi inkişafından asılı olmayaraq hər bir ölkədə var – Keniya və Uqandadan tutmuş, Dallas və Nyu-Yorka qədər (Heyneman, 2002, səh. 10).

# Korrupsiya növləri

Korrupsiyanın mümkün olduğu sahələri müəyyən etdikdən sonra korrupsiya prosesinin əsas iştirakçılarını və onları buna vadar edən səbəbləri müəyyən etmək lazımdır. Bunu Tanakanın (2000) təklif etdiyi korrupsiya növlərinin təhlili vasitəsilə etmək olar:

- həcm: iri korrupsiya / xırda korrupsiya;
- yer: nazirlik / özünüidarə / büro / məktəb / sinif;
- kənar şəxslərin iştirakı;
- korrupsiyanı doğuran səbəb (tələb yaxud təklif).

Korrupsiya həcminin təhlili çox şeyi açıqlaya və korrupsion sistemin diaqnostikasında kömək edə bilər. Bu cəhət rüşvət alanın motivasiyası ilə uzlaşa bilər: rüşvəti tamahkarlıqdan alırlar, yoxsa dolanmaq üçün, yaxud hər iki səbəbdən. Xırda miqyaslı korrupsiya halında rüşvət alanın motivasiyası kiçik və vaxtında verilməyən maaşdan əlavə gəlir və ya hər hansı hədiyyə almaqdan ibarətdir.

Korrupsiyanın bu növü müəllim korrupsiyası ilə uzlaşır və keçid dövrü yaşayan dövlətlərdə tez-tez rast gəlinən haldır. Müəllimlər sadəcə olaraq dolanışıq qazanmağa

və ailələrini saxlamağa çalışırlar. Hökumətlər öz ölkələrində möhkəm və etibarlı ali təhsil sistemi görmək istəyirsə, onlar müəllimlərinə dolanmağa yetərli olan maaşların verilməsinə imkan tapmalıdır. Düzünü desək, Tanaka (2002) belə bir fikir ifadə edib ki, maaş yaşayış minimumundan aşağı olan halda maaşları qaldırmaq üçün heç bir tədbir görmədən korrupsiyanın qadağan edilməsi nəinki xeyir gətirməz, hətta vəziyyəti daha da ağırlaşdıra bilər.

Korrupsiyanın rast gəlindiyi yerin müəyyən edilməsi iki cəhətdən vacibdir. İlk növbədə bu, fiziki olaraq korrupsion şəxsləri müəyyən etməyə kömək edir. İkincisi, bu, artıq dərəcədə böyük səlahiyyətlərə malik müəllim və ya inzibati işçiləri müəyyən etməyə kömək edir. Məsələn, məlum olsa ki, müəllim korrupsionerdir və adətən rüşvəti imtahan gedən otaqda götürür, onda növbəti rüşvət alınmasının qarşısını almaq olar. Bundan başqa, korrupsiya prosesində iştirak edən bütün kənar şəxsləri müəyyən etmək lazımdır. Korrupsiya ilə mübarizədə konkret yeri və rüşvət ala biləcək əsas şəxsləri nəzərə almaqla Azərbaycanda işləyən sistem maraqlı nümunədir.

Azərbaycanda, keçmiş Sovet Respublikalarının heç birində mövcud olmayan nadir bir sistem işləyir. Bu sistemin ideyası qismən Türkiyədən götürülüb. Dövlət imtahan komissiyası üzvləri hər il keçirilən qəbul imtahanlarından bir-iki gün qabaq və bir-iki gün sonra xüsusi bunkerdə yerləşdirilirlər ki, gələcək imtahanların suallarını açıqlamağa və ya satmağa, yaxud imtahan qiymətlərini dəyişdirməyə imkanı olmasın. Əsl imtahan sualları silahlı mühafizə dəstəsinin müşayiəti ilə bilavasitə imtahandan qabaq gətirilir. İmtahan suallarının hazırlanması müxtəlif yerlərdə marağı olmayan üçüncü tərəflərin sərt nəzarəti ilə keçir, burada yalnız kompyuterin seçdiyi müxtəlif suallar kombinasiyaları təqdim edilir. İlk baxışda bu çox qəti preventiv tədbir kimi görünür (The Chronicle of Higher Education, v. 48, is. 16, səh. 5). Lakin bu tədbirlər doğrudan da əməlidir və bunların son nəticəsi etibarlı ali təhsil sistemidirsə, onda bəlkə başqa ölkələrə də, müvəqqəti olsa da, bu üsuldan istifadə etməyə dəyərdi. Bununla belə, ali təhsildə korrupsiya ilə mübarizənin əsas məqsədi elə bir sistemin yaradılmasıdır ki, burada korrupsiya halları olmasın (və yaxud seyrək olsun) və auditoriyaları sərt nəzarət altında saxlamaq lazım gəlməsin.

Digər cəhətin - korrupsiyanı tələb yaxud təklifin doğurmasının – təhlili korrupsion sistemin çevrəsini görməyə imkan verir və gələcəkdə preventiv proqram və tədbirlərin vasitəsilə əleyhinə mübarizə aparmaq lazım gələn problemləri üzə çıxarır. Ümumiyyətlə, rüşvət alan şəxs rüşvət verən şəxsdən daha böyük səlahiyyətə malik olanda, bu, tələbdən doğan korrupsiya adlanır, rüşvət alanla rüşvət verən arasında az-çox güc tarazlığı olanda isə, bu, təklifdən doğan korrupsiya hesab edilir. Rüşvəti tələbə verəndə müəllim korrupsiyası adətən tələbdən doğur, yəni onun təşəbbüskarı müəllimin özüdür. Lakin istisnalar da olur. Ali Təhsil Xronikasında Pekin universiteti müəlliminin danışdığı əhvalat var. Buraxılış imtahanlarından bir az qabaq fəlsəfə doktoru olmaq istəyən, lakin çox vaxt mühazirələrə gəlməyən tələbə müraciət etdi. O sadəcə olaraq 100 yuan dəyərində bir neçə əskinazı dürmək şəklində bükülmüş halda müəllimə uzatdı. Bir neçə yüz dollara bərabər bu pulu tələbə müəllimə boş auditoriyada verməyə çalışırdı. Müəllim rüşvətdən imtina edəndə, əl çəkməyən tələbə pulla dolu zərflə müəllimin evinə gəldi. Rüşvət vermək cəhdi yalnız o zaman bitdi ki, müəllim

zərfi qapıdan bayıra atıb tələbənin üzünə qapını çırpdı (The Chronicle of Higher Education, v. 48, səh. 47, 1 psl.). Korrupsiya halları Çin universitetləri üçün adi hal olmasaydı göstərilən misal gülməli olardı. Bu barədə universitet rəhbərliyindən azı bir nəfər xəbərdar olsa belə, təklifdən doğan bu konkret korrupsiya cəhdinə görə heç kim cəzalandırılmadı.

Korrupsiyanı təklif doğuranda, rüşvət verənlər daha əlverişli şərtlər əldə etmək üçün öz aralarında rəqabət etməyə başlaya bilərlər. Məsələn, bəzən dizaynerlər və tədris materialları istehsalçıları sifariş almaq üçün xeyli rüşvət verirlər.

## Korrupsiyanın səbəbləri və nəticələri

## Səbəblər və preventiv tədbirlər

Təhsil sistemində korrupsiyanın mövcud olması səbəblərini üç səviyyədə təhlil etmək olar: institusional, təşkilati və ayrı-ayrı fərdlər səviyyəsində. Korrupsiyaya zəmin yaradan və onun səbəbi olan amilləri də seçmək lazımdır.

Universitet idarə sisteminin natamamlığı və onun qüsurları çox vaxt korrupsiya üçün zəmin yaradır, çünki adətən korrupsiyanın qarşısını alan maneələr yetərli sayda yaranmır. O fakt ki, universitetlər bir-birilə rəqabət aparmır, cəmiyyət isə universitet işlərinə demək olar ki, cəlb olunmur, universitet fakültələrini və onların işçilərini müəssisənin nüfuzu haqqında, daxili siyasət və tələbə və sponsorlardan alınan pulla əlaqədar qərarların qəbul edilməsi prosesi haqqında düşünməyə vadar etmir. İnstitusional səviyyədə korrupsiyanın çiçəklənməsinə akkreditasiya ilə bağlı amil də təsir edir: ola bilər ki, tədris müəssisəsi akkreditasiya edilməyəcək və ya kifayət qədər keyfiyyətli təhsil verməyən müəssisə kimi qiymətləndiriləcək. İnstitusional səviyyədə korrupsiyaya təsir edən amillərin daha geniş siyahısı təhlil edilən konkret dövlət kontekstində hazırlanmalıdır.

Universitetlərdə "sağlam" institusional mühitin yaradılması ləng və uzunsürən prosesdir. Yalnız müəyyən coğrafi regionda işləyən və yerli ali məktəblərin rəhbərliyi ilə sıx əməkdaşlıq edən elmi işçilərin rəyi təqdim ediləndən sonra konkret tövsiyələr verilə bilər.

Təşkilati səviyyədə korrupsiyanın ilkin şərtləri və səbəbləri arasında korrupsiyaya yol açan qeyri-mükəmməl təşkilat quruluşu, hesabat vermə və nəzarətin çatışmazlığı, habelə maddi və qeyri-maddi həvəsləndirmə üsulları daxil olmaqla düzgün olmayan motivasiya strukturunu göstərmək olar. Tədris müəssisələrində və tədarük sahəsində korrupsiya qismən dünyanın müxtəlif yerlərində zəif təşkilat strukturuna görə də yarana bilər. Hesabat vermə çatışmazlıqları da sui-istifadə üçün elə şərait yaradır ki, qeyri-qanuni fəaliyyətlə məşğul olmağın qorxusu yoxdur. Lakin nəzarət və lazımi səviyyədə qurulmuş struktur amili nə qədər vacib olsa da, düzgün motivasiya strukturundan əhəmiyyətli və vacib deyil. Motivasiya strukturuna yaşayış minimumundan yüksək maaşlar, özünəhörmət və öz qabiliyyətlərini nümayiş etdirmək kimi hamıya məxsus ehtiyacların ödənilməsi, fakültə üzvləri və inzibati işçilər özlərini təşkilatla qırılmaz surətdə bağlı olduqlarını hiss etmələrinə nail olmaq imkanı daxildir. Təşkilatlar

nəzəriyyəsində iddia edildiyi kimi, təşkilat öz işçilərində motivasiya yaratmağa qadir deyilsə, o, sıx əməkdaşlıq təmin edə bilməyəcək. (Barnard, 2001).

Mənə elə gəlir ki, inzibati strukturun və motivasiya sisteminin universitet sahəsi qarşısında qoyulan müasir tələblərə müvafiq qaydada yeniləşdirilməsi ali məktəblərdə korrupsiya hallarının sayını xeyli azaldardı.

İnstitusional və təşkilati səviyyələrlə bağlı bütün problemlər həll ediləndən sonra belə korrupsiya hələ də mövcuddursa, deməli korrupsiya əsasən universitet fakültələri işçilərinin şəxsi xüsusiyyətləri ilə bağlıdır. Şəxsi səviyyədə korrupsiyanın səbəbləri arasında professional iftixar və ya onun olmamağı, tamahkarlıq, risk etməmək arzusu və s. ola bilər. Fakültə işçilərinin şəxsi xüsusiyyətləri korrupsiyanı ya şövq edə, ya da, əksinə, onun qabağını ala bilər. Bu keyfiyyətlər adətən gələcək müəllimlərin hələ universitetdə oxuduğu dövrdə inkişaf etdirilir. Əgər onların universitetdə oxuduqları zaman oraqdakı proseslər lazımi qaydada getmir, əgər onlar nalayiq professional davranışla rastlaşırlarsa, sonralar onlarda müəllim davranışının nə cür olmalı olduğu haqqında yanlış təsəvvür yarana bilər.

Müəllimlərin nalayiq davranışı problemi xüsusi mühazirələrin təşkili, habelə müvafiq mənəvi dəyərlərin və əxlaqi baxışların təbliği yolu ilə həll edilə bilər.

## Nəticələr

Beynəlxalq Valyuta Fondu sənədlərində göstərildiyi kimi, korrupsiya "əksər ölkələrdə qiymətləri qaldıra, səhiyyə, təhsil kimi xidmətlərin təmin edilməsi və maliyyələşdirilməsi baxımından hökumətin imkanlarını azalda bilər" (Gupta, Davoodi, Tiongson, 2000, səh. 3). Korrupsiya doğrudan da iqtisadi inkişafa mənfi təsir göstərir (Gupta, Davoodi, Tiongson, 2000, səh. 3). Təhsil sahəsində korrupsiya isə yalnız iqtisadi deyil, başqa nəticələrə də gətirir.

Təhsil sistemi vacib sosial funksiyaları yerinə yetirir. O, sosial mobillik kanalı rolunu oynayır. İdeal halda güman edilir ki, ali təhsil sistemi namizədlərin diqqətli seçimi yolu ilə gələcək dövlət liderləri hazırlayacaq. Hesab edilir ki, seçim prosesi (istər qəbul, istərsə də bütün sonrakı seçimlər) akademik qeydlər, test qiymətləri və namizədlərin akademik qabiliyyətlərini əks etdirən digər vasitələrin məzmunu əsasında qurulur. Lakin korrupsion akademik sistemdə məzmuna əsaslanan seçim pula əsaslanan seçimlə əvəz edilir. Rüşvət verən universitetə qəbul olunur. Namizədin və ya tələbənin nailiyyətləri, onun motivasiyası və peşə fədakarlığı isə nəzərə alınmır. Gələcək dövlət liderlərinin korrupsion seçimi prosesində layiqli namizədlərin əksəriyyəti qıraqda qalır, onların yerini isə heç bir nailiyyəti olmayan şəxslər tutur. Belə vəziyyət gələcəkdə ölkənin idarə edilməsinə mənfi təsir göstərir, bu isə, öz növbəsində, ölkənin ümumi iqtisadi və sosial inkişafına da mənfi təsir edir (Heyneman, 2002).

Bundan başqa, ali təhsil sahəsində korrupsiya konkret cəmiyyətin və ya icmanın rifahı üçün tezliklə hiss olunacaq mənfi nəticələrə gətirib çıxara bilər. Məsələn, tibb işçilərinin hazırlanması ilə məşğul olan korrupsion müəssisələr mövcud olduqda, bunlardan birini gələcək kardiocərrah bitirə bilər ki, heç bir dəfə də özü imtahan verməyib, həmişə nüfuzlu qohumlarının köməyindən istifadə edib. Təhsil sistemində korrupsiyanın böyük ziyan vura biləcəyini göstərən digər misal Ukraynada baş vermiş hadisə ola bilər. Rovno atom elektrik stansiyası partlaya və burada Çernobıl qəzası təkrar oluna bilərdi.

Belə təhlükəli hadisənin təhlili göstərib ki, nüvə reaktoruna cavabdeh olan işçilər rəsmi təhsil almayıb, Odessa Politexnik İnstitutu diplomlarını isə ali təhsil sistemindən kənar alıblar. Təəssüf ki, Ukraynada bu cür "xidmət" göstərən ali məktəblərin sayı az deyil.

Ali təhsil sistemində korrupsiya, şübhəsiz, zərərli haldır. Korrupsiya cəmiyyətə dərhal gözə çarpmayan və dolayı yolla da təsir edə bilər. Başqa sözlə, kifayət qədər gücü olan və korrupsiyaya qoşulmaqdan çəkinməyənlərə problemlərin qısamüddətli həllini təklif edərək o, cəmiyyətin rifahına və ya gələcək rifahına ziyan vurur.

## Qloballaşma və korrupsiya

Sərhədləri keçmək getdikcə daha da sadələşən müasir dünyada zəif və orta inkişaf etmiş dövlətlərin ali təhsil sahəsində korrupsiyanın mövcud olması, ən qabaqcıl dövlətlər üçün də problemə çevrilməsini anlamaq olduqca vacibdir. Məsələn, Ali Təhsil Xronikasında göstərilir ki, Amerika professorları, müəllimləri və alimləri başqa dövlətlərdə hökm sürən korrupsiya haqqında bilərək, artıq bu dövlətlərin öz təhsil sistemlərini təkmilləşdirmək niyyətləri haqqında elanlarına və qüvvədə olan mübadilə proqramlarına etibar eləmirlər. Amerika kolleclərinə yazılan xarici tələbələrin sayı artdıqca belə bir sual meydana gələ bilər: "Qiymətləri düzgün yolla deyil, pulla almağa öyrəşənlər öz vərdişlərini bizdə də tətbiq etməyə çalışacaqlarmı?" (The Chronicle of Higher Education, v. 48, is. 47, səh. 2).

ABŞ-da tətbiq edilən doktoranturaya seçim qaydalarını misal gətirək. Doktoranturaya qəbul olmaq istəyən tələbənin belə təhsilə yaramağı və ona maliyyə yardımı edilməsi məsələsinin müzakirəsindən əvvəl namizəd zəmanət, qiymətləri haqqında sənəd və GRE ilə TOEFL testləri üzrə ballarını təqdim etməlidir. Lakin Çində bütün bu sənədləri açıq-açığına istəyənlərin hamısına satırlar. Zəmanətləri və qiymət haqqında sənədləri almaq olar, bir savadlı tanışa da pul vermək olar ki, əsl namizədin yerinə bütün testləri versin. İqtisadi cəhətdən qüdrətli dövlətlər keyfiyyət tələblərinə cavab verməyən namizədlərin qəbul edilməsinə yol verməmək üçün xaricdən yenicə gəlmiş tələbələrin akademik qeydlərinin ciddi yoxlanmasını təşkil etməlidirmi? Bəzi dövlətlərdə, məsələn, Almaniya, məhz belə edirlər. Orada tələb edirlər ki, inkişaf edən ölkələrdən gələn və magistratura ya doktoranturada oxumaq istəyən namizədlər Almaniyada bütün kursdan imtahan versinlər. Amerika universitetləri isə xarici ali məktəblərdəki korrupsiya nəticələrindən nisbətən müdafiəsiz qalır. Bu yaxınlarda kompyuterlərə TOEFL, GRE, GMAT, digər standartlaşdırılmış testləri verməyə imkan yaradan və imtahan verənin kimliyini yoxlayaraq test nəticələrinin saxtalaşdırılmasından müdafiə rolunu oynayan proqramlar tətbiq edilib. Buna baxmayaraq, inkişaf edən ölkələrdə belə test nəticələrinin standartlaşdırılması halları hələ də mövcuddur. Çində saxta tələbələr (və ya onların əvəzində imtahan verənlər) hətta İ-20 və İAP-66 immiqrasiya formalarını saxtalaşdırmağa nail olurlar. Bu formalar ABŞ-a gələn tələbə və mübadilə proqramları iştirakçılarına ABŞ vizası almaq üçün müraciət etməyə imkan verir (məlumat şəxsi söhbət zamanı əldə edilib).

# Empirik məşğələ

Mən bir empirik məşğələ keçirdim və hal-hazırda Vanderbilt universitetində təhsil alan bir neçə xarici tələbələrə suallarla müraciət etmişəm. Verdiyim əsas sual o idi

ki, öz ölkələrindəki ali təhsil məktəblərində korrupsiya ilə şəxsən rastlaşıblarmı? Sorğuya cəmi səkkiz tələbə cəlb olunmuşdu. Bunlardan ikisi Cənubi Amerikadan, altısı isə Gürcüstan, Ukrayna v. Rusiyadan idilər.

Cənubi Amerikadan olan respondentlərin ikisi də özəl universitetlərdə oxuyub - biri Meksikada, digəri isə Braziliyada, və hər ikisi deyirdi ki, onların universitetlərində korrupsiya yoxdur. Lakin onlar qeyd etdilər ki, eşitdiklərinə görə öz ölkələrinin dövlət universitetlərində korrupsiya halları, doğrudan da, mövcuddur.

Gürcüstan və Ukraynadan olan respondentlər korrupsiya ilə şəxsən rastlaşmalarını etiraf etmədilər, lakin hamısı öz ölkələrindəki universitetlərdə korrupsiya hallarından misallar gətirdi. Rusiyadan olan respondent özü universitet müəllimi işləyib və bildirdi ki, elə hallar olub ki, tələbələrin valideynləri sessiya vaxtı ona rüşvət verməyə cəhd ediblər.

Bu respondentlərin hər biri ilə apardığım şəxsi söhbətdə məlum oldu ki, ali təhsil sahəsində korrupsiyaya münasibət regiondan asılı olaraq fərqlənir. Oxşayır ki, Gürcüstan və Ukraynada bu sahədə korrupsiya artıq normaya, adi hala çevrilib, Rusiyada (Moskvadan kənar) yaşayan respondentin dediyinə görə isə, onun universitetində korrupsiyaya problem kimi baxırdılar və rektor onun kökünü kəsmək üçün müxtəlif üsullara əl atırdı.

Ümumiyyətlə, tələbələrdən korrupsiya ilə əlaqədar şəxsi təcrübələrindən "həqiqi əhvalat" eşitmək yəqin ki, asan deyil. Yəqin ki, universitet müəllimləri və ya universitetin inzibatçı işçilərindən belə əhvalat eşitmək ondan da çətin olardı. Daha düzgün nəticələr əldə etmək üçün müsahibəni məhz məlumatın toplandığı ölkədə aparmaq lazımdır və sorğuya daha çox adam cəlb eləmək ki, konkret nəticələr çıxarmağa imkan verən kifayət qədər misal yığmaq olsun. Tələbələrə qeyri-rəsmi şəraitdə sual vermək və anonimliyi təmin etmək lazımdır. Düzgün informasiya toplamaq üçün üsullar haqqında məsləhətləri biz bir vaxt tez-tez müsahibə aparan insanlardan öyrənərik.

## Nəticə

Ali təhsil sahəsində korrupsiya – dünyanın bütün ölkələrində rast gəlinən haldır. Onun hər cür forması və növü ola bilər, ona tədris prosesinin müxtəlif mərhələlərində rast gəlmək olar, o, tədris prosesindən tutmuş müəssisənin akkreditasiyasına qədər universitet fəaliyyətinin bir çox sahələrinə təsir edə bilər.

Şübhəsiz ki, korrupsion ali məktəblər iş bazarına lazımınca hazırlaşdırılmamış və yetərincə ixtisaslaşmamış məzunlar buraxır ki, bu da həm qısamüddətli, həm uzunmüddətli baxımdan cəmiyyətin iqtisadi və ictimai inkişafına mənfi təsir göstərir. Korrupsiyanın səbəblərini onun üç səviyyəsi baxımından təhlil etmək məsləhətdir: institusional, təşkilati və ayrı-ayrı fərdlərin səviyyəsində. Bir ölkənin kontekstində tədqiq edilən hər səviyyə korrupsiyanın azaldılması üçün hansı preventiv tədbirlərdən istifadə edilə bilməsi haqqında fikir yaratmağa imkan verir.

Unutmaq olmaz ki, bir fenomen kimi korrupsiya cəmiyyətin və müəssisə təşkilat quruluşunun qeyri-mükəmməlliyi nəticəsidir, buna görə onunla mübarizə apararkən

təkcə gur səsli şüarlardan deyil (bunlar bəlkə də bizim bu məsələyə münasibətimiz və emosiyalarımız haqqında çox şey deyir, amma problemin başa düşülməsinə və həllinə heç bir vəchlə kömək eləmir), elmi yanaşma və müxtəlif təqdimatlardan istifadə etmək lazımdır.

Ali təhsil sahəsində korrupsiya dünyanın bir çox ölkəsində məhz indi, çətin təhlil edilən, lakin göz yummaqla təhlükəsi daha da artan müxtəlif və nəfis formalar alanda, aktual problemə çevrilib. Korrupsiya hallarına qəbul imtahanlarından buraxılış imtahanlarına qədər tədris prosesinin hər mərhələsində rast gəlmək olar. Bu, tələbələrə həm bilavasitə, həm dolayı yolla təsir edə bilər. Korrupsiyanın ən çox vüsət aldığı zəif və orta inkişaf etmiş dövlətlərin ali təhsil sahəsində korrupsiya ilə bağlı problemlərin həlli xüsusilə vacibdir. Məhz bu cəmiyyətlərin səmərəli ali təhsil sisteminə olduqca böyük ehtiyacı var, çünki gənc mütəxəssislərin köməyi ilə bu ölkələrin iqtisadiyyatını möhkəmləndirmək olardı.

Ən ümdə məsələ - mövcud məhdud vəsaitləri layiq olmayan tələbələrə sərf edilməməyini və ölkənin gələcək liderlərinin düzgün və açıq müsabiqə yolu ilə seçilməsini təmin etməkdir.

TADAS TAMOŞÜNAS

# LİTVA ALİ MƏKTƏBLƏRİNDƏ KORRUPSİYA: NƏZƏR NÖQTƏLƏRİ, PROBLEMLƏR, HƏLL YOLLARİ

Korrupsiya - bu və ya digər dərəcədə istisnasız bütün cəmiyyətlərə xas olan sosial haldır, onu azaltmaq olar, lakin tamamilə ləğv etmək heç kimə nəsib olmayıb. Bu cür mülahizələrə təhlil xarakterli ədəbiyyatda, korrupsiya ilə mübarizə aparan təşkilatların bəyannamələrində tez-tez rast gəlmək olar. Ətraflı müqayisəli tədqiqatların göstərdiyi kimi, Litva hələ ki, korrupsiyanın az yayıldığı ölkələri ciddi korrupsiya problemləri ilə üzləşən dövlətlərdən ayıran xətti keçə bilməyib. Bu bədxassəli fenomen ölkənin ali məktəbləri üçün səciyyəvidirmi? Son illərin tədqiqatları bunu, necə deyərlər, artıqlaması ilə təsdiq edirlər. Litva Tələbə Nümayəndəlikləri İttifaqının təşəbbüsü ilə keçirilmiş tədqiqata əsasən respondentlərin 33 faizi müəllimlərə rüşvət verdiklərini etiraf edib. Spinter tədqiqatına görə isə bunu respondentlərin 40 faizi boynuna alıb. Bu rəqəmlər son dərəcə sarsıdıcı və çoxları (ilk növbədə ali məktəb rəhbərləri və müəllimləri) üçün yəqin ki, olduqca “acıdır”. Bunu bir sıra ali məktəblərin həmin tədqiqatlara qarşı həyəcanlı və kəskin reaksiyası da təsdiq edir. Onların fikrincə, tədqiqatların metodikası kamil deyil, respondentlərin cavabları qərəzlidir və sairə, və ilaxır. Aydın məsələdir ki, sosial tədqiqatların aparılmasında etibarlı məlumatın seçimi və toplanması ilə bağlı qüsurlar çox vaxt baş verir, bununla belə korrupsiya bir çox ali məktəblərin həyatında inkaredilməz bir faktdır. Və bu problemi ört-basdır eləmək məqsədilə işlənən incə bicliklər ali məktəblərin nəinki korrupsiya hallarını ləğv etmək, onları ümumiyyətlə etiraf etməyə hazır olmaqlarında şübhə oyadır. Bəlkə ali məktəb müəllim və tələbələrinin bir qismi korrupsiyanı heç problem hesab etmirlər? Bu hipotetik sualları müzakirə etmək məqsədilə “Təhsil prosesində korrupsiyanın qarşısı alınması, cəmiyyətin məlumatlandırılması və onda şüurluluğun tərbiyə edilməsi” layihəsi çərçivəsində Müasir Didaktlar Mərkəzi ali məktəblərdə korrupsiya məfhumunun təhlili məqsədilə kəmiyyət və keyfiyyət tədqiqatı təşəbbüsü ilə çıxış edib. Kəmiyyət tədqiqatı məlumatlarına müəyyən dərəcədə keyfiyyət ölçüləri də məxsusdur, ona görə ki, respondentlərin təkrar olunan cavabları fikirlərin daha geniş ifadəsi kimi qiymətləndirilməlidir. Tədqiqatın nəticələri müəllim və tələbələrin korrupsiyaya qarşı münasibət və davranışlarını daha aydın başa düşməyə, habelə onun qarşısı alınması imkanlarını daha dəqiq təsəvvür etməyə imkan verir. Aşağıda tədqiqatın qısa xülasəsi və onun nəticələri təqdim edilir.

## Ali məktəb subyektlərinin korrupsiyaya münasibəti

Anket sorğusunun nəticələri göstərdi ki, gözlənildiyi kimi, korrupsiya fenomeni ali məktəblərdə ən gizli hallardan biridir, ona görə müəllimlər onu açıq şəkildə qiymətləndirməkdən müəyyən qədər çəkinirlər. Bunu faktlar da sübut edir: respondentlərin əksəriyyəti (2/3) öz ali məktəblərində korrupsiya haqqında eşitmiş və ya onunla rastlaşmışlar, lakin bu barədə məlumat əksər hallarda dolayı və qeyri-rəsmi yolla: tələbələrlə (44 faiz) və ya həmkarlarla (42 faiz) söhbət zamanı yayılır, rəhbər-

lik və ya, deyək ki, ali məktəbin dövri mətbuatı isə bu barədə susur. Ali məktəblərdə korrupsiyanın qiymətləndirilməsində kütləvi informasiya vasitələri respondentlərə şübhəsiz təsir edir: KİV vasitəsilə başqa ali məktəblərdəki korrupsiya hallarından xəbəri olan respondentlərin sayı öz ali məktəbindəki korrupsiya hallarından xəbəri olan respondentlərin sayından 5 dəfə artıq idi.

Müsahibənin nəticələri anket sorğusu zamanı üzə çıxan korrupsiyanın gizli halını təsdiq etdi: sorğunun anonim şəkildə aparılmasına baxmayaraq nəinki korrupsiyada öz iştirakını etiraf etmək, hətta onun haqqında açıq danışmaq, onun hallarını qeyd etmək sorğuya cəlb olunanların əksəriyyəti üçün çox çətin idi. Əslində, müəllim və tələbələrin cavabları bir-birinə bənzəyir, amma tələbə cavabları daha səmimidir. Bəzi hallarda eyni ali məktəbdən olan müəllim və tələbələrin rəyləri bir-birinə tamamilə zidd olub: tələbələr deyirdi ki, korrupsiya mövcuddur, müəllimlər isə bunu inkar edirdi. Müsahibə göstərir ki, özəl ali məktəblərdə korrupsiyaya münasibətin daha açıq bildirilməsinə meyl var. Bəzi cavabların göstərdiyi kimi, artıq özəl məktəblər qurulan zaman və onların sonrakı fəaliyyəti dövründə korrupsiyanın qarşısını almaq üçün müəyyən tədbirlər görülürdü. Belə təsəvvür yaranır ki, rəqabət mühitində özəl ali məktəblər korrupsiyanın qarşısı alınması məsələsində öz üzərinə daha aydın öhdəliklər götürüb.

## Ali məktəblərdə korrupsiya məfhumu

Anket sorğusunun nəticələrinə əsaslanaraq belə bir qərara gəlmək olar ki, müəllimlərin fikrincə, korrupsiya ali məktəblərin bu gün qarşılaşdığı ən ciddi problemlər sırasında deyil. Hesab edilir ki, başqa ali məktəblərdə (cavabların 27 faizi) korrupsiyanın səviyyəsi öz ali məktəbindəkindən (cavabların 19 faizi) bir qədər yüksəkdir. Kəmiyyət tədqiqatlarının ali məktəblər üçün müəyyən etdiyi korrupsiya səviyyəsi göstəricisini nəzərə alaraq demək olar ki, akademik ictimaiyyətin bir hissəsi bu bədxassəli halın təsirini tam qiymətləndirə bilmir. Belə münasibətin səbəblərindən biri də onunla bağlı ola bilər ki, respondentlərin gözündə korrupsiya çox vaxt bilavasitə rüşvətxorluğa qədər sadələşdirilir. Amma öz çap əsərlərinin tələbələr arasında satışı, vergilərdən boyun qaçırma və ya biliklərin qiymətləndirilməsindən əvvəl tələbənin müəllimə tez-tez gətirdiyi xırda hədiyyələr çoxlarının rəyinə görə heç korrupsiya halları deyildir.

Müsahibələr göstərir ki, həm müəllimlərin, həm də tələbələrin bir qisminin korrupsiya haqqında anlayışı çox ümumi və qeyri-müəyyəndir. Xırda hədiyyələr (o cümlədən kiçik məbləğdə pul), iş yoldaşlarının qohumlarına güzəşt, tələbələrin təşəbbüsü ilə verilən hədiyyələr çox vaxt, ilk növbədə dövlət ali məktəblərində, insani münasibətlərin bir hissəsi kimi dərk edilir. Respondentlərdən biri belə demişdir: *"İmtahan qabağı müəllimə verilən ətir və ya 50 lit korrupsiyamı sayılır? Bunun nəyi korrupsiyadır, gülməlidir."* Belə misallardan çox gətirmək olar:

- *Mənim fikrimcə, korrupsiya - külli miqdarda pul axınıdır, onunla aparılan fırıldaqlardır. Hədiyyələr və tapşırıqlar isə insan köməyi kimi izah edilə bilər.*

- *Hədiyyələrin verilməsinə təhrik etmək və ya açıq tələb etmək - korrupsiyadır,*

*amma tələbələr özləri öz təşəbbüsü ilə bunu verirlərsə - yox.*

- *Hədiyyələr korrupsiya deyil.*

- *Hədiyyənin qiymətindən asılıdır.*

- *Korrupsiya və rüşvətxorluq - bilmirəm, bunlar bir şeydir, yoxsa yox. Mənim üçün korrupsiya məmur tərəfindən rüşvətdən asılı olan bir qərarın qəbul edilməsi ilə bağlıdır. Müəllimlərin belə imkanları yoxdur.*

- *Hər hansı dövlət idarəsindən hər hansı arayış almaq üçün mən pul verməliyəm. Təkrar imtahanın qəbul edilməsinə görə isə mənə maaş verilmir. Onda nə üçün tələbələrin pay verdiyi bir qutu konfet korrupsiya kimi qiymətləndirilməlidir?*

- *Mən anladığım şəkildə korrupsiya ali məktəblərdə mövcud deyil. Ola bilsin ki, şefimin kimə isə daha yüksək qiymət yazmaq xahişini də korrupsiya adlandırmaq olar. Onda korrupsiya mənə yox, şefə aiddir.*

Yuxarıdakı fikirləri ifadə edən respondent müəllimlər ali məktəblərdə korrupsiyanın yayılması subyektləri kimi qiymətləndirilib. Lakin oxşayır ki, (ilk növbədə qeyri-hökumət) ali məktəb rəhbərliyi belə işçilərin məsuliyyətini prinsipial şəkildə qiymətləndirilməsinə hələ hazır deyil. Digər tərəfdən, cavabların təqribən yarısı ikinci qrup müəllimlərin korrupsiyanı qəti, qeyd-şərtsiz anlamağını sübut edir: buraya bütün hədiyyələr, sifarişçilik münasibətləri, tələbələrə hədə-qorxu gəlmə, çap əsərlərinin yayılması, himayəçilik, imtiyazlar daxildir. Bir neçə misal:

- *Hər bir hədiyyəni mən müəllimə təsir göstərmək cəhdi kimi qiymətləndirirəm. Müəllim tələbələrə təzyiq göstərirsə ki, onun çap işlərini alsınlar, mən bunu da korrupsiya hesab edirəm. Müəllimlər şəxsi faydalanma məqsədilə tanışlıq axtarmağa çalışa bilərlər - mən bunu da korrupsiya hesab edirəm.*

- *Müəllimi hədiyyə, pul, pul çekləri ilə, imtiyaz, xidmət, tədbirlərə dəvət təklif etməklə ələ almaq cəhdi. Tələbələr özləri bir tədbirdə iştirak edirlərsə - bu, əlbəttə, korrupsiya deyil, amma tədbir məhz müəllimlər üçün təşkil edilibsə, bu artıq şübhə doğurur. Ələlxüsus qonaqlıq imtahandan qabaq komissiya üçün təşkil edilirsə.*

- *Qabaqcadan verilən hədiyyələr, pul, çap işlərinin təkidlə alınmasını təklif edərək paylanması, tanışlıq əlaqələri, kurs və diplom işlərinin alınıb-satılması.*

- *İmtahanqabağı hədiyyələri mən korrupsiya kimi qiymətləndirirəm.*

• *İmtahan vaxtı "kəsərək" demək ki, imtahanı vermək üçün başqa yol da var. Tələbənin sərbəst və müstəqil düşünməyinə müəllimin dözülməzliyi. Bəzi müəllimlər tələbələri müəyyən çərçivədə saxlayırlar: tələbə müəllim biləni təkrar etməlidir - nə az, nə çox. Mən burada korrupsiyanın yaranma mexanizmini görürəm.*

• *Şəxsi faydalanma məqsədilə tanışlıq axtarılmasını korrupsiyaya aid etmək olardı. İmtiyazların tətbiq edilməsi şəxsi əlaqələr və ya hisslərlə müəyyən edilir.*

• *Qohumlar və tanışlarla əlaqələrə görə qəbul vaxtı və ali məktəbdə oxuyan zaman onlara kömək etmək.*

• *Kiminsə qohumu ya tanışı olan şəxslərə himayəçilik.*

Müəllimlərin fikirləri kimi, tələbələrin fikirləri də fərqli oldu. Tələbələr arasında da nisbət mövqeyi gözə çarpır: bəziləri üçün korrupsiya problem təşkil etmir və ya onun hüdudları aydın deyil, digərlərinin mövqeyi isə prinsipialdır və həmin mövqedə dayanan müəllimlərin fikri ilə uzlaşır. Buna görə demək olar ki, ümumi götürdükdə, ali məktəblərdə iki rəy qrupu yaranıb.

Respondentlərin anket suallarına verdikləri cavablardan görünür ki, korrupsiyanın səbəbləri strukturu daxilində onlar çox vaxt bu hala görə məsuliyyəti tələbələrin üzərinə qoyur: onlar özləri günahkar imiş, ona görə ki, asan yolla müsbət qiymət almaq istəyirlər (65 faiz). Bunu ikinci ən çox verilmiş cavab da təsdiq edir: verən olmasaydı, alan da olmazdı (44 faiz). Belə fikir etik relativizm, əxlaqi yetkinlik kasadlığının (bəlkə də əxlaqsızlığın) aydın təzahürü kimi qiymətləndirilməlidir: axı ali məktəbdə birgə yaşayışın formal və qeyri-formal qaydalarını yaradan və buna görə ən böyük məsuliyyət daşıyan məhz müəllimlər və rəhbərlikdir. Müsahibənin nəticələri göstərir ki, müəllimlər korrupsiyanın vasitəçiləri, təşəbbüskarları və təşkilatçıları kimi əksər hallarda tələbələri, bunlar isə, öz növbəsində, müəllimləri görürlər. Respondentlərin hər iki qrupunda elələri var idi ki, qarşılıqlı təşəbbüsü qeyd ediblər. Keyfiyyət amilləri (respondentlərin intonasiyası, vurğuladıqları məqamlar və dediklərinə qəti inamları) deməyə imkan verir ki, bəzi ali məktəblərdə korrupsiyanın dəqiq qaydaları mövcuddur: hər iki tərəfin razı qalması üçün kimi, nə vaxt və necə razı salmaq lazımdır. Respondentlərin qeyd etdikləri bəzi üsullar (məsələn, masanın üstündə qoyulan zərflər, açıq şəkildə verilən hədiyyələr və s.) ali məktəblərin bir hissəsində korrupsiyaya yol verilməsindən xəbər verir. Bu, olduqca acınacaqlı vəziyyətdir: birincisi, "razı salmaq" imkanı olmayan tələbələr əziyyət çəkir, ikincisi, korrupsiya bir növ başa düşülən, təbii bir hala çevrilir. Beləliklə, korrupsiya əvvəl nisbilik dərəcəsinə yüksəldilir, sonra isə ona bəraət qazandırılır: bir tələbənin təbirincə, *"mühazirələrə həmişə getmək olmur… buna görə mən bir-iki dəfə müəllimlərə qulluq göstərmişəm… bununla belə, təkrar edirəm, bu, korrupsiya deyil, bu, insanlar arasında qarşılıqlı münasibətdir."*

Müsahibənin gedişində müəllimlər korrupsiyanın səbəblərini daha çox ali məktəblərin və müəllimlərin maliyyə çətinlikləri ilə, bəzi işçilərin o qədər də düzgün ol-

mamağı ilə, müsabiqələrin şişirdilməsi və tələbələrin dəbdə olan ixtisas almaq əsassız niyyətləri ilə, sovet vaxtından kök salmış "razı salmaq" ənənəsi ilə əlaqələndirir; tələbələr isə müəllimlərin ağır maliyyə vəziyyətindən irəli gələn ciblərini doldurmaq niyyətini, habelə ali məktəbdə oxumaq qaydalarının qeyri-şəffaf olmasını vurğulayırdılar. Bunlardan sayca bir az böyük respondent qrupu hesab edir ki, onların ali məktəblərində korrupsiya o qədər də ciddi problem deyil. Lakin belə qiymətləndirilmədə müəyyən məqsəd görmək olar, ona görə ki, burada ali məktəbin başqa bölmələrində və ya ümumiyyətlə Litvada korrupsiyanın ehtimal edilən səviyyəsi ilə müqayisə edilir və beləliklə müzakirə edilən problemin əhəmiyyəti aşağı salınır. Korrupsiyanın vurduğu ən əsas ziyanı respondentlər ali məktəbin imicinin aşağı düşməsi, ali məktəbdə oxumağa saxta münasibətin formalaşması, burada hazırlanan mütəxəssislərin bilik səviyyəsinin aşağı düşməsi ilə əlaqələndirirlər.

**Korrupsiyaya qarşı preventiv tədbirlərin istiqamətləri**

Anket suallarına cavab verən respondentlər korrupsiyaya qarşı preventiv tədbirlər arasında ilk növbədə korrupsiyanın hüquqi təqibetmə tədbirləri, inzibati nəzarətin sərtləndirilməsi, korrupsiya əleyhinə maarifləndirmə, müəllimlərin sosial təminatının genişləndirilməsi, təhsil prosesinin təkmilləşdirilməsini qeyd edirdilər. Müsahibə nəticələri də faktiki olaraq həmin məsələləri vurğulayır: inzibati sanksiyaların və nəzarətin sərtləndirilməsi, aşkarlığın təbliğ edilməsi, müəllimlər öz iş yerlərini qiymətləndirsin deyə onların sosial təminatının genişləndirilməsi. Problem yaradan faktlardan biri də ondadır ki, respondentlərin bir hissəsi korrupsiyanın qarşısı alınmasına ehtiyac duymur.

Ümumiyyətlə tədqiqat nəticələri əvvəllər aparılmış kəmiyyət tədqiqatları nəticələrini təsdiq edərək korrupsiyanın müxtəlif istiqamətlərdə genişlənməsini göstərir, akademik ictimaiyyəti üzvlərinin bir qismində (əsasən dövlət ali məktəblərində) korrupsiya anlamının nisbiliyindən və ona bəraət qazandırmalarından xəbər verir ki, bu da korrupsiyanın qarşısı alınmasını çətinləşdirir, ona görə ki, korrupsiyanın hansı təzahürləri ilə mübarizə aparmaq lazım olduğu aydın olmur. Son tendensiyanın müzakirəsi zamanı ali məktəblərdə artıq aparılmış diskussiyaların inkişaf etdirilməsi məqsədəuyğun ola bilər. Təhsil orqanları olan ali məktəblər sosial baxımdan dağıdıcı deviasiya davranışı deyil, əksinə, digər funksiyalarla bərabər orada oxuyanların əxlaqi dəyərlərini bərkitməli, müəyyən sosial səriştələrini inkişaf etdirməlidirlər. Ali məktəblərdə korrupsiyaya lazımi qədər diqqət yetirilməsə, gələcəkdə dövlətin savadlı, etik baxımdan "təmiz" mütəxəssislərin əldə etməsi çətin olacaq.

# KORRUPSİYAYA QARŞİ TƏRBİYƏNİN TƏDRİS PROQRAMLARINA İNTEQRASİYASİ

TADAS TAMOŞÜNAS

# KORRUPSİYA DEVİASİYA FORMASİ KİMİ

## Sosial təşkilat kursu modulu

Sosial təşkilat kursu sosial nizam və nizamsızlığın öyrənilməsi ilə məşğuldur. Bu cəhətlərin köməyi ilə sosial institutların, sosial agentlərin, sosial strukturun, sosial davranışın halları və problemləri təhlil olunur. Bu kursda korrupsiya nizamsızlıq yaradan amil, deviasiya (yolverilməz davranış) forması kimi təqdim olunur. O artıq sosial təşkilat kursunda öyrənilmiş məfhum əsasında təhlil edilir. Mövzu sosial elmlər (ilk növbədə sosiologiya və politologiya) tələbələri üçün nəzərdə tutulub. Auditoriya işinə 6 saat, müstəqil işə - 8 saat vaxt ayrılır. Hesabat forması – yoxlama işidir.

## İNTEQRASİYA EDİLMİŞ DƏRSİN MƏQSƏDİ

1. Tələbələri korrupsiya məfhumu və sosial həyatın müxtəlif sahələrində onun təzahürü ilə tanış etmək, ona deviasiya təhlili kontekstində nəzər salmaq.
2. Korrupsiya təzahürlərini tanımaq bacarığı aşılamaq və korrupsiya əleyhinə davranışı gücləndirmək.

## KURSUN STRUKTURU

**MÖVZU 1.** “Korrupsiya məfhumu”

Korrupsiya tərifləri. Korrupsiya növləri. Korrupsiya amilləri: beynəlxalq iqtisadi qloballaşma, özəlləşdirmə, dövlət tədarükü, dəyərlərin nisbiliyi, siyasi partiyaların və kampaniyaların maliyyələşdirilməsində şəffaflığın azlığı, nepotizm ənənəsi və s. Korrupsiya anlamının nisbiliyi. Funksiya (“lehinə” dəlillər) və disfunksiya (“əleyhinə” dəlillər) cəhətləri baxımından korrupsiyanın, habelə deviasiya tərkib hissələrinin (davranış, normalar, qiymətləndirən şəxs) qiymətləndirilməsi.

**MÖVZU 2.** “Korrupsiyanın ölçülməsi metodikası və Litvada işin vəziyyəti”

Sosioloji tədqiqatlar nəticələri və son illər ərzində onların dəyişilməsi. Cəmiyyətin korrupsiyaya münasibətində ziddiyyət və qeyri-müəyyənlik. Beynəlxalq təşkilatların Litvada korrupsiyaya münasibəti. Ölkədə korrupsiyanın əsas nəticələri: sərmayə səmərəliliyinin aşağı düşməsi, rəqabətin məhdudlaşması, yığılan vergilərin azalması, dövlət orqanlarına etimadın itməsi və s.

**MÖVZU 3.** “Korrupsiyanın qarşısı alınması”

Korrupsiyanın qarşısı alınmasının hüquqi əsasları. Korrupsiyanın qarşısı alınması ilə məşğul olan əsas təşkilatlar. Korrupsiyanın qarşısı alınmasının kompleks xarakteri. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ölkələri və Litvada korrupsiya əleyhinə təşəbbüslər. Vətəndaş cəmiyyətinin əhəmiyyəti. Kütləvi informasiya vasitələri korrup-

siyanın qarşısı alınması amili kimi. Korrupsiya əleyhinə təhsilin təcrübəsi və əhəmiyyəti.

Ədəbiyyat

---

## ƏLAVƏ. "Korrupsiyanın funksiyaları və disfunksiyaları" interaktiv dərs

Deviasiya formalarının təhlili prosesində çox vaxt bunların funksiyaları və disfunksiyaları müzakirə edilir, bu zaman birincilər sosial həyat baxımından müsbət təsir kimi, ikincilər isə - mənfi təsir kimi başa düşülür. Funksiya və disfunksiyaların müzakirəsi həm də korrupsiya fenomeninin öyrənilməsi zamanı faydalı olur, çünki onu daha yaxşı dərk etməyə, köhnə stereotiplərin, ələlxüsus ictimai həyatda, daha tənqidi qiymətləndirilməsinə kömək edir. Bu canlı dərs modulun birinci mövzusu üçün yarayır. Onun davamı – 45 dəqiqədir.

**Dərsin gedişi**

1. Korrupsiyanın mümkün funksiyaları və disfunksiyaları haqqında diskussiya elan edilir. Tələbələr bir neçə qrupa bölünür və bunların hər biri özü üçün diskussiya aparan sədr və fikirləri qeyd edən katib seçir. Qrupların sayı haqqında qərarı tələbələrin ümumi sayına görə müəllim qəbul edir (hər qrup – 4-6 nəfər). Vacibdir ki, qrupların sayı cüt olsun. Qruplara iri vərəqlər paylanır və tapşırıq verilir. Qrupların bir hissəsi korrupsiya funksiyalarının, o biri hissə onun disfunksiyalarının adını çəkir və bunları kağızda qısa tezis şəklində qeyd edirlər. Tezislər arasında qeydlər üçün yer saxlanır.
2. Qruplar 15 dəqiqə ərzində dəlilləri müzakirə edir və vərəqlərdə korrupsiyanın funksiyaları və disfunksiyalarını qeyd edirlər. Sonra qrup nümayəndələri hamını öz tezisləri və onları təsdiq edən dəlillərlə tanış edirlər. Müəllimin xahişi ilə digər qruplar eşitdikləri çıxışlara şərh vermirlər.
3. Çıxışlar bitəndən sonra müəllim korrupsiyanın disfunksiyalarını təqdim edən qrupların qeydlərini korrupsiyanın funksiyalarını təqdim edən qruplara ötürür, onların qeydlərini isə birincilərə verir. Növbəti tapşırıq: əks dəlillər tapıb onları vərəqlərdəki tezislərin altında yazmaq. İşin davamı - 15 dəqiqə.
4. Əks dəlillər növbə ilə təqdim edilir, bu dəfə bütün iştirakçılar diskussiyada iştirak edirlər. İşin bu mərhələsində korrupsiyanın nəticələrini, onun həmişə gözə görünməyən təsirini göstərmək və modelləşdirmək məsləhətdir. Məsələn, dəlil (funksiya) gətirilə bilər ki, korrupsiya bizneslə bağlı şəxsi işləri daha tez həll etməyə kömək edir. Bu halda, məsələn, bunun biznes xərclərini nə qədər artırması haqqında və s. sual verərək belə davranışın dolayı təsirini və onun sonrakı nəticələrini müzakirə etmək məqsədəuyğun olardı. Diskussiyanın səmərəliliyi müəllimin hazırlığından asılıdır, çünki korrupsiya lehinə və əleyhinə dəlillərin əksəriyyətini qabaqcadan təsəvvür etmək olar.

GİNTARE ŞATENE

# KORRUPSİYA VƏ HÜQUQ

## Hüquq əsasları kursu modulu[1]

"İctimai idarəetmə", "Biznes idarəetmə" və "İqtisad" ixtisasları üzrə bakalavr-tələbələr üçün kurs.

### FƏNNİN MƏQSƏDİ

1. Dövlət nəzəriyyəsinin əsas məqamları ilə tanış etmək.
2. Hüquq elmləri sistemini aydınlaşdırmaq.
3. Dövlət idarəçiliyi orqanları fəaliyyəti xüsusiyyətlərini və sistemini nəzərdən keçirmək.*
4. Hüququn müxtəlif sahələri ilə tanış olmaq və onların xüsusiyyətlərini müəyyən etmək.*
5. Vətəndaşlıq yetkinliyi, məsuliyyət hissi, şəxsi və ictimai mənafeləri uzlaşdırmaq bacarığını aşılamaq.*

Yuxarıda 3-5 maddələrdə müəyyən edilən məqsədlər korrupsiyanı dövlət idarəçiliyi və dövlət xidməti problemi kimi, onun yaranma səbəbləri və dövlətin korrupsiya əleyhinə apardığı siyasəti əks etdirir.

Dövlət idarəçiliyi və dövlət xidməti sahəsində korrupsiyanı təhlil edərkən aşağıdakı məsələlərə əlavə yer ayırmaq məsləhətdir:

1. Dövlət xidmətində korrupsiya anlayışı və problemi.
2. Litvada korrupsiyanın yayılması (səviyyəsi və miqyası).
3. Korrupsiyanın səbəbləri və nəticələri.
4. Dövlət xidmətinə qarşı cinayətlər və hüquq pozuntuları və bunların xüsusiyyətləri.
5. Dövlət xidmətinə qarşı cinayətlər və hüquq pozuntuları ilə bağlı işlərin cinayət hüququ baxımından təhlili və qiymətləndirilməsi.
6. Dövlət tərəfindən korrupsiyaya qarşı preventiv tədbirlər və bu tədbirləri tənzimləyən hüquqi aktlar.

### ƏDƏBİYYAT

1. Budbergyte R., Sakocius A., Zilinskas D., *Lietuvos Respublikos valstybes tarnybos istatymo komentaras.* Vilnius: Lietuvos viesojo administravimo institutas, 2004.
2. "Lietuvos Respublikos korupcijos prevencijos istatymas", *Zin.*, 2002, Nr. 57-2297.

[1] Ulduz işarəsi ilə qeyd edilmiş mövzular bu modulun proqramına korrupsiya əleyhinə tədrisin inteqrasiya olunması nəticəsində onda yaranmış dəyişiklikləri göstərir.

3. "Lietuvos Respublikos specialiuju „„„…„„y„}u tarnybos istatymas", *Zin.*, 2003, Nr. 38-1657.
4. Lietuvos Respublikos valstybes tarnybos jstatymas", *Zin.*, 2002, Nr. 45-1708.
5. Pivoriunas A., "Nusikaltimai valstybes tarnybai ir korupcija - problemos ir ju sprendimo budai", *Justitia,* 1997, Nr. 6.

## 1. AUDİTORİYA DƏRSLƏRİ

1.1. Hüquq elmləri sistemi. Konstitusiya hüququ anlayışı və normaları. Dövlət və hüququn mənşəyi və əlamətləri.*
1.2. Hüquqi münasibətlərin dövlət hüquqi aktları ilə tənzimlənməsi. Dövlət idarəçiliyi orqanlarının sistemi və fəaliyyət xüsusiyyətləri. Dövlət xidmətini idarə edən subyektlər və onların səlahiyyətləri.*
1.3. İnzibati hüquq dövlət idarəçiliyi ilə məşğul olan hüquq sahəsi kimi. Normativ aktlar inzibati hüquq mənbələri kimi. İnzibati məsuliyyətin xüsusiyyətləri, onun subyektləri və əsasları. İnzibati qanunvericilik ictimai idarəetmənin əsası kimi.*
1.4. İnzibati cəza növləri, onların məqsədi və tətbiqi.
1.5. Cinayət hüququ anlayışı və sistemi. Cinayət qanunvericiliyinin məqsədi və tətbiqi.*
1.6. Cinayət məsuliyyəti anlayışı və onun məqsədi. Cəzanın məqsədi. Cinayət məsuliyyətindən azad edilmə.*
1.7. Prosessual məcburiyyət tədbirləri. Məhkəməyə qədər təhqiqat. Birinci instansiya məhkəmələrində işə baxılma.
1.8. Əmək hüququ mənbələri və subyektləri. Məşğulluq. Əmək müqaviləsi anlayışı, onun tərkibi və sona çatması. Əmək müqaviləsi şərtlərinin dəyişdirilməsi və ona xitam verilmə.
1.9. Əmək və istirahət vaxtı. Maaş. Əmək haqqı sistemi və növləri. Təminat və ödəmələr. Əmək intizamı. Maddi məsuliyyət. Əmək təhlükəsizliyi.
1.10. İşçinin səhhətinə vurulmuş ziyana görə işə götürənin məsuliyyəti. İş yerində bədbəxt hadisələr zamanı dəymiş zərərə görə ödəmələr.
1.11. Mülki hüquq sistemi və onun tətbiqi.
1.12. Ailə hüququ anlayışı. Nikaha daxil olma. Nikahın etibarsız elan edilməsi.
1.13. Ər və arvadın hüquq və öhdəlikləri. Nikahın sona çatması.
1.14. Övlad və valideynlərin hüquq və öhdəlikləri. Övladlığa götürmə. Qəyyumluq. Uşağın qəyyumu və atalıq/analığının hüquqi vəziyyəti.
1.15. Müəssisə anlayışı. Müəssisə hüquq subyekti kimi. Müəssisənin təsisedilmə qaydasının tənzimlənməsi.
1.16. Müəssisələrin yenidən təşkil və ləğv edilməsi.
1.17. Beynəlxalq şəxsi hüquq. Vəzifələr, tətbiq.
1.18. Fiziki və hüquqi şəxslər. Nümayəndəlik.
1.19. Mülkiyyət hüququnun əldə edilməsi və itirilməsi.
1.20. Vərəsəlik hüququ anlayışı, varislər, vərəsəlik formaları.
1.21. Mükəlləfiyyət anlayışı və onun yaranması əsasları.

1.22. Mükəlləfiyyət növləri, zaminlik, ziyanların ödənilməsi. Müqavilələrin etibarlılığı və formaları.

**2. PRAKTİKİ MƏŞĞƏLƏLƏR**

2.1. Konstitusiya hüququ və konstitusiya hüququnun sosial məqsədi.*
2.2. İnzibati hüququn mənbələri və vəzifələri, inzibati-prosessual münasibətlərin xüsusiyyətləri və tərkib hissələri.*
2.3. Cinayət hüququnun məqsədi və təbliği.
2.4. Əmək hüququ prinsipləri. Kollektiv əmək münasibətləri.
2.5. Əmək haqqı və əməyin keyfiyyəti.
2.6. Mülki hüququn strukturu və məqsədi.
2.7. Beynəlxalq mülki münasibətlərin tənzimlənməsi.
2.8. Mükəlləfiyyətlərin hüquqi prinsipləri.

**HÜQUQİ AKTLAR**

1. Avropa Sosial Xartiyası (qeyri-rəsmi tərcümə)
2. İnsan Hüquqları və Əsas Azadlıqları Müdafiəsi haqqında Avropa Konvensiyası
3. Litva Respublikası Qanunlarının İnzibati Pozuntuları Məcəlləsi
4. Litva Respublikası Cinayət Məcəlləsi
5. Litva Respublikası Mülki Məcəlləsi
6. Litva Respublikası Əmək Məcəlləsi
7. Litva Respublikası Konstitusiyası
8. Litva Respublikası Konstitusiyasının 119-cu Maddəsinə Düzəlişlərin Edilməsi haqqında Qanun
9. Litva Respublikası Konstitusiyasının 47-ci Maddəsinə Əlavələrin Edilməsi haqqında Qanun
10. Korrupsiyanın Qarşısı Alınması haqqında Litva Respublikası Qanunu
11. Xüsusi Təhqiqat Xidməti haqqında Litva Respublikası Qanunu
12. Dövlət Xidməti haqqında Litva Respublikası Qanunu

**ƏDƏBİYYAT**

---

## Praktiki məşğələ 1.

Korrupsiyaya qarşı təhsilin inteqrasiya edilməsindən sonra modulda edilmiş dəyişiklikləri nəzərə alaraq "Hüquq əsasları" fənni üzrə *"Cinayət hüququ anlayışı və sistemi. Cinayət qanunvericiliyinin məqsədi və tətbiqi"* mühazirəsi üçün nəzərdə tutulmuş situasiyaların təhlili.*

Hadisələrin təsvirini oxuyun və burada göstərilən cinayət əməllərinin insanın hansı hüquqları (məsələn, mülkiyyət, sağlamlıq, həyat, ədalət və s. hüquqları), azadlıqları və ya qanuni maraqlarını pozduğunu yazın.

**SİTUASİYA 1.** Kənd sakini, dörd uşaq anası vətəndaş A. öz uşağını öldürməkdə günahlandırılır. Vətəndaş A. ətrafdakılardan öz hamiləliyini gizlədir, doğum ağrıları başlayanda meşəyə gedib, uşaq doğulanda onu boğaraq öldürüb. Öz əməlini beşinci uşağa baxmağa maddi imkanı olmamağı ilə izah etdi. Onun bu hərəkətini əri də dəstəklədi. Bundan başqa, o, arvadına meşəyə getməyə kömək edib, cinayət törədəndə yanında olub. Körpənin öldürülməsində şəxsən iştirak etməsə də, cəsədini basdırmaqda arvadına kömək edib. Uşaq hüquqları müdafiəsi xidmətindən arayış verilib ki, bu ailənin həyat tərzi cəmiyyətə ziddir, hər ikisi daima sərxoşluq edir, uşaqların qeydinə qalmırlar.

Göstərilən cinayət əməli insanın aşağıdakı hüquq və azadlıqlarını pozur:

……………………………………………………………………………………

…………………………………………………………………………………

**SİTUASİYA 2.** Ukraynadan Litvaya qeyri-leqal yolla gəlmiş iki fahişənin harada qalmaqları haqqında xəbər tutan iki polis işçisi onların evinə gəlib kimliyini təsdiq edən sənədləri tələb ediblər. Qızların Litvada qanuni qaydada yaşamağa imkan verən sənədləri olmadığı üçün polis işçiləri onlardan bir min lit pul istədilər ki, onları deportasiya etməsinlər. Qızlar onlarda bu qədər pulun olmadığını bildirdi, lakin polis işçiləri ilə pulsuz cinsi əlaqəyə girməyə razılıq verdilər. Sonralar bu faktla əlaqədar istintaq işi açılanda məlum oldu ki, polis işçiləri qızların xidmətindən bir neçə ay ərzində istifadə ediblər.

Göstərilən cinayət əməli insanın aşağıdakı hüquq və azadlıqlarını pozur:

……………………………………………………………………………………

……………………………………………………………………………………

**SİTUASİYA 3.** Ad günü qeyd edilən zaman təsadüfən bir adam yaralanıb. İstintaq zamanı müəyyən edilib ki, sərxoş halda olan polis nəfəri B. qonaqlar qarşısında yeni xidməti tapançası ilə lovğalanaraq, onu xanım C-yə baxmağa verdi. O, tapançaya baxaraq təsadüfən tətiyi çəkdi. Güllə açıldı və yaxınlıqdakı bir kişiyə dəydi. Qız deyir ki, əvvəllər silah görməyib, onun dolu olmağından xəbərsiz idi və nə baş verdiyini heç başa düşmədi.

Göstərilən cinayət əməli insanın aşağıdakı hüquq və azadlıqlarını pozur:

……………………………………………………………………………………

……………………………………………………………………………………

---

## Praktiki məşğələ 2.

Korrupsiyaya qarşı təhsilin inteqrasiya edilməsindən sonra modulda edilmiş dəyişiklikləri nəzərə alaraq "Hüquq əsasları" fənni üzrə *"Cinayət hüququ anlayışı və sistemi. Cinayət qanunvericiliyinin məqsədi və tətbiqi"* mühazirəsi üçün nəzərdə tutulmuş situasiyaların təhlili.

Sizin fikrinizcə, aşağıda təsvir edilmiş və hüquq normalarına zidd olan situasiyalar korrupsion hesab edilməlidirmi?

| Situasiyanın təsviri | Bu, korrupsiya hesab edilməlidirmi? (hə/yox) |
|---|---|
| 1. Hökumət vəzifəli şəxsi və ya dövlət xidmətində olan şəxs tərəfindən tutduğu vəzifəsinə müvafiq olaraq hərəkət etməsi və ya etməməsi müqabilində bilavasitə və ya dolayı yolla pul dəyəri olan hər hansı əşyanı, yaxud özü və ya başqa şəxs və ya qanuna uyğun qaydada təsis olunmuş subyekt üçün hədiyyə, qulluq, vəd, imtiyaz şəklində xeyir *vermək tələbi və ya qəbul edilməsi.* | |
| 2. Hökumət vəzifəli şəxsi və ya dövlət xidmətində olan şəxsə tutduğu vəzifəsinə müvafiq olaraq hərəkət etməsi və ya etməməsi müqabilində bilavasitə və ya dolayı yolla pul dəyəri olan hər hansı əşyanın, yaxud özü və ya başqa şəxs və ya qanuna uyğun qaydada təsis olunmuş subyekt üçün hədiyyə, qulluq, vəd, imtiyaz şəklində xeyrin *təklif edilməsi və ya verilməsi.* | |
| 3. Hökumət vəzifəli şəxsi və ya dövlət xidmətində olan şəxsin özü və ya üçüncü tərəf üçün xeyir almaq məqsədilə vəzifəsinə müvafiq hərəkət etməsi və ya etməməsi. | |
| 4. Hökumət vəzifəli şəxsi və ya dövlət xidmətində olan şəxsin qanunu pozaraq özü və ya üçüncü tərəf üçün xeyir almaq məqsədilə vəzifəsinə müvafiq hərəkət etməsi və ya etməməsi. | |
| 5. 1,2,3 hallarda təsvir edilən qanunsuz əməl nəticəsində əldə edilmiş əmlakdan gizli istifadə və ya belə əmlakı gizlətmə. | |
| 6. Korrupsiya əməlində əsas iştirakçı, şərik, təhrikçi, icraçı və ya köməkçi şəklində və ya hər hansı başqa şəkildə iştirak, iştirak etmək niyyəti, əməkdaşlıq və ya bu əməlin ört-basdır edilməsi. | |

Korrupsiyaya qarşı təhsilin inteqrasiya edilməsindən sonra modulda edilmiş dəyişiklikləri nəzərə alaraq "Hüquq əsasları" fənni üzrə "Cinayət hüququ anlayışı və sistemi. Cinayət qanunvericiliyinin məqsədi və tətbiqi" mühazirəsi nümunəsi.

*Cinayət hüququ* - elə hüquq normaları sistemidir ki, bunlar nizamlayıcı qaydaların səmərəliliyini təmin etmək məqsədilə:

1) dövlətin cinayət siyasəti prinsiplərini möhkəmləndirir;
2) nizamlayıcı qaydaların nəzərdə tutduğu qadağalarını pozan hansı əməllərin cinayət və ya cinayət məsuliyyəti daşıyan hüquq pozuntusu hesab edilməli olduğunu müəyyən edir;
3) təqsirkarların cinayət məsuliyyətinə cəlb edilməsi üçün əsas və şərtləri müəyyən edir;
4) sanksiyaların növlərini, təqsirin formalarını və s. müəyyən edir.

*Cinayət hüququ məqsədi* başqa hüquq sahələrinin müəyyən etdiyi qadağaları təmin etməkdir. Cinayət hüququnun əsas tənzimləmə üsulu - imperativdir (əmr şəklində) Cinayət hüququnun əsas *mənbəyi* - ümumi və xüsusi hissələrdən ibarət cinayət məcəlləsidir.

Cinayət məcəlləsinin ümumi hissəsində:

1) Ümumi nizamlayıcı qaydalar göstərilir;
2) Cinayət qanununun qüvvədə olması məsələləri müəyyən edilir;

3) Cinayət və cinayət məsuliyyəti daşıyan hüquq pozuntusu anlayışları açıqlanır;
4) Cinayət əməlinin mərhələləri və formaları müəyyən edilir və açıqlanır;
5) Cinayət məsuliyyətindən azad edən səbəblər sadalanır;
6) Cinayət məsuliyyətindən azadedilmə halları təsvir olunur;
7) Cəza anlayışı, habelə cəzalandırmanın məqsədi müəyyən edilir;
8) Cəza tədbirləri və bunların tətbiqedilmə məsələləri müzakirə edilir;
9) Cəza çəkmənin təxirə salınması və məsuliyyətdən azad edilmə qaydaları müəyyən edilir;
10) Yetkinlik yaşına çatmayanların cinayət məsuliyyəti xüsusiyyətləri təsvir edilir;
11) Cinayət məsuliyyətinə cəlbetmə müddəti tənzimlənir;
12) Məhkumluq məsələləri müzakirə edilir;
13) Məcburi tibbi tədbirlər və onların tətbiqedilmə xüsusiyyətləri müzakirə edilir.

Cinayət məcəlləsinin xüsusi hissəsinin maddələrində isə cinayət və ya cinayət məsuliyyəti daşıyan hüquq pozuntusu hesab edilən ayrı-ayrı cinayət əməlləri açıqlanır. Bu cinayət əməlləri qəsd obyektinə görə, yəni cinayət əməli nəticəsində hansı hüquqi sərvət və dəyərlərin pozulmasına görə qruplara bölünür.

Beləliklə, cinayət qanununun xüsusi hissəsi cinayət kimi qiymətləndirilmiş əməllərin sistemi və xüsusiyyətlərini müəyyən edən, habelə cinayət qanununun ümumi hissəsi prinsipləri və müddəalarına müvafiq olaraq müəyyən cinayət əməli törədən şəxsin məsuliyyətini və cəzasını müəyyən edən cinayət qanunu normalarından ibarətdir. Cinayət qanununun xüsusi hissəsi normaları cinayət qanunvericiliyinin məqsədlərini, tətbiqedilmə hüdudlarını, cinayət məsuliyyəti əsaslarını, cinayət törədilməsi formalarını müəyyən edir, cəza sistemini və cəzaların tətbiqedilmə qaydasını açıqlayır, habelə şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi və cəzalandırılması ilə əlaqədar digər ümumi məsələləri həll edir.

Qeyd etmək lazımdır ki, cinayət qanununun xüsusi hissəsi normaları müəyyən cinayət növlərinin müvafiq cinayət tərkibini səciyyələndirən spesifik xüsusiyyətlərini, habelə gerçəkdən törədilmiş cinayətə görə tətbiq edilə bilən sanksiyanı müəyyən edir.

Cinayət qanununun xüsusi hissəsi normaları ümumi hissə normalarından bir sıra spesifik xüsusiyyətləri ilə fərqlənir: adətən xüsusi hissə normaları cinayət və ya hüquq pozuntusu hesab edilən əməllərin bütöv siyahısını *(nullum crimen sine lege)* təqdim edir, buna görə bu və ya digər əməlin cinayət və ya cinayət məsuliyyəti daşıyan hüquq pozuntusu olması barədə qərarı yalnız xüsusi hissənin normalarını tətbiq etməklə müəyyən etmək olar.

Cinayət hüququnun müasir yazılı mənbələrində normalar adətən müdafiə edilən xeyrə əsasən, yəni cinayətin (cinayət məsuliyyəti daşıyan hüquq pozuntusunun) növ obyekti baxımından qruplaşdırılır. Lakin olur ki, normaların müəyyən qrupu bir fəsildə bir deyil, bir neçə növ obyekti əsasında qruplaşdırılır. Ənənəvi olaraq fəsillər daha təhlükəli cinayətlərdən başlayaraq nisbətən az təhlükəli cinayətlərə qədər ardıcıllıqla

düzülür. Lakin bu məsələləri müəyyən edərkən dərhal aksioloji problem meydana gəlir: cinayət hüququ tərəfindən müdafiə edilən xeyirlərdən hansı ən dəyərli, hansı isə o qədər də dəyərli olmayan kimi qiymətləndirilməlidir. Litva Respublikasının yeni Cinayət Məcəlləsində xüsusi hissə fəsilləri üçün aşağıdakı ardıcıllıq seçilib:

1. İnsanlığa qarşı cinayətlər və hərbi cinayətlər.
2. Litva dövlətinin müstəqilliyi, ərazi bütövlüyü və konstitusiya quruluşuna qarşı cinayətlər.
3. İnsan həyatına qarşı cinayətlər.
4. İnsan sağlamlığına qarşı cinayətlər.
5. İnsan həyatını və sağlamlığını təhlükədə qoyan cinayətlər.
6. İnsan azadlığına qarşı cinayətlər.
7. İnsanın seksual seçimi azadlığına və insan toxunulmazlığına qarşı cinayətlər.
8. İnsan ləyaqəti və şərəfinə qarşı cinayətlər və cinayət məsuliyyəti daşıyan hüquq pozuntuları.
9. Uşağa və ailəyə qarşı cinayətlər və cinayət məsuliyyəti daşıyan hüquq pozuntuları.
10. Şəxsi həyatın toxunulmazlığına qarşı cinayətlər.
11. İnsanın bərabər hüquqlarına və vicdan azadlığına qarşı cinayətlər.
12. Vətəndaşların seçki hüquqlarına qarşı və Litva Respublikası Prezidentinin, Seym və özünüidarələrin seçilməsi qaydalarına, habelə referendum keçirilməsi qaydalarına qarşı cinayətlər.
13. İnsanın sosial hüquqlarına qarşı cinayətlər və cinayət məsuliyyəti daşıyan hüquq pozuntuları.
14. Mülkiyyət, mülkiyyət hüququ və mülkiyyət mənafelərə qarşı cinayətlər və cinayət məsuliyyəti daşıyan hüquq pozuntuları.
15. İntellektual və sənaye mülkiyyətə qarşı cinayətlər.
16. İnformatikaya qarşı cinayətlər.
17. İqtisadiyyata və sahibkarlıq fəaliyyəti qaydalarına qarşı cinayətlər və cinayət məsuliyyəti daşıyan hüquq pozuntuları.
18. Maliyyə sisteminə qarşı cinayətlər və cinayət məsuliyyəti daşıyan hüquq pozuntuları.
19. Dövlət xidməti və ictimai mənafelərə qarşı cinayətlər və cinayət məsuliyyəti daşıyan hüquq pozuntuları.
20. Ədalətə qarşı cinayətlər və cinayət məsuliyyəti daşıyan hüquq pozuntuları.
21. İctimai təhlükəsizliyə qarşı cinayətlər.
22. Silah, hərbi sursat, partlayıcı və radioaktiv maddələr üzərində sərəncamla bağlı cinayətlər və cinayət məsuliyyəti daşıyan hüquq pozuntuları.
23. Narkotik, psixotrop, zəhərli və ya çox güclü maddələr üzərində sərəncamla bağlı cinayətlər və cinayət məsuliyyəti daşıyan hüquq pozuntuları.
24. Ətraf mühit və insanların sağlamlığına qarşı cinayətlər və cinayət məsuliyyəti daşıyan hüquq pozuntuları.
25. Nəqliyyat hərəkəti təhlükəsizliyinə qarşı cinayətlər və cinayət məsuliyyəti daşıyan hüquq pozuntuları.

26. İctimai qaydalara qarşı cinayətlər və cinayət məsuliyyəti daşıyan hüquq pozuntuları.
27. Dövlət qulluqçusu və ya dövlət idarəçiliyi funksiyalarını yerinə yetirən şəxsə qarşı cinayətlər.
28. İdarə üsuluna qarşı cinayətlər və cinayət məsuliyyəti daşıyan hüquq pozuntuları.
29. Sənədlərin və ya ölçü vasitələrinin saxtalaşdırılması ilə bağlı idarə üsuluna qarşı cinayətlər və cinayət məsuliyyəti daşıyan hüquq pozuntuları.
30. Mənəviyyata qarşı cinayətlər və cinayət məsuliyyəti daşıyan hüquq pozuntuları.
31. Mərhumun xatirəsinə qarşı cinayətlər və cinayət məsuliyyəti daşıyan hüquq pozuntuları.
32. Milli müdafiə xidmətinə qarşı cinayətlər və cinayət məsuliyyəti daşıyan hüquq pozuntuları.

Qeyd etmək lazımdır ki, hər qrupa aid olan cinayətlər və cinayət məsuliyyəti daşıyan hüquq pozuntuları təkcə müəyyən qanunlarla təsbit edilmiş hüquq normalarını deyil, həm də Litva Respublikası Konstitusiyasında təsbit edilmiş insan hüquqları, azadlıqları və qanuni maraqlarını pozur (məsələn, oğurluq etmiş, yəni Cinayət Məcəlləsinin "Mülkiyyət, mülkiyyət hüququ və mülkiyyət mənafelərə qarşı cinayətlər və cinayət məsuliyyəti daşıyan hüquq pozuntuları" adlı 14-cü fəsli ilə nəzərdə tutulmuş cinayəti törətmiş şəxs eyni zamanda digər şəxsin Konstitusiyanın 23-cü Maddəsi ilə təsbit edilmiş mülkiyyət toxunulmazlığı hüququnu da pozur) ki, Cinayət Məcəlləsində hüquq normalarını pozmuş şəxsə qarşı müvafiq təsir tədbirlərinin (sanksiyaların) tətbiq edilməsi nəzərdə tutulub. Buna görə belə nəticəyə gəlmək olar ki, qadağan edilmiş cinayət əməlləri siyahısını təsdiq etməklə Cinayət Məcəlləsi insan hüquqları, azadlıqları və qanuni mənafelərinin müdafiəçisi rolunu oynayır.

Təqdim edilmiş materiallar əsasında belə nəticəyə gəlmək olar ki, cinayət hüququ tərəfindən tənzimlənən obyekt *cinayət və cəzadır*. Litva Respublikasının yeni Cinayət Məcəlləsi cinayət əməllərinin bir forması kimi cinayətin formal tərifini verir: *"Cinayət – elə cinayət əməlidir ki, onun törədilməsinə görə qanunla azadlıqdan məhrum edilmə nəzərdə tutulub".*

Cinayətin əlamətlərinə daha yaxından nəzər salaq.

1. *Cinayət –hakim dəyərlər sistemi üçün təhlükə yaradan əməldir.* İnsan əməllərinin təhlükəliliyi cinayətinin birinci əlaməti, əməlin kriminallaşdırılması üçün ilkin şərt, qanunvericinin bələdçisidir. Təhlükəsiz əməllər kriminallaşdırıla bilməz. Əməlin təhlükəliliyi çox vaxt cinayətin maddi əlaməti olur, çünki bu, cinayət məğzinin göstəricisi olur, insan əməlinin nə üçün cinayət hesab edilməsini izah edir. "Təhlükəli" sözünü Litva Respublikasının Cinayət Məcəlləsi belə izah edir: "təhlükə yaradan, zərər vuran, nəyəsə qəsd edən və ya nəyisə pozan". Nəhayət, qəsdin nəyə qarşı yönəlməsi də - cinayətin nəyə - dövlətə, şəxsə və ya cəmiyyətə ziyan vurması da eyni dərəcədə vacibdir.

Bütün ictimai dəyərləri iki qrupa bölmək olar:

- bütün insanlar üçün ümumi olan dəyərlər – demokratik cəmiyyətdə bütün siyasi partiyalar bunları tanıyır və bunlara hörmət edir (insan həyatı, sağlamlıq,

azadlıq, ləyaqət, mülkiyyət, ictimai təhlükəsizlik). Bu dəyərlər bu və ya digər dərəcədə (heç olmasa qanunvericilikdə) totalitar dövlətlərdə də müdafiə olunur;

- ideoloji dəyərlər – adətən müxtəlif partiyaların bunlara münasibəti fərqli olur, çünki hər bir cəmiyyətin öz dəyərlər sistemi var.

Ümdə dəyərlər cinayət hüququ tərəfindən müdafiə edilir, buna görə demək olar ki, ümdə dəyərlərə qəsd edən ən təhlükəli əməllər cinayət hesab edilir.

Cinayətlərin təhlükəliliyi fərqlənir. Bu, iki ifadə ilə müəyyən edilir: təhlükənin xarakteri və təhlükənin dərəcəsi.




Təhlükənin xarakteri çox vaxt qəsd obyektinin dəyəri ilə müəyyən olunur. Belə ki, bədən xəsarəti oğurluqdan təhlükənin xarakteri ilə fərqlənir, çünki sağlamlıq mülkiyyətdən daha böyük dəyər olduğundan bədən xəsarəti daha təhlükəli cinayət hesab edilir.

Bununla belə, bir neçə oxşar və ya eyni təbiətli cinayət müəyyən cəhətlərin səviyyəsi ilə müəyyən edilən təhlükə dərəcəsi baxımından fərqlənir (ağır bədən xəsarəti yüngül xəsarətdən daha təhlükəlidir və s.)

2. *Əməlin cinayət hüququna zidd olması.* Yalnız elə təhlükəli əməl cinayət hesab edilir ki, o, qanunda kriminallaşdırılıb. Bu cəhət yalnız bizi maraqlandıran əməlin ümumiyyətlə hər hansı dəyərlər üçün təhlükə yaratmasını deyil, həm də arzu edilməyən davranışın əlamətlərini təsvir edən və belə əmələ görə cinayət məsuliyyəti nəzərdə tutan qanunun mövcud olmasını göstərir. Cinayət qanunvericiliyinin digər özünəməxsus cəhəti ondadır ki, burada iltizam deyil, qadağanedici normalar ifadə edilir. Bunlar cinayət qanunvericiliyində təsvir edilmiş əməlləri qadağan edir.

Cinayətin bircə əlaməti mövcud deyilsə, deməli, cinayət də yoxdur. Cinayət əlamətləri cinayət təqibinin başlanması üçün əsas təşkil edir.

1. Törədilən əməl hakim dəyərlər üçün təhlükəli hesab edilir, lakin cina-

yət məcəlləsinə zidd deyil.
2. Törədilən əməl cinayət məcəlləsinə ziddir, lakin hakim dəyərlər sistemi üçün təhlükəli deyil, ona zərər vurmur.

**Bəzi cinayət əməllərinin qısa xülasəsi**

İnsan həyatına və sağlamlığına qarşı (insan həyatını və sağlamlığını təhlükəyə salan) cinayətlər anlamı.

Cinayət hüququnun əsas vəzifələrindən biri insanın və onun ən vacib dəyərlərinin cinayət niyyətlərindən qorunmasıdır. Litva Respublikasının Konstitusiyasında göstərilir ki, insan həyatı qanunla qorunur, insan azadlığı və şəxsiyyəti toxunulmazdır, insan ləyaqəti qanunla qorunur. Bu müddəalar Litva Respublikasının Cinayət Məcəlləsi ilə də həyata keçirilir.

Obyektiv olaraq hər bir cinayət insanın mənafelərini pozur, lakin yalnız o cinayətlər qrupu insana (şəxsiyyətə) qarşı cinayət hesab edilir ki, bunların birbaşa (əlavə deyil) növ obyekti məhz təbiətin məxluqu olan insan, onun əsas, fitri keyfiyyətləridir. Əksər ölkələrin cinayət məcəllələri insana qarşı cinayətləri ən ağır cinayət sayırlar. İnsana qarşı cinayətlərin növ obyekti insanın özü, yəni bioloji məxluq, şəxsiyyətdir. Belə cinayətlərin birbaşa obyekti şəxsin həyatı, sağlamlığı, azadlığı və ya ləyaqəti ola bilər. Birbaşa obyekt baxımından insana qarşı cinayətlər aşağıdakı qaydada qruplaşdırılır:

1) şəxsin həyatına qarşı cinayətlər (qəsdən adam öldürmə, intihara təhrik etmə);
2) insan sağlamlığına qarşı cinayətlər (müxtəlif bədən xəsarətləri, qeyri-qanuni abort, həyatı üçün təhlükəli vəziyyətdə olan insana kömək etməmə);
3) insan azadlığına qarşı cinayətlər (uşağın oğurlanması və ya dəyişdirilməsi, qeyri-qanuni azadlıqdan məhrum edilməsi, girov götürülməsi);
4) cinsi cinayətlər (zorlama, qadının cinsi əlaqəyə girməyə məcbur edilməsi, pozğun hərəkətlər);
5) insan ləyaqəti və şərəfinə qarşı cinayətlər (böhtan, təhqir).

Dövlət xidməti və ictimai mənafelərə qarşı cinayətlər və cinayət məsuliyyəti daşıyan hüquq pozuntuları anlamı

Litva Respublikasının Cinayət Məcəlləsinin 19-cu fəsli dövlət xidməti və ictimai mənafelərə qarşı cinayətlər və cinayət məsuliyyəti daşıyan hüquq pozuntuları tərkibini təsdiq edir. Litva Respublikasının Konstitusiyasına görə Litvada dövlət hakimiyyəti Seym, Hökumət və məhkəmə tərəfindən həyata keçirilir. Hakimiyyət səlahiyyətləri Konstitusiya tərəfindən məhdudlaşdırılır. *Hakimiyyət orqanları insanlara xidmət edir. Dövlət qulluqçuları və vəzifəli şəxslər öz xidməti vəzifələrini layiqincə yerinə yetirməli, müəyyən edilmiş əmək və dövlət nizam-intizamına riayət etməlidirlər*. Beləliklə dövlət aparatının – insan hüquqları və azadlıqlarının müdafiəsi və həyata keçirilməsi təminatçısının əhəmiyyəti vurğulanır. Dövlətin, cəmiyyətin və insanın həyatı üçün işlək, stabil, Konstitusiya, qanunvericilik və digər hüquq aktlarına müvafiq fəaliyyət göstərən dövlət aparatı xüsusilə vacibdir, bu isə dövlət xidmətində olan şəxslərin düzgünlüyü, çalışqanlığı və məsuliyyətindən çox asılıdır. Dövlət Xidməti haqqında

Qanununda (Maddə 3, h.1) göstərilir ki, Litva Respublikasının dövlət xidməti qanunun aliliyi, bərabərlik, siyasi bitərəflik, şəffaflıq və karyera irəliləməsi prinsipləri əsasında qurulur. Dövlət xidmətində göstərilən prinsiplərə əməl edilməsi insan hüquqları və azadlıqlarının müdafiəsinə, dövlətin və cəmiyyətin həyatında qanuniliyə, iqtisadi firavanlığa və s. real şəkildə təminat verir.

Dövlət xidmətində olan şəxslər bir sıra dövlət müəssisəsi və orqanların funksiyalarının yerinə yetirilməsinə məsuliyyət daşıyırlar, yəni insanlara müvafiq dövlət xidmətlərinin göstərilməsi onların hüququ və vəzifəsidir. Lakin öz vəzifələrini yerinə yetirmədikdə və ya onları fərsiz, qeyri-qənaətbəxş şəkildə yerinə yetirdikdə və ya xidməti vəzifələrindən öz maraqları üçün istifadə etdikdə onlar müxtəlif sahələrdə və müxtəlif səviyyələrdə dövlət xidmətinin işini pozur, nizamsızlıq yaradır, mühüm layihələrin, qanunların həyata keçirilməsini ləngidir, bəlkə də tamamilə dayandırır. Beləliklə, insan hüquqları və ya azadlıqları birbaşa və ya dolayı yolla pozulur, cəmiyyətin bütün üzvlərinin maddi rifahına ziyan dəyir və s. Qeyd etmək lazımdır ki, dövlət xidmətinə cinayətkar qəsd nəticələrinin miqyası günahkarın tutduğu vəzifənin əhəmiyyətindən bilavasitə asılıdır: dövlət xidmətində daha yüksək vəzifə tutan günahkarların cinayətkar hərəkətləri daha ağır, ələlxüsus siyasi baxımdan, nəticələrə gətirir. *Deməli, dövlət xidmətinə qarşı cinayətlər dövlət hakimiyyətinin insanlara xidmət etmək vəzifəsi haqqında Konstitusiyanın müddəalarını təhrif və təkzib edir ki, bu da insanların təkcə dövlət xidmətinə deyil, ümumiyyətlə dövlətə inamını qırır.*

Dövlət xidmətinə qarşı cinayətlər dövlət xidmətində müəyyən vəzifə tutaraq və bunlardan istifadə edərək dövlət mənafelərinə və ya başqa insanlara xeyli ziyan vuran şəxslərin təhlükəli əməlləridir. Göstərilən cinayətlər həmişə subyektin xidməti vəzifəsi ilə bağlı olur. Günahkar dövlət xidmətində müəyyən vəzifə tutaraq belə cinayətlərin subyekti ola bilər. Beləliklə, başqa oxşar cinayətlərdən, məsələn, bəzi dövlət cinayətlərindən və ya idarə üsuluna qarşı cinayətlərdən fərqli olaraq dövlət xidmətinə qarşı cinayətlər həmin orqanların işçiləri tərəfindən törədilir, yəni onların normal fəaliyyətinə qəsd daxildən edilir. Məhz subyektin xidməti vəzifəsi ona dövlət xidmətinə qarşı cinayətin obyektiv cəhətin əlaməti olan fəaliyyətlə məşğul olmağa imkan verir.

Dövlət xidmətində müəyyən vəzifələr və səlahiyyətlər cinayət əməlinin törədilməsi üçün, yəni xidməti maraqlara zidd olan hərəkətlər üçün istifadə edilir (imkan yaradır). Belə əməl dövlət xidməti prinsiplərini, dövlət xidməti orqanlarının normal fəaliyyətini pozur, dövlət xidməti borcu və funksiyalarına zidd olur. Bəzi hallarda belə cinayətlər xidməti səlahiyyətlərdən və ya biliklərdən birbaşa istifadə vasitəsilə törədilir, digərlərində cinayətlər subyektin xidməti səlahiyyətləri çərçivəsində olmasa da, başqa subyektlərin xidmətində qeyri-qanuni fəaliyyətinə təsir etmə vasitəsilə törədilir. Dövlət xidmətində tutulan vəzifə, onun xarakteri və əhəmiyyəti adətən cinayətkar xidməti pozuntunun xarakteri və miqyası, habelə onun nəticələri üçün bilavasitə əhəmiyyət kəsb edir. Bununla bərabər qeyd etmək lazımdır ki, dövlət xidmətinə qarşı cinayətlər dövlət xidməti qarşısında qoyulan və qanunla təsdiq edilmiş ümumi tələbləri pozmaqla yanaşı digər hüquqi aktlarda, məsələn, xidməti nizamnamələr, vəzifə təlimatlarında təsdiq edilmiş xüsusi tələblərinin yerinə yetirilməsini pozur və ya ona mane olur.

“Dövlət xidmətinə qarşı cinayətlər” məfhumunun özü göstərilən cinayətlərin növ

obyektini açmaqla yanaşı bu cinayətlərin törədilə biləcək sahəsini də müəyyən edir. Litva Respublikası Dövlət Xidməti haqqında Qanununa görə dövlət xidməti – dövlət qulluqçularının dövlət orqanlarında və ya dövlət idarəçiliyi funksiyalarını, təsərrüfat və ya texniki, yaxud cəmiyyətə dövlət xidmətlərinin göstərilməsi funksiyaları yerinə yetirən müəssisələrdə dövlət qulluqçularının fəaliyyətidir. Dövlət və ya özünüidarə orqanları – nümayəndəlik hakimiyyəti, dövlət başçısı, icra hakimiyyəti, məhkəmə hakimiyyəti və nəzarətdir. Beləliklə, dövlət xidmətinin fəaliyyət sahəsi dövlət idarəçiliyi, abadlaşdırma və xidmətlərin göstərilməsindən ibarətdir. Dövlət xidməti fəaliyyətində və münasibətlərində dövlət mənafeləri üstünlük təşkil edir. Dövlət tərəfindən tanınmış və ictimai mənafelərin hüquqi müdafiəsi altında olan dövlət mənafelərinin həyata keçirilməsi cəmiyyətin özünün mövcudluğu və inkişafının əsas şərtlərindən biridir.

Dövlət xidmətinə qarşı cinayətlərin törədilməsi yeri günahkarın xidmət yeri olmaya da bilər. Qeyri-qanuni hərəkətlər subyektin iş yerində deyil, başqa dövlət və ya bələdiyyə müəssisəsində, təşkilatında edilə bilər. Xidməti vəzifəsindən, xidməti əlaqələrdən və nüfuzundan istifadə edən günahkar bu hərəkətlərin başqa şəxslər tərəfindən edilməsinə təsir edə bilər.

Bir halda ki, dövlət xidmətinə qarşı cinayətlər (xidməti vəzifələrin yerinə yetirilməməyindən başqa) əksər hallarda dövlət orqanlarında xidmətdən dövlət mənafelərinə zidd qaydada tamahkar şəxsi məqsədlərlə istifadə edilməsi ilə törədilmiş əməllər kimi özünü büruzə verir, belə cinayətlər korrupsiyanın tərkib hissəsi kimi də qiymətləndirilir. Qeyd etmək lazımdır ki, göstərilən cinayətlər çox vaxt həm də beynəlxalq xarakterə malikdir (məsələn, xarici sərmayələrin, kreditlərin tənzimlənməsi, xidmətlərin göstərilməsi üçün müqavilələrin bağlanması, sifarişlərin alınması, xarici kapitalın cəlb edilməsi ilə özəlləşdirmə prosesi).

Dövlət xidmətinə qarşı cinayətlər məfhumuna əsasən onların növ obyekti dövlət və bələdiyyə müəssisələri və orqanlarının hüquqi dövlətin niyyətlərinə uyğun normal, səmərəli, nüfuzlu, Konstitusiya, qanunvericilik və başqa hüquqi aktlara zidd olmayan fəaliyyəti hesab edilməlidir. Göstərilən cinayətlərin bilavasitə obyekti ayrı-ayrı dövlət müəssisələri və orqanlarının normal, səmərəli, nüfuzlu, Konstitusiya, qanunvericilik və başqa hüquqi aktlara, məsələn, nizamnamə və xidməti təlimatlara uyğun qaydada aparılan fəaliyyətidir.

Beləliklə, dövlət xidmətinə qarşı cinayətlərin həm növ obyekti, həm də bilavasitə obyekti eyni təbiətli dəyərlərlə səciyyələnir, əlavə dəyərlər isə zərər çəkənin şəxsiyyəti, sağlamlığı, ləyaqəti, mülkiyyəti ola bilər.

Dövlət xidmətinə qarşı cinayətlərin obyektiv cəhəti adətən özünü fəal hərəkətlərdə büruzə verir. Dövlət xidmətinə qarşı bəzi cinayətlərin tərkibi (rüşvət alma, vasitəçi köməyi ilə rüşvət vermə) formal kimi təsvir olunur, lakin bu, o demək deyil ki, həmin cinayətlər nəticəsiz qalır. Dövlət xidmətinə qarşı hər bir cinayət labüddən dövlət və ya bələdiyyə müəssisələri və orqanlarının normal fəaliyyətini pozur, onları nüfuzdan salır. Çox vaxt nəticələr aşkar və ya olduqca müxtəlif olur, bəzən isə cinayət əməli törədiləndən uzun müddət keçəndən sonra yaranır, hiss edilməyə başlayır, buna görə də onlar ayrı-ayrı cinayətlərin tərkibində göstərilmir.

Beləliklə, cinayətlərin obyekti məzmunu, cinayətlərin təhlükəlilik dərəcəsi, ya-

ranmış nəticələr, həmin cinayətlərin törədilmə və ya nəticələrin yaranması mexanizmi, habelə digər xüsusiyyətlər dövlət xidmətinə qarşı cinayətlərin xüsusi subyektini də güman eləməyə imkan verir - dövlət xidməti qulluqçusu və ya dövlət xidməti vəzifəli şəxsi.

Dövlət Xidməti haqqında Qanun göstərir ki, dövlət qulluqçusu - Dövlət Xidməti haqqında Litva Respublikası Qanunu və başqa qanunlarla müəyyən edilmiş dövlət qulluqçusu statusu almış və dövlət və ya bələdiyyə müəssisələri və orqanlarında təsərrüfat və ya texniki funksiyaları, yaxud dövlət idarəçiliyi funksiyalarını yerinə yetirən və ya cəmiyyətə dövlət xidmətlərinin göstərilməsi ilə məşğul olan fiziki şəxsdir.

Dövlət xidmətinə qarşı cinayətlərin subyektiv cəhəti adətən qanunda qərəz kimi səciyyələndirilir, həmin cinayətlərin tərkibində isə mütləq tamahkarlıq və ya şəxsi məqsədlər əlaməti mövcud olmalıdır. Dövlət xidmətinə qarşı cinayətlərin qərəzin səviyyəsi bir neçə amilin əsasında müəyyən edilir. Günahkar:

1) dövlət xidməti qulluqçusu statusuna malik olmağını dərk edir;
2) qanunvericilik, dövlət xidmətini tənzimləyən digər hüquqi aktlar, əmək müqaviləsində onun vəzifəsi üçün nəzərdə tutulan səlahiyyətləri, vəzifələri, funksiyaları yerinə yetirməyə borclu olduğunu bilir;
3) onun xidməti hərəkətləri hüquqi və digər nəticələrə gətirə biləcəyini dərk edir;
4) onun etdiyi (və ya etmədiyi) hərəkətlərin səlahiyyətlərini aşmasını, xidməti maraqlara zidd olmasını və qadağan edilməsini anlayır;
5) xidməti vəzifədən istifadə edərkən onun qeyri-qanuni davranışı hansı ziyan vura biləcəyini ehtimal edir;
6) belə davranışın dövlət xidmətində tutduğu vəzifə ilə bağlı olduğunu və ya onun ayrılmaz hissəsi olduğunu, buna görə də digər zərərverici nəticələrlə bərabər dövlət xidmətini nüfuzdan salmağını dərk edir;
7) xidmətlə bağlı qeyri-qanuni hərəkətləri etmək niyyətindədir və bu hərəkətlərin nəticələrinin yaranmasını istəyir və ya bilərəkdən ona yol verir. Nəticələr baxımından günahkarın qərəzi çox vaxt konkretləşdirilmir. Dövlət xidmətinə qarşı cinayətin formal tərkibi təsvir edilibsə, günahkarın ruhi vəziyyəti və iradəsi yalnız əməllə əlaqədar səciyyələndirilir.

Dövlət xidmətinə qarşı ayrı-ayrı cinayətlərdə (məsələn, rüşvət alma, müəssisənin ticarət və ya maliyyə fəaliyyətində qeyri-qanuni iştirak) tamahkarlıq zəruri əlamət kimi göstərilmir. Lakin göstərilən cinayətlərin təbiəti, şərait, subyektiv cəhəti dövlət xidmətinə qarşı cinayətlərin məhz qərəzli şəxsi səbəb və məqsədlərin olmasını ehtimal edir.

# ƏSAS MƏFHUMLAR LÜĞƏTİ

**Korrupsiya əleyhinə standartlar** – korrupsion davranışın məhdudlaşdırılmasına kömək edən davranış və hüquq normaları məcmusu.
**Korrupsiyaya qarşı tərbiyə** – vətəndaş əhalisində korrupsiyaya qarşı münasibətin aşılanması.
**Deviasiya** – cəmiyyət və ya qrup üçün adət halını almış sosial qayda və normaların pozulması.
**Rüşvətxorluq** – dövlət qulluqçusu və ya ona bərabər tutulan şəxs özünün və ya başqasının mənafeyini güdərək öz səlahiyyətlərini icra etdiyi dövrdə qanuni və ya qanunsuz fəaliyyət və ya fəaliyyətsizlik əvəzində rüşvət alır, almağı vəd edir və ya almağa razılıq verir, tələb edir və ya onu verməyə təhrik edir.
**Sifarişçilik əlaqələri, sifarişçilik** – hami ilə digər şəxs və ya şəxslər (sifarişçilər) arasında hər iki tərəf üçün əlverişli öhdəliklər və əlaqələr əsasında qurulmuş münasibətlər sistemidir.
**Korrupsiya** – şəxsi faydalanma məqsədilə dövlət vəzifəsindən sui-istifadə.
**Fəaliyyət sahəsindən asılı olaraq korrupsiya növləri** – inzibati, siyasi, şəxsi, beynəlxalq.
**Hərəkətin məqsədindən asılı olaraq korrupsiya növləri** – bürokratik, tənzimləyici, preventiv, nəticələrin ləğvinə yönəlmiş.
**Korrupsiyanın müəyyən edilməsi** – korrupsiya hallarının vaxtında və hərtərəfli müəyyən etmək imkanı.
**Korrupsiyanın qarşısı alınması** – korrupsiyanı doğuran səbəb və şəraitin ləğv edilməsi.
**Korrupsiyanın aşkar edilməsi və hüquqi təqibi** – korrupsion əməllərin üzə çıxarılması, cəzanın qaçılmazlığı və ədalətliliyi prinsipinin həyata keçirilməsi.
**Lobbizm fəaliyyəti** – hüquq aktlarının dəyişdirilməsi, onlara əlavələrin edilməsi və ya onların etibarsız elan edilməsi, yeni hüquqi aktların qəbul edilməsinə və ya edilməməyinə təsir göstərilməsinə yönəlmiş lobbistlərin əvəzi ödənilən hərəkətləri. Belə fəaliyyətin məqsədi şəxsi hüquqlara və ya ictimai və dövlət mənafelərinə əməl edərək sifarişçi maraqlarının həyata keçirilməsidir.
**Lobbizm** – məlumat mübadiləsi nəticəsində müəyyən qrup, təşkilat və ya bunun bir hissəsinin əldə etdiyi ümumi fikrinin öz mənafelərinə uyğun olan qərarın qəbul edilməsi üçün hakimiyyətdə olan (istər seçilən, istərsə də təyin edilən) vəzifəli şəxslərə çatdırılması prosesidir.
**Lobbist** – lobbizm fəaliyyəti ilə məşğul olmağa hüququ olan fiziki şəxs və ya qanunla müəyyən edilmiş qaydada lobbist siyahısına salınmış müəssisə, idarə, təşkilat.
**Nepotizm** – *müəyyən vəzifəyə ən yararlı işçi* prinsipinə riayət etmədən, müsabiqəsiz qohum, dost və yaxın tanışların işə götürülməsi. Bunun nəticəsində bir-birinə borclu olan işçilər sistemi yaradılır ki, bundan da qərar qəbul edildikdə istifadə edilir.

**Hami** – sifarişçi münasibətləri sisteminin hissəsi – kimə isə hamilik edən orqan və ya şəxs.

**Pulların yuyulması** – cinayət yolu ilə əldə edilmiş pulların mənşəyini qanuniləşdirmək və ya gizlətmək cəhdi ilə edilən əməl.

**Rüşvət vermə** – dövlət qulluqçusu, və ya ona bərabər tutulan şəxsə səlahiyyətlərini icra etdiyi dövrdə qanuni və ya qanunsuz fəaliyyət və ya fəaliyyətsizlik əvəzində (və ya həmin nəticələr əldə etmək üçün vasitəçiyə) birbaşa və ya dolayı yolla rüşvətin təklifi, vəd edilməsi və ya verilməsi ilə bağlı hərəkət.

**Sui-istifadə** – dövlət qulluqçusu və ya ona bərabər tutulan şəxsin vəzifəsindən sui-istifadə etmək və ya səlahiyyətlərini aşmaq üçün etdiyi hərəkət - o halda ki, belə hərəkət dövlətə, beynəlxalq ictimai quruma, hüquqi və ya fiziki şəxsə böyük ziyan vurur.

**Şəxsi mənafe** – dövlət xidmətində olan şəxsin xidməti vəzifələrini yerinə yetirərkən qəbul edəcəyi qərarlara təsir göstərə biləcək özünün (yaxud onun yaxın qohumu və ya ailə üzvünün) şəxsi maddi və ya qeyri-maddi maraqları.

**Xidməti vəzifələrin yerinə yetirilməməyi** – dövlət qulluqçusu və ya ona bərabər tutulan şəxsin səhlənkarlıq üzündən öz xidməti vəzifələrini yerinə yetirməməyi və ya lazımınca yerinə yetirməməyi – o halda ki, belə əməllər dövlətə, hüquqi və ya fiziki şəxsə böyük ziyan vurur.

**Dövlət qulluqçusu** – dövlət xidmətində olan şəxs – dövlət siyasətçisi, Dövlət Xidməti Haqqında Qanuna müvafiq olaraq dövlət idarəçiliyində işləyən dövlət qulluqçusu, habelə dövlət və ya bələdiyyə orqanlarında ya qurumlarında, məhkəmə və hüquqmühafizə orqanlarında, dövlət nəzarəti və təftiş orqanlarında və bunlara bərabər tutulan orqanlarda işləyən zaman hakimiyyət nümayəndəsi vəzifələrini yerinə yetirən və ya inzibati səlahiyyətlərə malik olan digər şəxslər, habelə göstərilən vəzifələrə rəsmi namizədlər.

**Dövlət qulluqçusuna bərabər tutulan şəxs** - xarici dövlətin hər hansı qurumunda, beynəlxalq təşkilatda və ya beynəlxalq məhkəmə orqanında müəyyən səlahiyyətlərə malik olan şəxslər, habelə göstərilən vəzifələrə rəsmi namizədlər. Bundan başqa, təsərrüfat və ya texniki xidmət göstərən şəxslərdən başqa hər hansı dövlət, qeyri-dövlət və ya özəl qurumda, təşkilatda ya müəssisədə işləyən, yaxud professional fəaliyyətlə məşğul olan və dövlət inzibati idarəçiliyi sahəsində müəyyən səlahiyyətlərə malik olan ya dövlət xidmətləri göstərən şəxs dövlət qulluqçusuna bərabər tutulur.

**İctimai mənafe** - dövlət xidmətində olan şəxslərin qərəzsiz və ədalətli qərarlar qəbul etməsində ictimaiyyətin marağı.

**İctimai və şəxsi mənafelərin ixtilafı** - dövlət xidmətində olan şəxsin vəzifələrini və ya tapşırığı yerinə yetirdiyi zaman öz şəxsi mənafelərinə toxunan qərar qəbul etməli, yaxud belə qərarın qəbul edilməsində iştirak etməli, yaxud belə tapşırığı yerinə yetirməli olduğu vəziyyət.

**Dövlət idarəçiliyi** – dövlət və yerli özünüidarə orqanlarının qanunla tənzimlənən və hüquqi aktların, yerli özünüidarə qurumları qərarlarının həyata keçirilməsinə, nəzərdə tutulmuş dövlət xidmətlərinin idarəçiliyinə yönəlmiş fəaliyyəti.

**Dövlət idarəçiliyi prinsipləri** – qanun aliliyi (fəaliyyət hüquqi normalara əsaslanır), obyektivlik (hərəkətlər qərəzsiz olmalıdır), səlahiyyətlərdən sui istifadə edilməməyi (səlahiyyət verilmədikdə fəaliyyətlə məşğul olmaq, yaxud qərar qəbul edildikdə qanunla müəyyən edilmiş məqsədlərdən başqa məqsədlər güdmək qadağandır).

**Azərbaycan Respublikası Təhsil Nazirliyi**

**Müasir Təhsil və Tədrisə Yardım Mərkəzi**

# Məktəbdə mənəvi tərbiyə və antikorrupsiya təhsili

**(müəllimlər üçün dərs vəsaiti)**

**Tərtib edənlər**

Əliyeva Yelena – BPKİA və YHİ coğrafiya kabinetinin metodisti
Rəsulova Gülnaz – Bakı şəhəri, 269 saylı orta məktəbin rus dili müəllimi.
Nağıyeva Səadət - Bakı şəhəri, Nizami rayonu 214 saylı orta məktəbin direktor müavini
Cəlilova Yeganə – Sumqayıt şəhəri orta ümütəhsil kollecinin təsviri incəsənət müəllimi
Kərimova Firəngiz – Azərbaycan Müəllimlər İnstitutunun Təhsilin idarə olunması kafedrasının baş müəllimi

**Rəyçilər**

1.Ramiz Məmmədzadə - professor, Azərbaycan Müəllimlər İnstitutunun «Təhsilin idarə olunması kafedrasının» müdiri
2.Aydın Həsənov - p.e.n. Bakı Slavyan Universitetinin pedaqogika və psixologiya kafedrasının dosenti
3. Mehriban Əhmədova – Azərbaycan MEA elmi işçisi, fizika-riyaziyyat elmləri namizədi

**Hörmətli oxucu!**

**Diqqətinizə təqdim olunan bu metodiki vəsait 8-11-ci siniflərin, orta məktəblərdəki uşaq təşkilatlarının rəhbərləri və məktəb psixoloqları üçün hazırlanıb. Bura günümüzdə müdavimlər üçün zəruri olan məsuliyyət, sərbəst tənqidi təfəkkür, qərar qəbulu, öz ölkəsinin fəal vətəndaşı olmaq kimi xüsusiyyətlərin tərbiyə olunmasına kömək edən bir neçə dərs daxil edilib. Bu dərs saatları məhz müdavimlərin özlərinin vətəndaş cəmiyyətinin qurulması prosesinin iştirakçısı olduqlarını dərk etməyə kömək edəcək. Dərslər iştirakçılar arasında əməkdaşlığı nəzərdə tutan fəal tədris metodlarından istifadəyə və müdavimlərin fəal, müstəqil tədqiqatçı mövqeyində dayanmasına hesablanıb ki, bu xüsusiyyətlər də öyrənilən mövzular üzrə mühüm nəticələr çıxarmağa və ümumiləşdirmələr aparmağa kömək edəcək.**

## Müəllimlərə

*«Yaxşı tərbiyə – ən yaxşı mirasdır»*

Metodiki vəsait məlumatlandırma xarakteri daşıyır. Onun məqsədi müdavimlərin mənəvi və qanunpərəst vətəndaşların tərbiyəsinə yardım etməkdir. Tərbiyənin xarakteri və məzmunu hamı tərəfindən qəbul edilmiş bəşəri dəyərlərə, demokratik prinsiplərə, şəxsiyyətin xüsusiyyətlərinə, onların cəmiyyətdə və dövlətdə roluna münasibətdən çox asılıdır. Tərbiyə insan sivilizasiyası təcrübəsi nəticəsində əmələ gələn sosial dəyər kimi qiymətləndirilir, ədalətlilik, humanizm, bəşərilik, mənəvi zənginlik, tolerantlıq ideyalarını, başqalarına hörmət və öz hüquqlarını müdafiə edə bilmək, eləcə də kommunikativ vərdişləri özündə əks etdirir. Bütün bu xüsusiyyətlər tədris zamanı aparılan tərbiyə prosesində formalaşır. Artıq uzun illərdir ki, müəllimlər öz dərslərində aktiv tədris formalarından istifadə edirlər. Belə ki, demokratik tərbiyə, vətəndaş təhsili, yazma və oxuma vasitəsilə tənqidi təfəkkürün inkişafına dair bir sıra metodiki vəsaitlər hazırlanıb.

Bu metodiki vəsaitdə sinif saatlarının nümunəvi tematik planı verilib. Hər bir belə dərs, dərsdənkənar tədbir, müəllimin hər bir addımı, onun şəxsi nümunəsi, hər bir söhbət müdavimlərin tərbiyəsinə xidmət edir. Bu gün artıq şagirdlərə öyüd, nəsihət vermə heç bir səmərə vermir. Şagirdin yaş, psixoloji xüsusiyyətlərini nəzərə almadan onu tərbiyə etmək mümkün deyil. Dünyada və cəmiyyətdə də baş verən dəyişiklikləri nəzərə almamaq səhv olardı.

Bu vəsaitdə verilmiş dərslərin metodiki cəhətdən hazırlanması nümunələri müdavimləri passiv dinləyicilərdən tərbiyə prosesinin fəal iştirakçısına çevirməyə imkan verər.

## Dərs saatlarının nümunəvi tematikası

| | |
|---|---|
| | **Müdavimlərin hüquqi tərbiyəsi** |
| **1** | Mənim hüquq və vəzifələrim |
| **2** | Ədalətli cəmiyyət |
| **3** | Azadlıq və məsuliyyət |
| **4** | Doğruluq |
| **5** | Korrupsiya nədir? |
| **6** | Uşaq haqlarına dair Konvensiya |
| | |
| | **Vətəndaşlıq tərbiyəsi.<br>Aktiv həyat mövqeyinin formalaşması** |
| **7** | Düzgün qərarları necə qəbul etməli? |
| **8** | Mən vətəndaşam – mənim mövqeyim |
| **9** | Müstəqil Azərbaycan. Demokratik prinsiplər |
| **10** | «Yox» sözünü necə deməli. |
| **11** | «Mən Bakıda 1990-cı il 20 yanvar faciəsinin günahkarlarını pisləyirəm». |
| **12** | «Xocalı - Azərbaycan xalqının ağrısı» |
| **13** | Münaqişələrin yaranma səbəbləri və onların həlli yolları |
| **14** | 31 mart – Azərbaycan xalqına qarşı genosid günüdür. |
| | |
| | **Mənəvi tərbiyə.** |
| **15** | Sinfin şərəf kodeksi |
| **16** | Sağlam həyat tərzi – normadır |
| **17** | Tolerantlıq. Milli xüsusiyyətlər və dünya mədəniyyəti |
| **18** | Etik normalar, mənəvi dəyərlər |
| **19** | İslamda mənəviyyat |
| | |
| | **Əlamətdar günlərə həsr olunmuş dərslərin keçirilməsi** |
| **20** | 28 may – Respublika günü |
| **21** | 17-noyabr Milli Dirçəliş günü |
| **22** | 18 oktyabr Dövlət Müstəqilliyi günü |
| **23** | 31 dekabr Azərbaycanlıların Həmrəyliyi günü |
| **24** | 21 mart – Novruz bayramı |
| **25** | 9 may – Faşizm üzərində Qələbə günü |
| | |
| | **Aksiyalar** |
| **26** | Uşaqların hüquqlarının müdafiəsi günü |
| **27** | 9 dekabr - Antikorrupsiya günü |
| **28** | Əlil və kimsəsiz vətəndaşlara yardım günü |
| **29** | Satış yarmarkası - qaçqın və yetim uşaqlara yardım göstərilməsi |
| **30** | İctimai xadimlər, alimlər, yerli hakimiyyət orqanları təmsilçiləri ilə görüş. |

**Dərslərin metodiki cəhətdən hazırlanması**

***«Əgər siz insanda zəkanı inkişaf etdirir və bu zaman onu mənəviyyatını zənginləşdirmirsinizsə, o halda siz cəmiyyət üçün təhlükə yetişdirirsiniz»***
***Teodor Ruzvelt***

**Məzmun**

**1. Ədalətli cəmiyyət**

***«Bütün insanlar azad, ləyaqətləri və hüquqları bərabər olaraq dünyaya gəlirlər. Onların şüurları və vicdanları var və onlar bir-biri ilə qardaşlıq ruhunda davranmalıdırlar».***
***İnsan haqlarına dair ümumi Bəyannamə***
***Maddə 1.***

« Ədalətli cəmiyyətin əsas prinsipləri istisnasız olaraq cəmiyyətin hər bir üzvünün maraqlarını nəzərə almalıdır və onların hər birinə bərabər hüquq və imkanlar verməlidir».

**2. Azadlıq və məsuliyyət**

«Azadlıq – seçim imkanınn və öz hərəkətlərinə görə cavab vermək qabiliyyətinin olmasıdır» (dərs nümunəsi Beynəlxalq Təhsil Fondu tərrəfindən hazırlanıb (IEF). Aleksandr Jiqalov və Lüdmila

**3. «Yox» sözünü necə deməli?**

***«Düşmənlərindən qorxma, ən pis halda onlar sənə xəyanət edəcəklər;qatillərdən qorxma, ən pis halda onlar səni öldürəcəklər; laqeyd olanlardan qorx. Bütün xəyanət və qətllər məhz onların sakit razılığı ilə baş verir»***
*Bruno Yasenski*

«Əgər cavabdeh şəxslər açıq şəkildə ədalətsizliyə, cinayətkarlığa qarşı çıxaraq sözdə və əməli işdə demokratik cəmiyyətin vətəndaşının hüquq və vəzifələrini həyata keçirməsələr cəmiyyətdə onların qarşısını almaq mümkün olmaz».

**4.Qərarı necə qəbul etməli.**

***«Xeyir və səadət insanın gücündədir»***
***Səməd Vurğun***
***«Xeyir elm deyil, hərəkətdir»***
***R.Rollan***

«Səliqəlilik və dəqiqlikdən başlayaraq bağışlamaq və cəsarət kimi qəhrəmanlıq xüsusiyyətlərinə qədər bütün xeyirxahlıqlar təmənnasızlığın ifadəsidir. Təmənnasızlıq – vicdanın hökmünə cavabdır. Bu - rüh bədən üzərində hakim olduqda baş verir. Cəmiyyətdə xeyir bu cür təzahür edir».
(dərs Beynəlxalq Təhsil Fondunun kollektivi tərəfindən hazırlanıb (IEF)

**5.Korrupsiya nədir?**
***Əsas mülahizələr***
* korrupsiya insanlara və cəmiyyətə ziyan vurur
* iqtisada inkişafı ləngidir
* insan haqlarını pozur, qanuna ziddir
* biz onunla mübarizə apara bilərik
* bu sahədə müəyyən qanunvericilik mövcüddür
_______________________»»»»»»»___________________________»»»»»»»____________
______________________»»»»»»»___________________________»»»»»»»___________

**I dərs**
**Mövzu: «Ədalətli cəmiyyət»**
**Məqsədlər; müdavimlər nəyi başa düşməlidirlər:**
- insan haqları ümumi məfhumdur, yəni hər bir insana aiddir
- insan haqları cəmiyyətdə minimal həyat standartını müəyyən edir

**müdavimlər nəyi öyrənməlidirlər:**
-qruplarda əməkdaşlıq və iş bacarıqlarını
-diskussiya aparmaq və qulaq asmaq, habelə öz fikrini müdafiə etmək
-özünü başqasının yerinə qoymaq

**Məzmunu**
Ədalət – mənəvi məfhumdur. Mənası hər bir insana və insan qrupuna bərabər münasibət və obyektiv surətdə dərk edilmədir. Ədalət insan və ya bir qrup insana qarşı mənəviyyat nöqteyi nəzərindən haqlı, humanist münasibətdir.
İnsan haqlarının təmin olunması cəmiyyətin ədalətli olması üçün əsas zəmindir. Hər bir vətəndaşının hüquqlarının qorunmasına təminat verən cəmiyyət - insanın layiqli həyatının əsasıdır.

**Əsas anlayışlar:**
ədalətli cəmiyyət, ləyaqət və insanın qiyməti

**Dərsin gedişi**
**Mərhələ 1. Çağırış ( motivasiya)**
Əqli hücum – müəllim uşaqlara kağız parçaları paylayır və onlara «Ədalət nədir?» sualının cavabını həmin kağızlara yazmağı xahiş edir.
Müdavimlər öz fikirlərini bildirirlər, müəllim cavabları ümumiləşdirərək yazı taxtasında qeyd edir (aşağıda Nərimanov rayonu 39 saylı məktəbin şagirdlərinin fikirləri verilib)

*«Ədalət hər bir şəxsin hüquq və azadlıqlarının bərabərliyidir və hər bir şəxsin hərəkətlərinə hörmət hissi ilə təmin olunur (bəşəriyyətin əsas mənəvi qanunlarına müvafiq olaraq)»*
*«Ədalət – bütün insanların eyni hüquqlara malik olması və öz ölkələrinin*

*konstitusiyası ilə müəyyən olunmuş bütün qanunlara riayət etməsi deməkdir».*
*«Ədalət – sənin insan kimi hərəkət etməndir»*




- *«İnsanlar üçün onların hörmət və müdafiə olunduğu, eləcə də layiqli həyat üçün geniş imkanlar yaradıldığı bir ictimai sistemdə yaşamaq vacibdir.*
*Görəsən, ədalətli cəmiyyət nədir?»*
Şagirdlər öz fikirlərini bildirirlər. Müəllim növbəti sualı verir.

- *Ədalətli cəmiyyəti necə qurmalı? «Cəmiyyəti ədalətli adlandırmaq üçün onda hansı davranış və «oyun qaydaları» olmalıdır?»*

*Şagirdlər öz mülahizələrini bildirirlər. Müəllim yazı taxtasında sualı və şagirdlərin cavabını yazır. Sonra isə şagirdləri qruplara bölür, onlara hipotezlərini yoxlamağı təklif edir və dərsin sonrakı gedişini izah edir.*

-*«Təsəvvür edin ki, sizə ədalətli cəmiyyətdə yaşamaq üçün zəruri olan, yeddi qanundan ibarət toplunu tərtib etmək tapşırılıb. Siz yadda saxlamalısınız ki, ədalətli cəmiyyətin qurulması prinsiplərini formalaşdırırsınız. Burada əsas göstərici həmin cəmiyyətin insan və insan qrupuna qarşı münasibət normalarıdır. Yəni, hər bir insanın maraqlarının nə dərəcədə obyektiv və dəqiq nəzərə alınmasıdır. Həmin cəmiyyətdə insanın müdafiəsi mexanizmləri nə dərəcədə mükəmməldir.*

*Bundan əlavə, onu da yaddan çıxarmamalısınz ki, real cəmiyyətdə müxtəlif adamlar: kişilər, qadınlar, varlılar və yoxsullar, qocalar və cavanlar, xəstələr və sağlamlar və s. insanlar yaşayır. Sizin qrupun tərtib edəcəyi qanunlar toplusunda hər bir iinsanın maraqları nəzərə alınmalıdır (sizə, qurduğunuz ədalətli cəmiyyətdə yaşadığı ehtimal olunan insanların siyahısı veriləcək). Lakin, əlbəttə ki, bütün insan kateqoriyalarının maraqlarının nəzərə alınması onların sadəcə olaraq «eyniləşdirlməsi» anlamına gəlməməli, həm də onların təşəbbüskarlığını zəiflətməməlidir. Siz həm əhalinin müdafiə olunmamış təbəqələrinin, həm də işgüzar, təminatlı adamların da maraqlarını nəzərə almalısınız ki, hamı inkişaf üçün eyni imkanlara malik olsun.*

*Tərtib etdiyiniz qaydalar toplusunu böyük ağ kağız parçası üzərində markerlə*

*həkk edin.*

*Yalnız qaydaların tərtibi və onun təqdimatı sona çatdaqdan sonra sizlərdən hər birinizin bu cəmiyyətdə hansı rolda çıxış etdiyinizi və həmin konkret personajın maraqlarının nəzərə alınıb-alınmadığını öyrənə biləcəksiniz.*

**2-ci mərhələ. İdrak.**

Hər bir qrup işin nəticələrinin elan olunması və qəbul edilmiş qərarın əsaslandırılması üçün öz nümayəndəsini seçir.

1-ci qrup
1.İnsanların sosial vəziyyətindən asılı olmayaraq onların fikrinə hörmət
2.Bir-birini həmişə dəstəkləməli
3.Uşaq evlərində yaşayan uşaqlar da hamının malik olduğu hüquqlara malikdirlər
4.Əlil və qocalara qayğı
5.Məktəbi bitirdikdən sonra işə düzəlmək zəmanəti
6.Ekologiyanın mühafizəsi
7.Pulsuz tibbi yardım

Qrupların təqdimatı başa çatdıqdan sonra müdavimlər onların ədalətli cəmiyyətdə yerini müəyyən edən vəsiqələr əldə edirlər. (Vəsiqələr əvvəlcədən hazırlanır. Hər bir vəsiqədə siyahıdakı personajlardan – cəmiyyət üzvlərindən birinin adı göstərilməlidir. Vəsiqələr həm müdavimlərin özləri tərəfindən bilet kimi seçilə bilər, həm də müəllim tərəfindən paylana bilər).

**3-cü mərhələ. Təfəkkür**

Təqdimatdan sonra müzakirə aparılır

*Müzakirə üçün suallar*

*-Siz əhalinin müxtəlif təbəqələrinin maraqlarını nəzərə almısınızmı?*
*-Sizin fikrinizcə, əhalinin hansı qruplarının maraqları nəzərə alınmayıb?*
*-Siz bu cəmiyyətdə yerinizi müəyyən edən vəsiqəni əldə etdikdən sonra özünüzü necə hiss etdiniz? Məhz həmin personajın maraqları nəzərə alınmışdımı?*
*-Sizə elə gəlmədi ki qaydalar tərtib olunarkən sizin marqalarınız nəzərə alınmayıb?*
*-Siz özünüzün tərtib etdiyiniz qaydalara əlavələr etmək istəmirsiniz ki?*

Aşağıda təsvir edilmiş hadisəni təhlil edin

«Axşamların birində avtomobil qəzasında zərəçəkmiş şəxs Respublika xəstəxanasına gətirilir. O huşsuz olur və üzərində heç bir sənədi olmur. Onu xəstəxanaya çatdıran şəxs isə hadisənin təsadüfi şahiddir. Zərərçəkmişi vuran avtomobil hadisə yerindən qaçıb və şahid yaralını xəstəxanaya gətirmək məcburiyyətində qalıb. Növbətçi həkim xəstəni müayinə etmək üçün müəyyən məbləğdə pul istəyir. Xəstənin isə üzərində o qədər olmur. Bu halda həkim yaralının müayinəsini səhərə qədər, onun şəxsiyyəti müəyyən olunana və qohumları tapılana qədər təxirə salır. Yaralı isə gecə dünyasını dəyişir. İşdə yol verdiyi səhlənkarlığa görə həmin həkimin iş yeri dəyişdirilir»

Müzakirə üçün suallar

1.Həkimin hərəkətlərini mənəvi cəhətdən haqq qazandırmaq mümkündürmü?
2.Hansı səbəblər həkimi rüşvət tələb etməyə sövq edə bilər və bu halda ona bəraət qazandırmaq olarmı?
3. Əgər insanın hüquqları tapdalanırsa, həmin cəmiyyəti demokratik adlandırmaq olarmı?

Şagirdləri aşağıdakı nəticəyə gətirin:

**Ədalətli cəmiyyətin əsasını təşkil edən prinsiplər istisnasız olaraq onun bütün üzvlərinin maraqlarını nəzərə almalı və onların hər birini bərabər hüquq və imkanlarla təmin etməlidir.**

Bu nəticə ilkin mülahizələrlə müqayisə olunur, həmin mülahizələrin təsdiqi və ya inkarına dair nəticə çıxarılır. Lazım olarsa, müəllim nəzəri materialdan istifadə edərək öz çıxışını genişləndirə bilər.

## Dinləyicilərə paylanan material

Cəmiyyət üzvlərinin siyahısı

1.Beş yaşlı qaçqın-kimsəsiz qız
2.Fiziki qüsurları olan yeddi yaşlı oğlan
3.Əslən kənddən olan tələbə
4.İmkanlı ailədən olan, xarici şirkətdə işləyən cavan oğlan
5.Uşaq evində böyümüş və teatr institutuna qəbul olub və aktrisa olmaq arzusunda olan gənc qız
6.İşsiz kişi, müharibə veteranı, iki uşaq atası
7.İşləri müvəffəqiyyətlə gedən, uşaqları xaricdə özəl məktəbdə oxuyan biznesmen
8.Uzunmüddətli iş stajı olan və çox kiçik əmək haqqı alan dövlət qulluqçusu
9.Gənc pedaqoq qadın – repititorluq edir
10.Bazarda alver edən yaşlı kəndli qadın

11.«Möhkəm» fermer
12.Vergiləri ödəmək istəməyən sahibkar
13.Yaşlı tənha qadın
14.Təqaüdçü kişi
15.Oğurluğa görə beş il həbsdə olmuş qırx yaşlı ailəli kişi.
16.Keçmişdə məşhur olmuş, mahnıları artıq çoxdandır ki ifa olunmayan bəstəkar-qadın
17.On beş yaşlı şahmatçı-Avropa çempionatının qalibi
18.Gələcəyi ümidverici olan pianoçu-qız
19.Vəzifəsindən sui istifadə edən polis işçisi
20.Bu yaxınlarda Nobel mükafatı almış akademik
21.Otuz yaşlı qadın, milli azlıqların nümayəndəsi
22.Nazirliyin rüşvətlə ələ alınmış məmuru
23.İşsiz qalmıq diş həkimi
24.Gənc oğlan – ölkə əhalisinin əksər hissəsinin sitayiş etdiyi dini inancdan fərqli bir dini cərəyanın davamçısı
25.Müflis olmağa yaxın olan bankir
26.Avtomobillərin satışı üzrə firmanın sahibi-əcnəbi
27.Ölkədə məşhur olan teleaparıcı
28.Şou-bizneslə məşğul olan sahibkar
29.Avtomobilləri yumaqla pul qazanan altı yaşlı oğlan
30.Nizamnamə qaydalarının pozulduğu hərbi hissədə xidmət edən əsgər
31.Evsiz-eşiksiz insan
32.Qonşuları tərəfindən mənzili əlindən güclə alınmış yaşlı qadın
33.Cinayətdə günahı sübut olunmamış müttəhim
34.Telefonuna qulaq asılıan deputatlığa namizəd
35.Müharibə gedən qonşu ölkədən olan qaçqın

## Nəzəri material

İnsanın cəmiyətdə layiqli yaşaması imkanı həmin cəmiyyətin əsasını təşkil edən müəyyən təminat və mexanizmlərin olmasından asılıdır.

Əsrlər boyu insanlar mürəkkəb ictimai münasibətlər sistemində yaşayır və mütəmadi olaraq müxtəlif əlaqələrə girirlər. Yuxarıda qeyd olunduğu kimi, cəmiyyətdə yaşayan ayrı-ayrı fərdlərin tələbatları bir-biri ilə həm üst-üstə düşə, həm də ümumilikdə cəmiyyətin maraqları ilə ziddiyyət də təşkil edə bilər. Buna görə də insanlar üçün hörmət və müdafiə olunduğu, eləcə də onlara layiqli həyat sürmək üçün imkan verildiyi, habelə tələbatlarını ödəyərkən meydana çıxan ziddiyyətlərin ədalətlə tənzimləndiyi cəmiyyətdə yaşamaq vacibdir. İnsanın məhz belə bir cəmiyyətdə yaşamaqda maraqlı olması təbiidir, bundan əlavə, bu cür cəmiyyətin yaradılması fikri həmişə və hər yerdə insan zəkasını narahat edib. Ərlər boyu insanlar «ədalətli cəmiyyət» adlandırdıqları sistemi hansı özül, bünövrə üzərində qurmağın mümkün olduğunu müəyyən etməyə cəhd ediblər.

Bəs «ədalətli cəmiyyət» nədir?

Təsəvvür edin ki, siz bir qrup insan arasında çörək bölüşdürməlisiniz. Əgər siz həmin insanlara qərzsiz münasibət bəsləsəniz, o zaman siz hamıya eyni çəkidə çörək parçası verəcəksiniz. Lakin əgər bu insanlar içərisində zəif və xəstə insanlar, habelə azyaşlı uşaqlar varsa, bu halda yeməyə daha çox ehtiyacları olduğu üçün həmin insanlara daha böyük çörək parçası vermək daha humanist addım olardı.

Cəmiyyət (ictimai sistemlər) – bu ilk növbədə mütəşəkkil, kollektiv strukturdur, məsələn, dövlət kimi. «İctimai sistemlər» anlayışı özündə fərdlə kollektiv arasında qarşılıqlı münasibətləri tənzimləyən «oyun qaydaları»nı da ehtiva edir. Başqa sözlə, ictimai sistemlər fərdlər arasındakı münasibətləri, siyasi və iqtisadi quruluşu, əmək bölgüsünü müəyyən edir və tənzimləyir, habelə yeni ictimai sistemlər yaradaraq, mövcud olanları inkişaf etdirir və dəyişdirir.

Bəs həmin cəmiyyətin ədalətli olmasını müəyyən etmək üçün meyarlar hansılardır?

Burada yeganə göstərici həmin cəmiyyətin insan və insan qrupuna qarşı münasibət normalarıdır. Məhz bu maraqlar əsasında hər bir insanın maraqlarının nə dərəcədə obyektiv və dəqiq nəzərə alınmasını müəyyən etmək olar.

Bəs ədalətləi cəmiyyəti necə qurmaq olar? Cəmiyyəti ədalətli adlandırmaq çün o hansı xüsuiyyətlərə və oyun qaydalarına malik olmalıdır?

Aşağıda təsvir olunmuş nəzəri model ədalətli cəmiyyətin insanın özünün rasional seçimi əsasında yaradılması ideyasını təklif edir. Beləliklə, bir qrup insana, elə onların özlərinin yaşayacaqları ədalətli cəmiyyətin əsas fəaliyyət qaydalarını işləyib hazırlamaq tapşırılır. Lakin burada ədalətli cəmiyyətin prinsiplərini tərtib edən insanların üzərinə müəyyən məhdudiyyətlər qoyulur. Həmin insanlar «qeyri-müəyyənlik pərdəsi» arxasında olmalı, yəni həmin xəyali cəmiyyətin üzvlərinə çevrildikdə bu insanlar kimlər olacaqlar (yəni yaşları, cinsləri, cəmiyyətdə mövqeləri necə olacaq).

Aydındır ki, «qeyri-müəyyənlik pərdəsi» bu qrup insanları elə qərarlar qəbul etməyə məcbur edir ki, həmin qərarlar təkcə onların öz maraqlarını deyil, həmin xəyali cəmiyyətin bütün üzvlərinin maraqlarına uyğun olsun.

Bu modeldə təqdim olunan bütün şərtlər insanları insanın layiqli həyat tələbatlarına uyğun olaraq ədalətli cəmiyyətin prinsiplərinin mənəvi nöqteyi nəzərdən rasional seçkisinə yaxınlaşdırır. Onların əsas prinsiplər kimi hüquq bərabərliyini, təhlükəsizliyi, azadlığı, insan ləyaqətinin müdafiəsini, inkişafı, habelə ədalətli cəmiyyətin yaradılması üçün əsas olacaq bir sıra digər analoji dəyərləri seçəcəklərini düşünmək daha çox məntiqlidir.

Bu prinsiplər hər bir şəxsi bərabər hüquqlarla təmin etməlidirlər. Eyni zamanda, reallıqda sosial və iqtisadi bərabərlik istənilən cəmiyyətdə elə tənzimlənməlidir ki, bu bərabərlik cəmiyyətin bütün üzvlərinin fərdi inkişafı üçün stimula çevrilsin.

Real həyatda insan hüquqlarını tez-tez ədalətli cəmiyyətin əsas prinsipləri ilə eyniləşdirirlər. İnsan hüquqlarının əsas xüsusiyyəti – onun universallığıdır (ümumiliyidir). Bu o deməkdir ki, insan hüquqları kişi və ya qadın olmasından, harada yaşamasından, harada işləməsindən, hansı dildə danışmasından və digər fərqlərdən asılı olmayaraq hər bir fərdə eyni dərəcədə aiddir. Burada universallıq abstrakt prinsip deyil.

İnsan haqları sistemi hər bir insanı praktiki səviyyədə bərabər hüquqlarla təmin edir.

İnsan haqlarının digər bir fərqli cəhəti onların minimal standartları, yəni ən aşağı hədləri müəyyən etməsindədir. Bu hədlər dövlət tərəfindən heç bir halda keçməməlidir, bu həddən sonra artıq insan ləyaqətini, mənliyini itirir, hətta onun varlığı belə təhlükə altında qala bilər.

Ümumilikdə, insan hüquqlarının formalaşması ideyası insanın ləyaqətinin olması inamına əsaslanıb ki, bunun da kökündə ilk növbədə insanın doğulandan ləyaqət sahibi olması durur. Bəşər ailəsinin bütün üzvlərinin doğulduqdan ləyaqət sahibi olmasının, habelə bütün insanların bərabər və bölünməz hüquqlara sahib olması fikrinin qəbul olunması bütün dünyada azadlıq, haqq-ədalət və sülh üçün zəmin təşkil edir.

İnsanların söz və vicdan azadlığının olacağı, qorxu və ehtiyacdan azad bir dünyanın yaradılması ideyası insanların çatmaq istədikləri ən yüksək dəyərdir.

Tarix göstərir ki, öz vətəndaşlarının hüquqlarını tanımayan ölkələr nəinki inkişaf etmir, həm də sonunda məhv olurlar. Buündan əlavə, həmin ölkələr qonşu ölkələr üçün, bəzi hallarda isə, faşist və kommunist rejimləri ilə olduğu kimi, bütün dünya üçün təhlükə mənbəyinə çevrilirlər.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, belə bir nəticə çıxarmaq olar ki, insan haqları cəmiyyəti idarə olunduğu siyasi və sosial-iqtisadi idarəetmə metodlarını tənzimləyən bütün ictimai sistemlərin, mexanizmlərin əsas prinsipi olmalıdır, yəni cəmiyyətdə qarşılıqlı münasibətlər insan haqlarına hörmət əsasında formalaşdırılmalıdır. Yalnız bu halda

***hər bir fərdin ləyaqəti müdafiə olunar;**
***hər bir şəxsin hərtərəfli inkişafı üçün imkan yaranar;**
***hamı bərabər hüquq və azadlıqlarla təmin olunar;**
***cəmiyyətin aztəminatlı üzvlərinə dəstək verilər.**

Məhz , bu cür cəmiyyət ədalətli hesab oluna bilər.

**2-ci dərs. Azadlıq və məsuliyyət.**

***Dərsin məqsədi:*** *azadlıq və məsuliyyət anlayışları ilə tanışlıq; azadlıq və özbaşınalıq arasında fərqin dərk edilməsi; azadlıq və məsuliyyət, məsuliyyət və kamillik, məsuliyyət və özünüifadə arasında əlaqənin dərk edilməsi; öz mövqeyinin ifadə edilməsi,vərdişlərinin inkişaf etdirilməsi və bu mövqenin müdafiəsi; ictimai məqsəd və fərdi tələbatların ahəngdar qarşılıqlı təsiri prinsiplərinin dərk edilməsi.*
***Metodlar:*** *fərdi iş, mühazirə, oyun, müsabiqə.*
***Əlavə vəsaitlər***: *müsabiqədə qaliblər üçün hədiyyələr.*

Dərsin gedişi
***1. bir nəfər üçün 5 dəqiqə:***
*-Arzu nədir? Ən vacib arzunuzu kağız üzərində yazın.*
*-Azadlıq nədir? (azadlıq mövzusunda klaster tərtib edin)*




***Ümumilikdə sinfə verilən suallar:***

1) *Arzunun yerinə yetməsi üçün nə lazımdır? (azadlıq)*
2) *hər bir Adam azaddırmı? (bəli)*
3) *onda, nə üçün bizim arzularımız hərdən yerinə yetmir? məqsədyönlülüyün, iradənin kifayət qədər olmaması; arzuların yerinə yetməsi üçün fiziki və ya sosial şəraitin olmaması; arzuların qanunsuzluğu).*

**İdrak**

Bizim hər birimiz unikal olduğumuz üçün, biz xarakterin təzahürləri, arzular, həyatda məqsədlər, qabiliyyətlərimiz və nailiyyətlərimizlə bir-birimizdən fərqlənirik.… Lakin bizim hər bir arzumuz həyata keçə bilməz.

Doğrudan da, biz hərəkətlərimiz və arzularımızın həyata keçməsində azadıq. **Azadlıq – fiziki, hüquqi qanunlarla və insanın vicdanı ilə məhdudlaşdırılan seçim imkanıdır. Əgər bizim arzularımız hər hansı fiziki qanun və ya ictimai davranış qaydası ilə ziddiyyət təşkil edirsə, bu halda, ya fiziki və ya hüquqi qanun və ya vicdan mənim qanunazidd arzumun həyata keçirilməsinə mane olur və yaxud da mən həmin arzunun həyata keçirilməsinə görə cəza alıram. Məsələn, uçmaq arzusu - pəncərədən yıxılma – ölüm; varlı olmaq arzusu – oğurluq – həbsxana; özünü təsdiq etmə arzısı – yalan – vicdan əzabı. Lakin bu hələ azadlıq anlayışının tam izahı deil.**

***Ümumilikdə sinfə verilən suallar:***

1) *azadlıqdan bəhrələnmək üçün insana nə lazımdır? (məsuliyyət)*
2) *məsuliyyət nədir? (öz fəaliyyəti və fəaliyyətinin nəticəsinə görə cavab vermək qabiliyyəti)*
3) *əgər kimsə sizin məsuliyyət payınıza qarışsa nə baş verəcək? (azadlığın pozulması)*
4) *əgər insan öz məsuliyyətini dərk etməzsə nə baş verər? (cəza)*
5) *İnsan nəyə görə qanunazidd arzularının həyata keçirilməsinə görə məsuliyyət daşıyır? (bir insanın qanunazidd arzuları digər insanların hüquqlarını pozur)*

Nəticə: **Azadlıq – seçim imkanının və öz hərəkətlərinin nəticələrinə görə cavabdehlik daşımaq imkanıdır.** Biz hamımız məsul olmaq azadlığına, səhvlər etmək və onların üzərində öyrənmək azadlığına can atırıq və əgər kimsə bizim məsuliyyət sferamıza qarışırsa, biz hüquqlarımızın pozulduğunu hiss edirik, belə ki, bizim azadlığımız pozulur. Amma əgər bizim səhvlərimiz digər insanların hüquqlarını pozursa, onda hətta biz öz səhvimiz üzərində öyrənsək də, səhvimizdən peşiman olsaq da və hətta özümüzə və başqalarına heç vaxt həmin səhvi bir daha təkrar etməməyə söz versək də, biz cəzamızı çəkməyə hazır olmalıyıq. Çünki, biz təcrid olunmuş şəkildə deyil, digər insanların əhatəsində, cəmiyyətdə yaşayırıq.

**Qruplarda müsabiqə – 10 dəqiqə.**

Hər bir qrup mümkün qədər dəqiqliklə azadlıq və özbaşınalıq arasındakı fərqi dəqiq və əhatəli şəkildə səciyyələndirməlidir.
Qrupların nümayəndələri öz fikirlərini, ifadələrini şifahi oxuyurlar. Müəllim cavabları təhlil edir və qalib qrupu mükafatlandırır.

**Fərdi iş – 10 dəqiqə**

Şagirdlər cədvəli doldururlar:

| Uşaq | Yeniyetmə | Böyük |
|---|---|---|
| | | |

1-ci sütun: biz uşaq yaşlarında necə qərarlar qəbul edirik?
2- ci sütun: biz hal-şazırda hansı qərarlar qəbul edirik?
3- ci sütun: siz gələcəkdə hansı qərarlar qəbul edəcəksiniz?

Müzakirə üçün suallar:

1. İnsan böyüdükcə azadlıq necə dəyişir? Bu zaman məsuliyyət dərəcəsi necə dəyişir?
2. Siz gələcəkdə böyük azadlığınızın olmasını istərdinizmi? Bəs məsuliyyət sahibi olmağı?
3. Sizin fikrinizcə, ciddi məsuliyyət daşıyan insanlar (iri şirkətlərin, ictimai təşkilatların rəhbərləri) xoşbəxtdirlərmi?
4. Nəyə görə insan vacib, ciddi bir işlə, bizneslə, yaradıcılıqla məşğul olarkən insan özünü xoşbəxt hiss edir? (özünüifadə).
5. Sizin fikrinizcə, bu cür insan öz həyatının sahibidirmi, yoxsa o kiminsə buyruğu ilə hərəkət edir? (sahib). Bu insana rahatlıq və sevinc gətirirmi?

Nəticə: İnsan yetişdikcə, üzərinə nə qədər çox məsuliyyət götürsə, elə həmin qədər azadlıq və müstəqillik əldə etmiş olur. Üzərinə məsuliyyət götürməklə insan özünü ifadə edir, buna görə də o özünü xoşbəxt hiss edir, baxmayaraq ki, ilk baxışda məsuliyyət borc və həyəcan hissindən başqa bir şey deyil.

Azadlıq və məsuliyyət – kamil insana xas cəhətlərdir və insan kamilləşdikcə, o

daha çox məsuliyyətli və azad olur.

Lakin biz həmçinin onu da müəyyən etmişik ki, fərdi məqsədi seçərkən biz onun ictimai maraqlara uyğunlaşdırılmasına görə də məsuliyyət daşıyırıq. Biz yalnız bundan sonra öz fərdi məqsədlərimizi həyata keçirmək üçün azad olacağıq. Yəni, heç kimin hüquq və azadlıqlarını pozmamalıyıq. Bu da məsuliyyətin aspektlərindən biridir. Əks halda biz azadlığımızı, hörmət hissini, bəzi hallarda isə sağlamlığımızı və hətta həyatımızı da itiririk.

Məsələn, sahibkarlıq fəaliyyətinə başlayarkən insan onun biznes fəaliyyəti nəticəsində ölkənin və onun vətəndaşlarınını iqtisadi və sosial cəhətdən çiçəklənməsi barədə düşünməlidir. Əksinə, müştərilərin və dövlətin maraqları hesabına mənfəət qazanmağa yönəlmiş biznes iflasa uğrayacaq, sahibkar özü isə buna görə cəzalana bilər.

Azadlıq – hər bir insanın ayrılmaz hüququdur. Digər tərəfdən, təsəvvür edin ki, siz totalitar cəmiyyətdə yaşayırsınız və bu cəmiyyətdə sizin fərdi məqsədiniz, marağınız nəzərə alınmır. Məsələn, sizin ölkədən getmək ixtiyarınız yoxdur. Digər bir misal:təsəvvür edin ki, sizə nasist Almaniyasında olduğu kimi, yəhudi millətinin nümayəndəsi ilə ailə qurmağa icazə vermirlər və bunu dövlətin ali məqsəd və maraqları ilə izah edirlər. Bu halda, totalitar rejim, bürokratiya və hakimiyyətin konstitusiyaya zidd olması üzündən fərdi məqsədləri həyata keçməyən şəxsin dissident mövqeyi tutmağa mənəvi hüququ əmələ gəlir. Dissident və ya zorla qəbul etdirilən fikirlə razı olmayan insan özünün ümumbəşəri hüquqlarını, məsələn, vicdan azadlığı, sərbəst hərəkət, ailə qurmaq, özünü ifadə kimi hüquqlarını, yəni, ümumbəşəri mənada ictimai maraqlara zidd olmayan, lakin hakim şəxsin, diktatorun, çoxluğun iradəsinə uyğun gəlməyən hüquqlarını qorumağa çalışır. Belə vəziyyətdə insan aşağıdakı kimi hərəkət edir:

- ədalətsizlik gördükdə susmur
- ədalətsizlik və öz nöqteyi-nəzəri barədə car çəkdikdə digər insanların hüquqlarını pozmur
- öz mənəvi mövqeyinə görə əziyyət çəkməyə, təqibləri qəbul etməyə, lakin sona qədər mübarizə aparmağa hazırdır

## «İstəyirəm-Etməliyəm» mövzusunda treninq - 15 dəqiqə

Qruplarda keçirilir. Şagirdlərdən biri fərd rolunda çıxış edərək özünün istənilən bir arzusunu bildirir – «Mən istəyirəm ki, .........» («...hər gün məktəbdə yaxşı qiymətlər alım»). Qrupun qalan üzvləri ictimai institutların (məktəb, hökumət, Təhsil Nazirliyi, ictimai təşkilat) rolunu oynayırlar. Bu institutlar həmin şagirdə «Bunun üçün sən yaxşı oxumalısan, dərsə vaxt ayırlmalı və səy göstərməlisən, dərsləri buraxmamalısan», «Bu mümkün deyil, çünki sən yaxşı oxuyan şagird deyilsən» (səbəbini izah etməklə) və ya «ondansa sən yaxşı biliklər əldə etməyə, insanlarla yaxşı münasibətlər qurmağa, dostlar tapmağa çalış», və yaxud da «Yaxşı qiymətlər səni ərköyünləşdirəcək» deyirlər.

Oyunun qaydaları:

1. Fərdin düzgün davranışı – öz istəyini nəzərə almaq şərti ilə ictimai faydası çox olan fikri əsas götürmək. Fərd cəmiyyətin istənilən fikrinə diqqət yetirməlidir və vəziyyətdən asılı olaraq öz arzularını korreksiya etməlidir.
2. Cəmiyyət fikirlərində ictimai maraqları əsas götürməlidir. Əgər cəmiyyətin fikirləri avtoritar və ədalətsizdirsə, bu halda fərd dissident mövqeyini tuta bilər. Bu halda o cəmiyyəti ümumi sözlərlə deyil, məntiqi cəhətdən əsaslanmış fikirlərlə tənqid etməlidir.

Şagirdlərlə birlikdə məktəb həyatından bir neçə misalı nəzərdən keçirin

1. Siz məktəb yoldaşınızın sinifdən necə kitab oğurladığının şahidi olmusunuz
2. Sinifndən iki şagird heç vaxt dərsə cavab vermədikləri halda rübün sonunda yaxşı qiymətlər alırlar.
3. Şagirdlərdən biri sizin qələminizi götürüb və onu qaytarmaq barədə düşünmür
4. İmtahanda yaxşı qiymət almaq üçün sizdən pul istəyirlər

Müxtəlif səviyyəli «məsuliyyətlər» arasında dəqiq sərhədləri müəyyən edin
- bədbəxt hadisələrin müşahidə olunması
- imkan olduğu təqdirdə, iştirak
- şəxsi müqavimət
- cəmiyyətdə qeyri-düzgün hərəkətlərə qarşı fəal hərəkət

**Dərk etmə.** Şagirdlərdən mühazirəni yekunlaşdırmağı və oyunun nəticələri əsasında fikir yürütməyi xahiş edin.

**Nəticə:** İctimai məqsədin həyata keçməsi fərdi məqsədin həyata keçməsinə zəmanət verməlidir; digər tərəfdən, fərdi məqsəd ictimai məqsədə zidd olmamalıdır. Bundan əlavə, insan inamla öz fikrini bildirməlidir.

Şagirdlərdən növbəti dərs üçün dünya, Azərbaycan tarixindən, insanların və ya təşkilatların ədalətsizliklə gündəlik mübarizəsinə dair nümunə tapmağı xahiş edin.

»»»»»» »»»»»»

## 3-cü dərs «Yox sözünü necə deməli»

**Məşğələnin məqsədi.** Şagirdlərlə bərabər, insanların nəyə görə «yox» deməyə çətinlik çəkdiklərini öyrənmək, özünü və başqalarını yaxşı tanımaq imkanı yaratmaq, şagirdlərə «yox» deməyi bacarmamağın nəyə gətirə biləcəyini anlaması üçün imkan yaratmaq, rüşvətxorluq probleminin dərk edilməsi, korrupsiyaya «yox» deməyin öyrədilməsi.

**Dərsin gedişi.**
**Yazı taxtasına çağırış**

Şagirdlərdən xahiş edin ki, nə vaxtsa «yox» dedikləri hadisəni yada salsınlar.

**Dərk etmə.** Mətni paylayın. Qoy şagirdlər A.P.Çexovun «Ağzıboş» əsərinin birinci hissəsini oxusunlar (mətnin rollar üzrə də oxutmaq olar).
***A.P.Çexov.***

Bir neə gün əvvəl mən uşaqların mürəbbiyəsi Yuliya Vasilyevnanı kabinetimə dəvət etdim. Hesablaşmaq lazım idi.

- Əyləşin, Yuliya Vasilyevna!- deyə mən ona müraciət etdim. Gəlin hesablaşaq. Sizə, yəqin ki pul lazımdır, lakin siz o qədər utancaqsınız ki, özünüz istəməyəcəksiniz.. Hə… Biz sizinlə ayda 30 manata razılaşmışdıq…
- 40 manatdan…
-Xeyr, 30 manatdan… Mən burada qeyd etmişəm… Mən həmişə mürəbbiyələrin pulunu 30 mmnatdan ödəmişəm… Hə… Siz iki ay yaşamısnız…
- İki ay və beş gün…
-Düz iki ay… Məndə belə yazılıb. Deməli, mən sizə 60 rubl verməliyəm… Əgər 9 bazar gününü çıxsaq…Axı siz bazar günləri Kolya ilə məşğul olmamısınız, ancaq onu gəzdirmisiniz…hə, üç dəfə, bayram günlərində…

Bu sözlər Yuliya Vasilyevnaya od qoydu, onun qaşları çatıldı… Lakin bircə kəlmə də demədi…

**Təfəkkür**. Onlara belə bir sualla müraciət edin:
*«Siz əsas qəhrəmanların xarakteri barədə nə deyə bilərsiniz?»*
*«Sizcə, əsas qəhrəmanın öz mövqeynin müdafiə edə bilməməsi gələcəkdə nəyə gətirə bilər?»*

Onlara fikirləşmək və cavab vermək üçün vaxt verin.

<u>Mətnin ikinci hissəsini oxuyun</u>

- Üç gün bayrama düşüb…. Deməli 12 manat da çıxırıq.. dörd gün Kolya xəstə olub və siz onunla dərs keçməmisinz… Həmin günlərdə siz yalnız Varya ilə məşğul olmusunuz… Üç gün sizin dişləriniz ağrıyıb və mənim xanımım sizə nahardan sonra dərs keçməməyə icazə verib… 12, üstə gəl yeddi, bərabərdir 19… Bunu da çıxsaq… qalır…. hə… cəmi qırx bir rubl, düzdür?

Yuliya Vasilyevnanın sol gözü qızardı və yaşla doldu. Onun çənəsi əsməyə başladı. O əsəbindən öskürməyə başladı, burnu axdı, lakin bircə kəlmə də danışmadı…

-Yeni il qabağı siz fincanla nəlbəki sındırmısız. İki manat da buna görə çıxırıq… Əslində fincan bahalı fincandır… o ailə əşyasıdır, yadigardır… amma, daha nə edək… Nədə itirməmişik ki, bunda qazanaq… bundan başqa, sizin nəzarətsizliyiniz ucbatından Kolya ağaca dırmaşıb və pencəyi cırılıb… on rubl da buna görə çıxırıq… Yenə də sizin nəzarətsizliyinizdən mürəbbiyə Varyanın ayaqqabılarını oğurlayıb… Siz hər şeyə nəzarət etməlisiniz… Axı siz maaş alırsınız… Deməli, beş rubl da buna çıxırıq… Sonra… Yanvarın 10-da siz məndən on rubl almısınız…
-Mən almamışam!
-Axı məndə yazılıb!
Yaxşı… olsun…

- Qırx birdən iyirmi yeddi çıxırıq, yerdə qalır on dörd rubl…

Onun hər iki gözü doldu… Düz, uzunsov burnu üzərində tər göründü… Yazıq qızcığaz…
-Mən cəmi bir dəfə pul almışam, deyə o titrək səslə dilləndi… Mən sizin arvadınızdan üç rubl almışam.. Bundan sonra isə almamışam…
-Bəs belə? Məndə isə bu haqda heç nə yazılmayıb?! Üç rubl da buradan çıxırıq… qalır on bir rubl.. Buyurun, əzizim, bu da sizin pullarınız… üç, üç üç, bir bu da bir… Alın, götürün…

Mən bu sözləri deyib on bir rubl pulu ona uzatdım…O, pulu alıb titrəyən əlləri ilə cibinə qoydu.

-Mersi, deyə o cavab verdi…

***İndi isə şagirdlərə müraciət edin. Onların ehtimallarının nə dərəcədə doğru olduğunu yoxlayın… Əsərin sonunu oxuyun…***

************

Mən yerimdən sıçrayıb qalxdım və otaqda gəzişməyə başladım… Məni qəzəb bürüdü…
-Nəyə görə, «mersi»?, deyə mən soruşdum
-Pullar üçün
-Axı mən sizi soydum, lənət şeytana, mən sizi qarət etdim axı… Axı, mən sizin pullarınızı oğurladım… Nəyə görə, «mersi»?
-Çünki, başqa yerlərdə mənə heç bunu da vermirdilər….
-Vermirdilər? Əlbəttə verməzlər! Mən sizinlə zarafat etdim…Sizə qəddarcasına dərs verdim… Mən sizin səksən rublunuzun hamısını verəcəyəm… Götürün, onlar bax bu zərfin içində, sizin üçün hazır qoyulub… Amma, məgər bu qədər də əfəl olmaq olar? Siz nə üçün etiraz etmirsiniz? Niyə susursunuz? Məgər bu dünyada dişinlə, dırnağınla mübarizə aparmasan, yaşamaq olar? Məgər bu qədər də iradəsiz olmaq olar?

O, cavabında kinayə ilə güldü və mən onun üzündən oxudum - «olar»

Mən ondan qəddar komediyaya görə üzr istədim və bütün səksən manatı ona verdim. Bu onu heyrətə gətirdi… O utanaraq yenə də təşəkkür etdi və çıxdı…. Mən onun ardınca baxaraq düşündüm – Güclü olsan, bu dünyada yaşamağa nə var ki…

*Şagirdlərə aşağıdakı şeiri oxuyun.*

Milliyyətçiliyin qurbanı olan keşiş Nimola aşağıdakı şeri yazıb:

Əvvəlcə onlar yəhudiləri aparmağa gəldilər,
Mən onların arxasında durmadım,
Çünki, mən yəhudi deyildim…

Sonra onlar kommunistləri aparmağa gəldilər,
Mən onların arxasında durmadım,
Çünki, mən kommunist deyildim…

Sonra onlar həmkarların üzvlərini aparmağa gəldilər,
Mən onların arxasında durmadım,
Çünki, mən həmkarların üzvü deyildim…

Sonra onlar məni aparmağa gəldilər,
Lakin, mənim arxamda durmağa daha adam qalmamışdı…

*Sinfə belə bir sualla müraciət edin:*

Bu şerdə nədən danışılır? *(həmrəylik, vətəndaş məsuliyyəti, tolerantlıq – fəal mövqe, digər insanların hüquqlarına passif yanaşmamaq, onları müdafiə etmək).*
*Birinci əsərlə bu şer arasında nə kimi əlaqə var?*

-öz hüquqlarını qorumağı bacaran insan, başqalarının da hüquqlarını qoruya bilər

Yoxlama təşkil edin. müstəqilliyə dair test – 10 dəqiqə.

Ötən dərsimizdə biz insanın seçim azadlığının olması barədə danışdıq: insan ümumi məqsədi həyata keçirməsi şərti ilə öz şəxsi məqsədini də həyata keçirə bilməlidir; ədalətsizliyə uğradıqda insan müqavimət mövqeyini tuta bilər. Gəlin bu barədə bir qədər geniş danışaq.

Hazırda belə bir fikir mövcüddür: «Mən ancaq özüm üçün, yalnız öz rifahım üçün məsuliyyət daşıyıram. Bu dünyada hamı özü özünə gün ağlayır». Bu gün dünyagörüşü öz maraqları naminə hər şeyi və hamını qurban verməyə qadir olan eqoist insan formalaşdırır. Sonda isə bu cür insanın mövqeyi, keşiş Nimolanın başına gələn hadisə ki-

mi, onun özünə qarşı yönəlir.

Yəqin ki, bizim çoxlarımız öz yaxınlarımıza kömək etməyə çalışarıq. Biz sadəcə olaraq baş verən haqsızlığa laqeyd qala bilmərik və əgər söhbət yaxınlarımızdan gedirsə, çətin ki, qorxu hissi bizi saxlasın.

Lakin, məsuliyyət hissi elə səviyyədə olmalıdır ki, o bizi təkcə öz yaxınlarımıza deyil, yadlara da kömək etməyə yönəltsin. Hətta bu bəzi narahatlıqlara, hətta həyat riski ilə əlaqədar olsa belə. Bu, bir növ müxtəlif şəraitdə meydana çıxan mənəvi məsuliyyətdir:

· küçədə yatmış insana qarşı qayğı
· nəqliyyatda yerini başqasına vermək bacarığı
· məktəbdə, cəmiyyətdə, ölkədə azlıqların hüquqlarının müdafiəsi
· ümumi rifah naminə fədakarlıq (qəhrəmanlıq, vətənpərvərlik)

Hər şey laqeyd olmamaqdan başlanır. Bunun ardınca mənəvi, vətəndaş cəsarəti gəlir ki, bu da başqalarının fikrindən asılı olmamağın əlamətidir.

Əlavə material: *«İnsanı heç vaxt hamı tərifləməyəcək. Əgər o yaxşı insandırsa, pis adamlar onda həmişə pis cəhətlər tapacaq, ona güləcək və ya onu mühakimə edəcəklər. Əgər insan pisdirsə, yaxşılar onu heç vaxt təqdir etməyəcəklər. İnsanı hamının tərifləməsi üçün, o yaxşı qarşısında yaxşı olmalı, pis insan qarşısında isə pis görünməlidir. Lakin, bu halda həm yaxşılar, həm də pislər onun rol oynadığını başa düşəcəklər, həm birincilər, həm də ikincilər ona nifrət edəcəklər. Yalnız bir yol var: xeyirxah olmaq və başqalarının nə fikirləşdiyinə diqqət etməmək, öz həyatının mükafatını isə insanların fikirlərində deyil, özündə axtarmaq.*

***L.N. Tolstoy***

Əgər cəmiyyətdə ədalətsizliyin, cinayətkarlığın və dözümsüzlüyün qarşısını məsul şəxslər açıq şəkildə almasalar, sözdə deyil hərəkətləri ilə demokratik cəmiyyətin vətəndaşının hüquq və azadlıqlarını təmin etməsələr, bunların qarşısını almaq mümkün olmaz.

### 1. Qruplar arasında müsabiqə - 15 dəqiqə:

Hər bir qrup dünya, Azərbaycan tarixindən insanların və ya təşkilatların dövlət və ya siyasətlə dəstəklənən ədalətsizliklə gündəlik mübarizəsinə dair daha çox nümunə tapmalıdır. Hər bir qrupun məruzəçisi öz cavablarını oxuyurlar. Müəlllim cavabları təhlil edir.. Qalib – ən çox düzgün variant seçmiş şəxsdir. Mükafat da qalibə verilir.

Martin Lyuter Kinq ABŞ-da qara dərililərə qarşı ayrıseçkiliyə etiraz etdiyinə görə həbsxanaya atıldıqdan sonra, onun yazdığı sətirlər. O bütün həyatı boyu ABŞ-ın qara dərili vətəndaşlarının ağlar kimi hüquqlara malik olması uğrunda mübarizə aparıb.

«.... qanunlar iki cür olur - ədalətli və ədalətsiz. Ədalətli qanuna tabe olmaq təkcə hü-

quqi deyil, həmçinin mənəvi məsuliyyətdir. Lakin ədalətsiz qanuna tabe olmamaq kimi mənəvi məsuliyyət də vardır. Ədalətsiz qanun da insan tərəfindən yazılıb, onun kökləri əbədi deyil. İnsan şəxsiyyətini ucaldan istənilən qanun ədalətlidir. Ədalətsiz qanun – elə bir qaydadır ki, onun əsasında çoxluq və ya hakimiyyətə malik bir qrup insan azlığını özünə tabe etdirir. Hakimiyyətdə olanların özlərinə isə bu qanun şamil olunmur. Bu fərqin özü də qanuniləşdirilib.
… Ədalətsiz qanunu pozmuş insan bunu açıq şəkildə və cəzasını çəkməyə hazır olaraq etməlidir. Vicdanının ədalətsiz bildiyi qanunu pozan insan şüurlu surətdə və könüllü surətdə həbsxanaya gedir ki, bu ədalətsizliyə münasibətdə cəmiyyətin vicdanını oyatsın. Beləliklə, o qanuna yüksək səviyyədə hörmət etməsini nümayiş etdirir».

**2. qruplarda iş - 5 dəqiqə:**

Hər bir qrup insanın mənəvi məsuliyyətinə tərif verməlidir. Məruzəçilər cavabları oxuyurlar.

***Müstəqillik» mövzusunda yoxlama***

Bu sorğuda sualların bir neçə cavab variantları var. Onlardan daha çox uyğun gələnini seçmək lazımdır.

1. Məktəbi bitirdikdən sonra siz gələcək peşəniz və ya təhsiliniz barədə necə qərar qəbul edəcəksiniz?
a) maraqlarınıza uyğun olaraq, bacarıqlarınızı qiymətləndirərək bu məsələni müstəqil şəkildə həll edəcəksiniz;
b) valideynlərinizin və qohumlarınızın məsləhətlərinə qulaq asacaqsınız;
v) yaxın dostların məsləhətinə qulaq asacaqsınız.

2. Qəbul imtahanlarında siz nəyə güvənəcəksiniz?:
a) yalnız öz qüvvənizə;
b) əlaqələrinizə və qəbul imtahanlarının əlverişli nəticələrinə;
v) yalnız kömək etməyi söz vermiş insanların yardımına.

3. Təhsil alarkən siz imtahanlara necə hazırlaşırsınız?
a) əməksevərliyinizə güvənirsiniz;
b) hərdən kömək üçün sinif yoldaşlarınıza və müəllimlərə müraciət edirsiniz;
v) ancaq başqalırının köməyinə arxalanırsınız.

4. Siz təhsili başa vurduqdan sonra işə necə qəbul olunmağı düşünürsünüz?
a) bölgü üzrə;
b) təcrübəli insanların məlumatından istifadə etməklə;
v) əlaqələr hesabına işə qəbul olunmaq.

5. Siz çətin vəziyyətlərdə necə qərar qəbul edirsiniz?

a) ancaq öz təcrübə və biliyimə arxalanıram;
b) bəzən dostlarımla məsləhətləşirəm;
v) həmişə insanlarla məsləhətləşirəm.

6. Sizcə, ailə qurarkən sizin seçiminizdə əsas rolu nə oynayar?
a) tatamilə müstəqil qəbul edilmiş qərar;
b) yaxınların və tanışların fikirləri;
v) məndən asılı olmayaraq valideynlərin qəbul etdikləri qərar.

7. Əgər sizin valideynləriniz uzunmüddətli ezamiyyətdə olarsa, siz həyati vacib qərarlar qəbul etməyə qadirsinizmi?
a) bəli;
b) bəli, lakin insanlarla məsləhətləşmələrdən sonra, lakin, ən yaxşısı hər şeyi valideynlərin gəlməsinə qədər təxirə salmaqdır;
v) xeyr.

8. Bir neçə il əvvəl siz mövqeyinizi necə müdafəi edirdiniz? (12 yaşınız olanda)
a) həmişə müdafiə edirdim;
b) valideynlərlə mübahisə edirdim və bizim hər birimiz o biri tərəfin də mövqeyini nəzərə almaqla öz mövqeyində qalırdı;
v) bir çox hallarda necə hərəkət etmək barədə müstəqil qərar verə bilmədiyimdən, fikrimdən daşınırdım.

9. Hazırda siz evdəkilərlə, iş yoldaşlarınızla, dostlarınızla ünsiyyətdə öz mövqeyinizi nə dərəcədə möhkəm müdafiə edirsiniz?
a) insanlardan və şəraitdən asılı olmayaraq həmişə müdafiə edirəm;
b) kifayət qədər tez-tez müdafiə edirəm;
v) çox az-az hallarda mövqeyimi müdafiə edirəm, əksər hallarda mövqeyimdən çəkilirəm.

10. Siz peşəkar, intellektual və ictimai sferalarda şəxsiyyət kimi necə formalaşırsınız?
a) mən bütün gücümü və vaxtımı dərsə həsr edirəm;
b) mənim üçün yaxın adamların fikri vacibdir;
v) mən tamamilə onların fikrinə etibar edirəm.

11. Əgər sizin yaxınlarınızın səhhəti pisdirsə və əgər siz görürsünüz ki, onlar özləri səhhətlərinin qeydinə qala bilmir və bununla da özlərinə ziyan vururlarsa, bu zaman siz :
a) onları səhhətlərinə fikir verməyə məcbur edirsiniz;
b) onlara eyham vurursunuz və mütəmadi olaraq onlara bu barədə xatırladırsınız;
v) bu barədə fikirləşirsiniz, lakin faktiki olaraq heç bir kömək göstərmirsiniz.

**Yoxlamanın nəticələrinin qiymətləndirilməsi – 5 dəqiqə**

(a) cavab variantının seçilməsinə şagird 4 balla qiymətləndirilir. Əgər o (b) cavab variantını seçibsə ona 2 bal, (v) cavab variantını seçibsə, 0 bal alır. Yekunda balların ümumi miqdarları hesablanır və bunun əsasında onun şəxsiyyətində «müstəqillik» xüsusiyyətinin inkişaf səviyyəsi müəyyənləşdirilir.

Balların ümumi sayı 33-dən 44-ə qədər olarsa, o zaman həmin şəxsin öz fikirlərində və hərəkətlərində həddən artıq müstəqil olduğu və ətrafdakıların fikirləri ilə ümumiyyətlə hesablaşmadığı qənaətinə gəlinir.

Əgər balların sayı 15-29 olarsa, onda belə bir nəticə çıxır ki, həmin şəxs kifayət qədər müstəqildir, lakin öz müstəqilliyində başqalarının fikirlərinə hörmətlə yanaşır.

Balların ümumi sayı 0-14 olarsa, bu zaman fərd başqa insanlardan asılı, qeyri-müstəqil, özünə inamı olmayan bir şəxs kimi nəzərdən keçirilir.

## 4-cü dərs. Qərarı necə qəbul etməli

**Dərsin məqsədi**: xeyir və şər məsələlərinin nəzərdən keçirilməsi; mənəvi qərar qəbul edilməsi vərdişlərinin inkişaf etdirilməsi; davranışın normalara uyğunluğunun və qanunlara hörmət hissinin artırılması.

Metodlar: mühazirə, əqli hücum.

### 1.Mühazirə

Ötən dərsimizdə biz azadlıq və məsuliyyət haqqında dınışdıq. Biz qərar qəbul etməkdə azadıq və qəbul etdiyimiz qərarlarımızın nəticələrinə görə məsuliyyət daşıyırıq. Bu gün biz mürəkkəb və tanış olmayan şəraitdə necə qərar qəbul etmək barədə danışacağıq. Bu cür vəziyyətlərdə biz adətən necə hərəkət etmək lazım olduğunu bilmirik. Bəzən isə bilirik, lakin başqa cür hərəkət edirik. Bəs sonradan peşmançılıq, utanc verməyəcək qərarları qəbul etməyi necə öyrənmək olar? Başqa sözlə, öz hərəkətlərinin motivasiyasını necə nəzarətdə saxlamaq olar?

### 2. Əqli hücum

1. Dostlarınızın hansı xüsusiyyətlərindən xoşunuz gəlmir, insan hansı xüsusiyyətləri barədə danışmamağa üstünlük verir? (ədalətsizlik, qisasçılıq, yalan, məsuliyyətsizlik, istismar, təkəbbür, satqınlıq və qabaqcadan pis fikrə düşmə).

2. Biz dostlarımızın hansı xüsusiyyətləri ilə fəxr edirik, biz hansı xüsusiyyətlərimizlə tanınmaq istərdik? (ədalətlilik, düzlük, xeyirxahlıq, rəhmlilik, ləyaqət, xidmət, qurban vermək, özünü başqasının yerinə qoymaq bacarığı (empatiya), sədaqət, comərdlik).

Şagirdlərdən xahiş edin ki, xeyirxahlıq kimi qiymətləndirdiyimiz xüsusiyyətləri birləşdirən ümumi əlaməti göstərsinlər. Həmçinin pis xüsusiyyət adlandırılan cəhətlər üçün də ümumi cəhəti tapın.

Əgər çətinliklər meydana çıxırsa, şagirdlərdən əvvəlcə xeyirxah cəhətlərdən bir neçəsinin tərifini verməyi xahiş edin və bütün bu tərfilər üçün ümumi olan sözü və ya söz birləşməsini tapın. Bu «başqalarının» və «başqaları üçün söz»ləridir.

Mənfi xüsusiyyətlərin tərifinə gəldikdə isə bu ümumi söz «özüm üçün» sözüdür.

Hamının mənfi xüsusiyyət kimi qəbul etdiyi xüsusiyyətlərin əsasında eqoizm dayanır. Onların hamısı cismani istəklərin ührəvi istəklər üzərində hakimiyyətinə sübutdur. Onlar cəmiyyətdə şəri doğururlar.

Bütün xeyirxah xüsusiyyətlər səliqəlilik və dəqiqlikdən başlayaraq bağışlamaq və cəsarət kimi qəhrəmanlıq xüsusiyyətlərinə qədər bütün xeyirxahlıqlar təmənnasızlığın ifadəsidir. Təmənnasızlıq – vicdanın hökmünə cavabdır. Bu - rüh bədən üzərində hakim olduqda baş verir. Cəmiyyətdə xeyir bu cür təzahür edir.

Özün üçün və ya başqaları üçün – bu insanın hərəkətlərinin motivasiyasıdır.

«Özüm üçün, yoxsa başqası üçün?» sualının cavabı bizim necə hərəkət etməyimizi müəyyən edə bilər.

**Hadisəni təhlil edin.**

«Səbinə 11-ci sinifdə oxuyurdu. O çox təvazökar, əməksevər qız idi. O həmişə ev tapşırığını səylə yerinə yetirirdi, elə buna gödə də müəllimlər ona layiq olduğundan yüksək qiymətlər yazırdılar. O ailədə yeganə qız idi və valideynləri onunla həmişə fəxr edirdilər və onu çox istedadlı uşaq hesab edirdilər. Onlar istəyirdilər ki, Səbinə məktəbi bitirdikdən sonra Tibb İnstitutuna daxil olsun. Səbinə də həmçinin valideynlərini çox sevirdi və onları məyus etməkdən qorxurdu. Buraxılış imtahanları yaxınlaşırdı. İmtahanları başqa məktəbdə keçiriləcəkdi və tamamilə başqa müəllimlər imtahan götürəcəkdilər. Məktəbdə söz gəzirdi ki, müəyyən məbləğdə pul müqabilində test imtahanlarının cavablarını əldə etmək mümkündür.

Səbinə bilirdi ki, onunla bir partada əyləşən qız çantasında qızıl əşyalar saxlayır, adətən o dərsdən sonra bu qızıl əşyaları taxar və sinfin qızları yanında lovğalanardı. Bütün sinif uşaqları əşyalarını sinifdə qoyub bədən tərbiyəsi dərsinə getdikdə, Səbinə sinfə qayıdıb sinif yoldaşının çantasından qızıl üzüyü oğurladı»…

Hər bir mənəvi qərarı qəbul edərkən şagirdlər özlərində aşağıdakı suallara cavab tapmalıdırlar. Onlar sualları özləriində qeyd edirlər.

1. Təsvir olunan hərəkət barəsində edildiyi şəxsin hüquqlarını pozmur ki ?
2. Bu hadisələr əksinə dönə bilərmi? (mən istəyərəmmi ki mənim başıma eyni hadisə gəlsin)?
3. Bu hadisə universaldırmı? (Hamının məhz bu cür hərəkət etməsini istəyərdimmi?)
4. Bu hərəkətin ayrılıqda insan və ümumilikdə cəmiyyət üçün nəticələri həm bilavasitə, həm də perspektiv müsbətdir, yoxsa mənfi?

***3. Sinfə ünvanlanacaq suallar:***

- Təsəvvür edin ki, siz mağaza sahibisiniz. Əgər kimsə sizin mağazanızdan nə isə oğurlasa idi, özünüzü necə hiss edərdiniz?
- Oğurluq etməyən insanlara oğurluq hadisəsi necə təsir edir?
- Hesab etmirsiniz ki, istədiyi hər bir şeyi almağa pulu olan adamın nəyisə oğurlaması ağlasığmazdır və əksinə əgər onun pulu yoxdursa bu tamamilə bəraət qazandırmaq olar? Əgər bu cür düşünürsünüzsə, onda oğurluğa insanın maddi vəziyyətindən asılı olaraq bəraət qazandırmaq olarmı?
- Əgər siz hesab edirsinizsə ki, mağaza sahibindən xoşunuz gəlmədiyi və ya buradakı mallar hədən artıq baha olduğu üçün buradan oğurluq etməyə bəraət qazandırmaq olar, o zaman bu, insanların oğurluğu hansı halda etməyi seçə biləcəkləri anlamına gəlmirki?
- Əgər hər bir şəxs istədiyi şeyi oğurlasa idi, nə baş verərdi?
- Oğurluq cəmiyyət üçün daha hansı problemlər yaradır.?
- Siz oğurluq edərkən bu hadisə sizin dəyərlərinizə və xarakterinizə, şəxsiyyətinizə təsir edirmi? Əgər edirsə, onda necə?
- Səbinəni bu hərəkətə sövq edən nə idi?

***Nəticə: Rüşvətin köməyi ilə məsələlərin həllinin mümkün olduğu cəmiyyətdə mənəvi prinsiplər həmişə pozulacaq.***

**4. Əqli hücum (10 dəqiqə):**

1. Hüquq pozmalara və cinayətlərə misallar göstərin (köçürmə, avomobil işıqforun qırmızı işığında keçdi, rüşvətxorluq, qətl, oğurluq).
2. Bu nümunələr, hadisələri törətmiş şəxsin intolerantlığını sübut edirmi? (imtahan götürülən şəxslərin bərabər şərait yaradılması hüququ; digər sürücülərin və piyadaların həyatını təhlükə altında qoymaq; insanın qanunda nəzərdə tutulmuş hüquqlarının pozulması; İnsanın həyat hüququnun pozulması; insanın mülkiyyət hüququnun pozulması).

Növbəti dərsdə biz sizinlə korrupsiya barədə danışacağıq. Əvvəlcədən şagirdlərin məktəbdə aparacağı sosioloji sorğu anketini tərtib edin. Sorğunun materialları sizə «Korrupsiya nədir?» mövzusunda diskussiya aparmaq üçün material verməlidir.

***Nümunə üçün suallar.***

(Əhmədova Zərifə. 9-cu sinif. Nərimanov rayonu 39 saylı orta məktəb)

1. Korrupsiya nədir?
2. Siz rüşvət vermisiniz və ya almısınızmı?
3. Korrupsiya dövlətə və cəmiyyətə hansı ziyanı vurur?
4. Korrupsiya dövlət idarələrinin işinin məhsuldarlığına təsir edə bilərmi?

5. Özəl müəssisələrdə korrupsiya varmı?
6. Ali məktəbə və işə qəbul olunarkən rüşvət vermək nə dərəcədə təhlükəlidir?
7. Rüşvət mənəviyyata necə zərbə vurur?
8. Dövlətimiz korrupsiya ilə mübarizə apara bilirmi?

Qarayeva Aytən Narimanov rayonu 39 saylı orta məktəb

1. Korrupsiya nədir?

2. Korrupsiya iqtisadiyyata necə təsir göstərir?

3. Korrupsionerləri necə cəza gözləyir?

4. Rüşvəti alan çox günahkardır, yoxsa verən?

5. Siz korrupsiyaya necə münasibət bəsləyirsiniz?

6. Nəyə görə korrupsiya yoxsul ölkələrdə yayılıb?

7. Dövlət korrupsiya ilə necə mübarizə aparmalıdır?

8. Korrupsiya sadə insanların maraqlarına toxunurmu?

———«»»»»»»»»»»»»»»»»»»»»»»»»»»»———

—_______________»»»»»»»»»»»»»»»»»»»»»»»»»»»»»»_———-

**5-ci dərs. «Korrupsiya nədir?»**

**Dərsin məqsədi**: 1. Şagirdləri «korrupsiya» anlayışı ilə tanış etmək; rüşvətxorluq probleminin dərk edilməsi, öz şəhərindəki, məktəbindəki insanları daha yaxşı tanımaq üçün tənqidi təfəkkürün inkişaf etdirilməsi

**Dərsin gedişi**

**Aşağıdakıları ardıcıllıqla həyata keçirin**

1.Əqli hücum - «Korrupsiyanın səbəbləri» (şagirdlərin fikirlərini yazı taxtasında həkk edin).

2 Korrupsiya anlayışına tərif verin (qruplarda iş)

3 Özünüzün və ya dostlarınızın həyatından korrupsiya ilə üzləşdiyiniz hallara misallar gətirin.

4. «Korrupsiya nədir» mövzusunda müəllimin mühazirəsi

5. Sosioloji sorğunun nəticələrini müzakirə edin.

6. Korrupsiya anlayışına qəti tərif verin.

7. «Əgər mən həyatımda korrupsiya ilə üzləşsəm, necə hərəkət edərəm» mövzusunda inşa

## Nəzəri material

**Korrupsiya** (latınca «corruptio» — pulla ələ alma), şəxsi varlanması üçün vəzifəli şəxsin xidməti vəzifəsindən birbaşa istifadə etməsi. Bir qayda olaraq, qanunun pozulması ilə müşaiyət olunur. Təriflərdən birinə görə, korrupsiya – təkcə birbaşa pulla ələ alma deyil. **Öz şəxsi mənfəəti, o cümlədən maddi mənfəəti üçün vəzifəli şəxsin səlahiyyətindən istifadə etməsi** də korrupsiyadır.

Korrupsiya davamlı inkişafa mane olan ciddi maneədir. O, həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə təhsilin, səhiyyənin inkişafı, yoxsulluğun aradan qaldırılması üçün nəzərdə tutulmuş dövlət vəsaitlərinin talan olunmasıdır.

Bütün dünyada varlı olmalı olan ölkələr yoxsul olaraq qalırlar. Dünyanın bir çox ölkələrində korrupsiya və rüşvətxorluğun yoxsulluğun və geriliyin səbəbi olmasını başa düşmək çox sadədir. Ən çox korrupsiya olan ölkələrin siyahısına nəzər yeirmək kifayətdir (həmin siyahı ayrı-ayrı ölkələrdə korrupsiya ilə bağlı məsələlərin həm xarici, həm də həmin ölkələri təmsil edən iş adamları və analitiklər tərəfindən korrupsiya ilə bağlı vəziyyətin necə qavrandığını əks etdirir. Korrupsiyanın Qavranma İndeksi Transparency International (Beynəlxalq Şəffaflıq) tərəfindən 2005-2006-cı illərdə 12 müstəqil institut tərəfindən təqdim olunmuş 18 tədqiqat işinin nəticəsində hesablanıb). (Cədvəl 1)

| | | | | |
|---|---|---|---|---|
| 1. Finlandiya 9 | 34. Tayvan 5 | 69. Xorvatiya 3,4 | 99. Mozambik 2 | 130. Yeni Qvineya 2 |
| 1. İslandiya 9 | 36. Bəhreyn 5 | 70. Braziliya 3,3 | 99. Ukrayna 2 | 130. Toqo 2 |
| 1. Yeni Zelandiya 9 | 37. Botsvana 5 | 70. Çin 3,3 | 105. Boliviya 2 | 130. Zimbabve 2 |
| 4. Danimarka 9 | 37. Kipr 5 | 70. Misir 3,3 | 105. İran 2 | 138. Kamerun 2 |
| 5. Sinqapur 9 | 39. Əmman 5 | 70. Qana 3,3 | 105. Liviya 2 | 138. Ekvador 2 |
| 6. İsveç 9 | 40. İordaniya 5 | 70. India 3,3 | 105. Makedoniya 2 | 138. Nigeriya 2 |
| 7. İsveçrə 9 | 41. Macarıstan 5 | 70. Meksika 3,3 | 105. Malavi 2 | 138. Venesuella 2 |
| 8. Norveç 8 | 42. Mavrikiya 5 | 70. Peru 3,3 | 105. Uqanda 2 | 142. Anqola 2 |
| 9. Avstraliya 8 | 42. Cənubi Koreya5 | 70. Səudiyyə Ərəbistanı 3,3 | 111. Albaniya 2 | 142. Konqo |
| 9. Hollandiya 8 | 44. Malaziya 5 | 70. Seneqal 3,3 | 111. Qvatemala 2 | 142. Kenya 2 |
| 11. Avstriya 8 | 45. İtaliya 4 | 79. Burkina-Faso 3,2 | 111. Qazaxıstan 2 | 142. Qırğızıstan 2 |
| 11. Lüksemburq 8 | 46. Çexiya Respublikası 4 | 79. Lesoto 3,2 | 111. Laos 2 | 142. Nigeriya 2 |
| 11. Böyük Britaniya 8 | 46. Küveyt 4 | 79. Moldova 3,2 | 111. Nikaraqua 2 | 142. Pakistan 2 |
| 14. Kanada 8 | 46. Litva 4 | 79. Mərakeş 3,2 | 111. Paraqvay 2 | 142. Sierra Leone 2 |
| 15. Honq Konq 8 | 49. Latviya 4 | 79. Trinidad və Tobaqo 3,2 | 111. Timor Lorosae 2 | 142. Tacikistan 2 |
| 16. Almaniya 8 | 49. Slovakiya 4 | 84. Əlcəzair 3,1 | 111. Vyetnam 2 | 142. Türkmənistan2 |
| 17. Yaponiya 7 | 51. Cənubi Afrika 4 | 84. Madaqaskar 3,1 | 111. Yəmən 2 | 151. Belorus 2 |
| 18. Fransa 7 | 51. Tunis 4 | 84. Mavritaniya 3,1 | 111. Zambia 2 | 151. Cambociya 2 |
| 18. İrlandiya 7 | 53. Dominik 4 | 84. Panama 3,1 | 121. Benin 2 | 151. Cote d'Ivoire 2 |
| 20. Belçika 7 | 54. Yunanıstan 4 | 84. Rumınya 3,1 | 121. Qambia 2 | 151. Ekvatorial Qvineya 2 |
| 20. Çili 7 | 55. Kosta Rika 4 | 84. Şri Lanka 3,1 | 121. Qayana 2 | 151. Özbəkistan 2 |
| 20. ABŞ 7 | 55. Namibiya 4 | 90. Qabon 3,0 | 121. Honduras 2 | 156. Banqladeş 2 |

| | | | | |
|---|---|---|---|---|
| 23. İspaniya 6 | 57. Bolqarıstan 4 | 90. Serbiya 3,0 | 121. Nepal 2 | 156. ÇAD 2 |
| 24. Barbados 6 | 57. Salvador 4 | 90. Surinam 3,0 | 121. Filippin 2 | 156. Konqo |
| 24. Estoniya 6 | 59. Kolumbiya 3 | 93. Argentina 2,9 | 121. Rusiya 2 | 156. Sudan 2 |
| 26. Makao 6 | 60. Türkiyə 3 | 93. Ermənistan 2,9 | 121. Ruanda 2 | 160. Qvineya 1 |
| 26. Portuqaliya 6 | 61. Yamayka 3 | 93. Bosniya və Hersoqovina 2,9 | 121. İsveçrə 2 | 160. İraq 1 |
| 28. Malta 6 | 61. Polşa 3 | 93. Eriteriya 2,9 | 130. Azərbaycan 2 | 160 Myanmar 1 |
| 28. Sloveniya 6 | 63. Livan 3 | 93. Suriya 2,9 | 130. Burundiya 2 | 163. Haiti 1 |
| 28. Uruqvay 6 | 63. Seyşelli3 | 93. Tanzaniya 2,9 | 130. Mərkəzi Afrika Respublikası 2 | |
| 31. Birləşmiş Ərəb Əmirlikləri 6 | 63. Tailand 3 | 99. Dominikan Respublikası 2,8 | 130. Efiopiya 2 | |
| 32. Butan 6 | 66. Beliz 3 | 99. Gürcüstan 2,8 | 130. İndoneziya 2 | |
| 32. Qətər 6 | 66. Kuba 3 | 99. Mali 2,8 | 130. Mozambik 2 | |
| 34. İsrail 5,9 | 66. Qrenada 3 | 99. Monqolustan 2 | | |

İndeksdə 9 baldan yuxarı toplamış ölkələr, korrupsiyanın çox aşağı səviyyədə qavrandığı ölkələrdir, bura əsasən zəngin ölkələr – Finlandiya, Yeni Zelandiya, Danimarka, İslandiya, Sinqapur, İsveç və İsveçrə daxildir.

Ən «yüksək» mövqedə Afrika, Asiya və Latın Amerikası dövlətləri durur. Banqladeş, Haiti, Niger, Çad, Myanma, Azərbaycan və Paraqvayda bu sahədə vəziyyət daha pisdir. Bu ölkələr hərəsinə 2 bal toplayıblar.

Qeyd edək ki, Azərbaycan Respublikası «Korrupsiyaya qarşı mübarizə haqqında» Qanunun dövlət başçısı tərfəfindən 2004-cü ilin yanvarın 13-də imzalanıb, martın 3-də qanunun tətbiqi ilə əlaqədar sərəncamı imzalayıb. Sentyabrda isə «Korrupsiyaya qarşı mübarizəyə dair Dövlət Proqramı»nı (2004-2006-cı illər) təsdiq edilib. Dövlət proqramına əsasən, xüsusi orqanın funksiyalarını həyata keçirməyi Dövlət qulluğunun idarəetmə Şurası yanında Korrupsiya ilə mübarizə komissiyasına həvalə edilib.

Komissiya icraedici, qanunverici və məhkəmə hakimiyyəti orqanlarının təyin etdiyi üzvlərdən ibarətdir. Dövlət proqramına müvafiq olaraq, korrupsiya ilə bağlı cinayət axtarış tədbirləri Baş prokurorluğun Korrupsiya ilə mübarizə idarəsi tərəfindən həyata keçiriləcək. Bundan əlavə, korrupsiya ilə mübarizə məqsədilə mərkəzi icra hakimiyyəti orqanlarında daxili nəzarət təşkil olunub. (Korrupsiya ilə mübarizə sahəsində həyata keçirilmiş tədbirləri və bu sahədəki qanunvericilik sənədləri ilə internet saytında tanış ola bilərsiniz – red.)

Dövlət proqramı informasiya azadlığını dövlət orqanlarının fəaliyyətinin şəffaflığının əsas prinsipi kimi istifadə etməyi nəzərdə tutur. Proqramda həmçinin azad rəqabətin yaradılması və inhisarçılığın aradan qaldırılması, özəlləşdirmə sahəsində şəffaflığın təmin edilməsi üçün Antiinhisar Məcəlləsinin qəbul olunması təklif olunur. «Korrupsiyaya qarşı mübarizə haqqında» Qanuna görə, vəzifəli şəxsin yaxın qohumu onun birbaşa tabeçiliyində işləyə bilməz. Qanun vəzifəli şəxsin 50 şərti maliyyə vahidindən yuxarı dəyərli hədiyyələr almasını qadağan edir (275 min köhnə manat – təqribən 55 ABŞ dolları).

Müasir həyatda problemə çevrilmiş korrupsiya idarə olunması formasından və ya coğrafi mövqeyindən asılı olmayaraq bir çox ölkələr üçün səciyyəvidir və həmişə ic-

timaiyyətin diqqət mərkəzində durur. Korrupsiya səviyyəsi yüksək olan ölkələr korrupsiyanı dövlətçiliyin əsaslarını dağıdan, cəmiyyətin sonrakı inkişafı üçün ciddi problemlər yaradan hal kimi dəyərləndirirlər. Korrupsiyaya qarşı mübarizəyə başlamış dövlətlər, bu ağır problemin səbəblərini tədqiq edərək belə bir nəticəyə gəliblər ki, bu məsələnin həlli ilə milli səviyyədə deyil, beynəlxalq səviyyədə məşğul olmaq lazımdır. Buna görə də bu məsələdə milli siyasətlə beynəlxalq təcrübənin əlaqəsi, ümumi strategiyanın işlənib hazırlanması və onun həyata keçirilməsi əsas məqam kimi diqqətdə saxlanmalıdır. Digər ölkələrdə olduğu kimi, Azərbaycanda da korrupsiya mövcuddur və həyatımızın reallıqları bizi korrupsiyaya qarşı mübarizə yollarını tədqiq etməyə, bu istiqamətdə səyləri birləşdirməyə vadar edir. Korrupsiyanın səbəblərini hər şeydən öncə demokratik inkişaf yoluna qədəm qoymuş Azərbaycanın özündə, qeyri-mükəmməl qanunvericilikdə, iqtisadiyyatdakı hərc-mərclikdə, qanunlara pis riayət olunmasında, əhalidə zəruri hüquqi biliklərin olmamasında və nəhayət vətəndaş cəmiyyəti və demokratik ənənələrin zəif olmasında axtarmaq lazımdır.

«Korrupsiyaya qarşı mübarizə haqqında» Qanunun və Korrupsiya ilə mübarizəyə dair Dövlət proqramının qəbul olunması beynəlxalq təşkilatların Azərbaycan qarşısında qoyduğu öhdəliklərlə deyil, həm də korrupsiyanın dövlətimizin iqtisadi inkişafına vurduğu ziyanın və beynəlxalq aləmdəki imicinə vurduğu zərbənin aradan qalıdırılması zərurəti ilə şərtlənib. Belə bir faktı da qeyd edək ki, Azərbaycan Respublikası korrupsiya ilə mübarizəyə dair beynəlxalq konvensiyalara qoşularaq onunla mübarizə aparmaq niyyətini bəyan edib. Bu səbəbdən də beynəlxalq hüquq normalarının Azərbaycan qanunvericiliyində əks olunması çox vacib şərtdir.

Lakin, belə bir həqiqəti yaddan çıxarmamaq olmaz ki, ictimaiyyətin əsaslı dəstəyi, əhalinin fəal iştirakı olmadan, onun sosial-hüquqi problemləri düzgün qiymətləndirilmədən ictimai problemləri həll etmək mümkün deyil. Həm ölkənin rəhbərliyi, həm də əhali ölkədə korrupsiya faktlarının olduğunu bildirirlər. Bu fakt beynəlxalq təşkilatların hesabatlarında da öz əksini tapıb. Bu sənədlərdə bildirilir ki, ölkəmizdə korrupsiya həm məmurlar səviyyəsində, həm də digər səviyyələrdə mövcuddur. Artıq uzunmüddətdir ki, bu sahədə araşdırmalar aparılır və müəyyən neqativ amillər aşkara çıxırılır.

«Turan» İnformasiya Agentliyinin apardığı ekspert sorğusunun materiallarına nəzər salaq. Sorğuda 100 ekspert – analitiklər, politoloqlar, iqtisadçılar, siyasi partya təmsilçiləri, KİV nümayəndələri, işgüzar dairələrin və idarəetmə orqanlarının nümayəndələri iştirak edib

**1. Azərbaycanda hazırda korrupsiyanın səviyyəsini necə qiymətləndirərdiniz?**

A) çox yüksək 73,2%

B) yüksək 17,5%

V) orta 5,2%

Q) aşağı 3,1%

D) çox aşağı 1,0%

Göründüyü kimi, ekspertlərin 90%-i ölkədə korrupsiyanın səviyyəsinin çox yük-

sək olduğu (73,2%) və ya yüksək olduğu (17,5%) qənaətindədir. Yalnız respondentlərin 10%-i daha yumşaq mövqe nümayiş etdiriblər. Beləliklə, Azərbaycanın korrupsiya parametrinə görə beynəlxalq reytinq cədvəllərində liderliyi dolayısı ilə bu sorğunun nəticələri ilə də sübut olunur.

**2. Azərbaycanda korrupsiyanın inkişafını şərtləndirən amillər hansılardır?**

A) Cəmiyyətin vətəndaşlıq və hüquq mədəniyyətinin aşağı səviyyədə olması 46,4%
B) Sovet keçmişi ilə bağlı irs, təcrübə və stereotiplər 26,8%
V) Məhkəmə sistemi və hüquq-mühafizə sisteminin qeyri-effektivliyi 25,8%
Q) Hökumət və yerli hakimiyyət orqanlarının işinin qeyri-effektivliyi 24,2%
D) İqtisadi islahatların tempinin aşağı olması və onların səmərəli olmaması 20,6%
E) İctimaiyyət və KİV tərəfindən lazımi nəzarətin olmaması 14,4%
J) Milli xüsusiyyətlər və ənənələr 13,4%
Z) Zəruri qanunvericilik bazasının olmaması 12,4%
İ) Keçid dövrünün obyektiv qanunauyğunluqları 8,2%

Bu sualın cavabında ekspetlərə bir neçə cavab variantını qeyd etmək imkanı verilmişdi ki, bu da sistemli şəkildə qiymətləndirmə aparılması üçün zəruri idi.

**3. Azərbaycanda korrupsiyanın kökünün kəsilməsi və səviyyəsinin aşağı salınması üçün nə etmək lazımdır?**

1) Ölkədə qanun-qaydanın bərpası 41,2%
2) İqtisadiyyatın liberallaşdırılması üzrə tədbirlər kompleksinin həyata keçirilməsi 36,1%
3) Məhkəmə sisteminin müstəqilliyinin və səmərəliliyinin artımı 32,9%
4) Ölkə vətəndaşlarının ümumilikdə rifah halının yüksəlməsi 30,9%
5) Demokratiya və demokratik institutların inkişafı 28,9%
6) Hakimiyyət sistemində struktur və kadr islahatlarının aparılması 25,8%
7) İctimai institutların və KİV-lərin rolunun artması 15,4%
8) Korrupsiya ilə mübarizə üçün zəruri qanunların qəbul olunması 13,7%
9) Bələdiyyə orqanlarının rolunun və səlahiyyətlərinin gücləndirilməsi 10,3%

**4. Struktur və sahələrdə korrupsiyanın səviyyəsini qiymətləndirin**

Struktur və sahələr: Ballar
1. Gömrük sistemi 4,6
2. Vergi müfəttişliyi 4,4
3. Hüquq-mühafizə orqanları 4,3
4. Prezident Aparatı 4,2
5-6 Yerli özünüidarəetmə orqanları 4,0
7. Məhkəmə sistemi 4,0
8. Dövlət Əmlak Komitəsi 3,9
9. Maliyyə strukturları 3,7
10. ARDNŞ strukturları 3,6

11. Nazirlər Kabineti 3,5
12. Əhalinin sosial müdafiəsi sahəsi 3,3
13. Təhsil sistemi 3,2
14. Hərbi strukturlar 3,0
15. Parlament 2,8

Korrupsiyanın həqiqi səviyyəsinin ölçülməsinin bütün çətinliklərinə baxmayaraq, sorğunun nəticələri bu və ya digər sahələrin korrupsiyaya uğramasına dair ictimai rəydə hakim fikirləri ortaya çıxırmağa imkan verir. Ekspertlərə müxtəlif strukturlarda korrupsiyanın səviyyəsini 5 ballıq sistem üzrə qiymətləndirmək təklif olunmuşdu. Nəticələri şərh etməyə ehtiyac yoxdur.

2 Respondentlərin çox hissəsi təhsil sistemində korrupsiyanın geniş yayıldığını təsdiq edir. Elə həmin təhsil sistemində paytaxtda rayonlara nisbətən korrupsiyanın səviyyəsinin iki dəfə yüksək olması da diqqətə layiq haldır. Əvvəllər təhsil sahəsində korrupsiya hallarına lazımi diqqət ayrılmırdı. Biznesdə, məhkəmə-hüquq sistemində sənaye və kənd təsürrüfatında daha ağrılı problemlər mövcüd idi. Lakin, hazırda bu problem də aktualdır. Pis hal odur ki, təhsildə korrupsiya milli mənəvi dəyərlərə zərbə vurur və yeni nəsli hələ uşaq yaşlarından korrupsiya münasibətlərinə öyrəşdirir. Bu gün uşağının təhsilinə görə rüşvət verən valideyn, sabah elə həmin uşağın rüşvət almasına göz yummalı olacaq, belə ki, valideyn özü bunun əsasını qoyur.

Sorğuda da korrupsiyanın mövcud olduğu sahələr sırasında təhsil sistemi qeyd edilir. Təhsildə korrupsiya harada və necə təzahür edir? Hər şeydən əvvəl ali məktəblərdən danışmaq lazımdır. Ali məktəblərin vasitəsilə orduda xidmətdən azad olma da ali məktəblərdə korrupsiyanın artmasına gətirib. Səbəblər aydındır. Ali məktəblər ikinci vacib funksiyanı həyata keçirməyə başladılar. Birinci vacib funksiya aydındır – təhsil vermək. İkincisi isə – gənclərin ordudan müdafiəsidir.

Ali məktəblərdə korrupsiyanın ən təhlükəli növü isə tələbənin imtahandan, zaçotdan, kurs işindən qiymət almaq üçün müəllimə rüşvət verməsidir. Bu fakt AŞPA-nın məruzəçisi Andreas Qrossun hesabatında da əksini tapıb və o, qeyd edilən faktı Azərbaycan üçün fəlakət aldandırıb.

Ümumiyyətlə, şagirdlər korrupsiya faktı ilə artıq ibtidai siniflərdən, məktəbə qəbul zamanı qarşılaşırlar, sonradan valideynlər müəllimlər tərəfindən zorla qəbul etdirilən əlavə pullu dərslər üçün haqq ödəməli olurlar, məktəblər hal-hazırda valideynlərdə maddi kömək istəmək məcburiyyətindədirlər.

Təhsil sistemində korrupsiyanın qarşısının alınması başqa sahələrdən fərqlənmir. Əgər digər sahələrdə korrupsiya ilə mübarizəyə dair qaydalar və təlimatlar səmərəli deyilsə, onlar təhsil də səmərə verməyəcək.

Korrupsiyaya uğramış təhsil sistemi aşağıdakı kimi xarakterizə oluna bilər.

· Təhsil almaqda bərabərlik.

· Tədris proqramları və materialların bölgüsündə düzgünlük.

· Ali və peşə təhsilinin seçilməsində düzgünlük və şəffaflıq

· İctimai nəzarət üçün açıq olan standartlar sistemi ilə bütün təhsil müəssisələrinin bərabər qiymətləndirildiyi akkreditasiyanın keçirilməsi.

· Təhsil xidmətlərinin və məhsullarının alınmasında düzgünlük.

· Müəssisənin mülkiyyət formasından asılı olmayaraq peşəkar standartların təhsil müəssisələrinin rəhbərləri tərəfindən, pedaqoji fəaliyyətlə məşğul olanlar tərəfindən qorunması

Bir sözlə, korrupsiya – günümüzün reallığıdır. Onu heç kim inkar edə bilməz. Lakin belə bir mənfi faktı da yaddan çıxarmayaq ki, rüşvət alan məmur öz əməlləri ilə işlədiyi kollektiv yanında, tabeçiliyində olan insanların yanında şərəf və ləyaqətini ləkələyir.

Lakin, onlar belə halları dayandırmaq iqtidarında deyillər. Yəqin ki, bəzi insanlar üçün varlanmaq hər şeydən üstündür. Çoxları öz şərəf və ləyaqətlərini özləri alçaldırlar. Onlar özləri də bunu təkzibolunmaz fakt kimi təsdiq edirlər ki, səlahiyyəti olmayan, vəzifəsi olmayan şəxs heç zaman rüşvət almaz və korrupsiyaya qurşanmaz. Bu cür insanlar lazımi hallarda rüşvət verənlərlə rüşvət alanlar arasında vasitəçi ola bilərlər.

**Korrupsiya problemini necə həll etmək olar**

***Şagirdlərdən xahiş edin ki, qruplarda işləyərək nəticələr çıxarsınlar***

Yalnız vəzifəsindən asılı olmayaraq hamının bir nəfər kimi Azərbaycanın maraqlarını və qanunun aliliyini qoruduğu halda vəziyyət dəyişə bilər. Əks halda, bu mübarizə səmərəsiz olacaq və bu istiqamətdə atılan addımlar nəticə verməyəcək. Əvvəlcə yüksək vəzifəli məmurlardan deyil, orta məktəblərdən, uşaq bağçalarından başlamaq lazımdır. Yüksək vətəndaşlıq və hüquqi mədəniyyətə malik, cəmiyyətin maraqlarını öz maraqlarından yüksək tuta bilən şəxsiyyətlər nəsli yetişdirmək lazımdır.

**Tədbirlərin keçirilməsinə dair tövsiyələr**

**1. Antikorrupsiya gününə həsr olunmuş müsabiqə -9 dekabr**
**1. Siz müsabiqənin mövzusunu təklif edə və sərgidən bir neçə gün öncə şərtlərini izah edə bilərsiniz.**

**2. Sinifdə sərgiyə hazırlıq keçirə bilərsiniz - 2-3 saat ərzində.**

**İşin tipi şagirdlər tərəfindən müstəqil şəkildə seçilir. Bura rəsmlər, plakatlar**

**(plakat-qrafikanın bir növüdür, kağız üzərində lakonik, mətnlə müşaiyət olunan cəzbedici təsvir), plastilindən və rəngli kağızdan məktəbdə və cəmiyyətdə korupsiya hallarını əks etdirən, şagirdlərin daxilən bu məfhumu necə qavradıqlarını əks etdirən əl işləri**

# Qeyd:

# Qeyd: